QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 245 (5717) **26 dekabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## "Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır"



*Prezident İlham Əliyevin "Rossiya-24" telekanalına müsahibəsi*

Səh 3

### Valeh İsmayılov: "Prezidentimizin imzaladığı Sərəncam aztəminatlı ailələrə əsl bayram hədiyyəsidir"

Bax 7

*Valeh İsmayılov Kürdəmir şəhərindəki Osman Mirzəyev küçəsində yaşayır. Ailədə altı nəfərdirlər. Yaşlı ata-anası, həyat yoldaşı, biri 11, digəri isə 6 yaşında olan iki oğlu var. On bir il əvvəl ömür-gün yoldaşı ilə qəzaya düşən Valeh 2-ci, yoldaşı isə 3-cü qrup əlildirlər. Aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımı alır. Bu kateqoriyadan olan ailələrə birdəfəlik yardım verilməsi haqqında...*

### Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri açıqlanıb

Bax 10

*Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib. Fonddan AZƏRTAC-a bildiriblər ki, gündəlikdə olan məsələ barədə məlumat verən Fondun icraçı direktoru Vüqar Səfərliyə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təşkil edilən müsabiqənin 2018-ci il noyabrın...*

### "Artıq Ermənistanın bəhanə axtarması üçün heç bir əsası yoxdur"

Bax 11

*"Düşünürəm ki, 2019-cu ildə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində dövlət başçıları səviyyəsində intensiv danışıq raundu başlanacaq". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov deyib. O bildirib ki, Azərbaycan öz ərazilərini Ermənistanın işğalı altında əbədi saxlamaq niyyətində deyil. Millət vəkili söyləyib ki, əslində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar bu il başlanıb...*


Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub



2

"Heydər Əliyev. Şəxsiyyət və Zaman" əsəri Türkiyədə işıq üzü görüb



5

Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib



7

Elmar Məmmədyarov: "Azərbaycan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətini davam etdirəcək"



6

"Ölkəmizdə əldə edilən uğurlarda qadınların çox böyük rolu var"



7

"İrəli" İctimai Birliyinin VI hesabat-seçki konfransı keçirilib



10

11

"Bu, Rusiya-Azərbaycan dostluğuna qısqanc yanaşan qüvvələrə mesaj idi"



12

Atasının qəbrini şəxsi maraqlarına "alət" edən "kişi" fahişəsi



16

Olimpiya Beynəlxalq Atçılıq Şousunda iştirak edən Azərbaycan idmançıları Vətənə qayıdıb



# Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub

*Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib*

***Dekabrın 25-də Daxili İşlər Nazirliyinin Polis Akademiyasında yeni tədris binasının açılışı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev açılışda iştirak edib. Daxili işlər naziri, general-polkovnik Ramil Usubov dövlətimizin başçısına raport verdi. Prezident İlham Əliyev xalqımızın ümummilli lideri Heydər Əliyevin Polis Akademiyasının meydanında ucaldılan abidəsi önünə gül dəstəsi qoydu.***

Dövlətimizin başçısı yeni tədris binasının rəmzi açılışını bildirən lenti kəsdi və burada yaradılan şəraitlə tanış oldu.











Daxili işlər naziri, general-polkovnik Ramil Usubov tədris binasında yaradılan şərait barədə Prezident İlham Əliyevə məlumat verdi.

Bildirildi ki, yeni tədris binasının inşası 2016-2018-ci illərdə aparılıb. Altımərtəbəli bina müasir səviyyədə və yüksək zövqlə inşa olunub. Yeddi min kvadratmetrə yaxın sahəsi olan binada təlim-tədris üçün hər cür şərait yaradılıb. Burada 138 nəfərlik oxu zalı və elektron kitabxana müdavimlərin ixtiyarına veriləcək. Bina liftlər, havalandırma, videomüşahidə, səsanons sistemləri, eləcə də elektron lövhələr və tədris prosesi üçün zəruri olan digər ləvazimatla təchiz edilib. Burada müasir akustik sistemin qurulduğu 252 nəfərlik iclas zalı yaradılıb. Zalda akademiyanın həyatında baş verən əlamətdar hadisələri qeyd etmək üçün hər cür şərait mövcuddur.

Yeni binada ümumilikdə 1400 kursant yerlik 11 mühazirə zalı var. Burada elektron jurnal tətbiq edilir. Bütün kursantlar bu elektron jurnalda qeydiyyatdadır və onlar haqqında məlumat xidməti vəsiqələrin vasitəsilə burada əks olunur. Bütün tədris proqramının daxil olduğu jurnalda kursantlar imtahan vaxtlarını və digər mövzularla bağlı məlumat ala bilirlər. Eyni zamanda, müəllimlər kursantların dərsə davamiyyətinə bu jurnal vasitəsilə nəzarət edirlər. Elektron jurnal həm də ümumilikdə auditoriyaya nəzarət etməyə imkan verir.

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Polis Akademiyası 1992-ci ildə yaradılıb və nazirliyin birbaşa tabeliyində olan dövlət ali təhsil-elm müəssisəsidir. Bu tədris müəssisəsi 1921-ci ildən milis nəfəri və komandir kadrları, 1957-ci ildən isə orta təhsilli hüquqşünas hazırlayan milis məktəbi kimi fəaliyyət göstərib. Ümummilli lider Heydər Əliyevin respublikaya rəhbərliyinin birinci dövründə milis orqanlarına göstərdiyi qayğı və tələbkarlıq sayəsində Bakı Xüsusi Orta Milis Məktəbi və onun maddi-texniki bazası inkişaf etdi, kadr cəhətdən möhkəmləndi və Akademiya səviyyəsinə qədər yüksəldi. Maddi-texniki bazası nəzərə alınaraq, 1995-ci ildə Akademiyaya Nazirlər Kabinetinin qərarı ilə birinci kateqoriyalı ali təhsil müəssisəsi dərəcəsi verilib.

Daha sonra Prezident İlham Əliyev xidməti istifadə üçün alınan yeni avtomobillərə baxdı. Məlumat verildi ki, Yol Patrul Xidməti üçün "Mersedes" markalı 118 avtomobil alınıb. Onlardan 75-i "Mersedes"in C-300, 4-ü E-450, 39-u isə E-350 modelidir. Bu avtomobillərin hamısında yeni i-Patrul sistemi quraşdırılıb. Bu sistem texniki xüsusiyyətlərinə görə əvvəlkilərdən xeyli fərqlənir. Yol Patrul Xidməti avtomobilinin dayandığı, eləcə də hərəkət etdiyi hallarda fasiləsiz qaydada fəaliyyət göstərmək imkanına malik olan sistem ətrafı 360 dərəcə əhatə edən doqquz videonəzarət kamerası ilə təchiz olunub. Məlumat verildi ki, Post Patrul Xidməti üçün isə "Mersedes Citan" markalı 60 avtomobil alınıb. Bu avtomobillər də zəruri texniki avadanlıqla təchiz olunub. Daxili İşlər Nazirliyinin müvafiq strukturlarında digər xidmətlər üçün Azərbaycan istehsalı olan "Khazar" LD avtomobilləri də alınıb.

## *Rəsmi xronika*

"Azərbaycan Sərhəd Mühafizəsinin 100 illiyi (1919-2019)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2018-ci il 18 dekabr tarixli 1392-VQD nömrəli Qanununun tətbiqi haqqında Fərman imzalayıb.

***

Azərbaycan Prezidenti İlham Əliyev İndoneziya Respublikasının Prezidenti Coko Vidodoya başsağlığı verib. Məktubda deyilir: "Hörmətli cənab Prezident, Ölkənizdə baş vermiş sunami nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər məni olduqca kədərləndirdi.

Bu faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün İndoneziya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananlara və xəsarət alanlara şəfa diləyirəm".

***

Prezident İlham Əliyev mikro, kiçik və orta sahibkarlıq subyektlərinin kommunal xidmətlərə qoşulma proseslərinin daha da sadələşdirilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə Fərman imzalayıb.

***

Prezident İlham Əliyev energetika sisteminin təkmilləşdirilməsi və elektrik enerjisi təchizatının yaxşılaşdırılması tədbirləri haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin əməkdaşlarına fəxri adların verilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Azərbaycan Respublikasında kənd təsərrüfatının inkişafında xidmətləri olan bir qrup şəxsin təltif edilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev Elbay Qasımzadənin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan memarlıq sənətinin inkişafında böyük xidmətlərinə görə Elbay Ənvər oğlu Qasımzadə "Şərəf" ordeni ilə təltif edilsin.

# "Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır"

## *Prezident İlham Əliyevin "Rossiya-24" telekanalına müsahibəsi*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Rossiya-24" telekanalına müsahibə verib. AZƏRTAC müsahibəni təqdim edir.**

***- Cənab Prezident salam.***

- Salam.

***- 2018-ci il dünya üçün asan keçmədi. Amma bu, tarixi tərəfdaşlarla, qonşularla və dostlarla münasibətlərin əhəmiyyətini dərk etmək və qiymətləndirmək üçün yaxşı məqamdır. Buna görə də bizə çox xoşdur və Sizə xüsusilə minnətdarıq ki, sıx iş qrafikinə baxmayaraq, vaxt taparaq bu gün burada bizi qəbul edirsiniz.***

- Sağ olun.

***- Cənab Prezident, 2018-ci ilin Azərbaycan üçün siyasi-iqtisadi yekunlarını necə qiymətləndirərdiniz?***

- Bütövlükdə il ölkəmiz üçün uğurlu olub. Azərbaycan uğurla inkişaf edib. Biz beynəlxalq miqyasda əsas tərəfdaşlarımızla, ilk növbədə, qonşu ölkələrlə ənənəvi münasibətimizi möhkəmləndirmişik. Xəzər dənizinin hüquqi statusunun nizamlanması haqqında Konvensiya imzalanıb. Hesab edirəm ki, bu, Xəzəryanı ölkələri bir-birinə daha da yaxınlaşdıran tarixi sənəddir.

İl bizim üçün ikitərəfli formatda fəal keçdi. Biz xeyli ikitərəfli görüşlər keçirmişik, beynəlxalq təşkilatlar daxilində fəal iştirak etmişik. Qoşulmama Hərəkatının üzvü olan ölkələrin xarici işlər nazirləri səviyyəsində Bakıda beynəlxalq forum keçirilib. Gələn il Sammit keçiriləcək və Azərbaycan gələn il bu iri beynəlxalq təşkilata rəhbərlik edəcək.

Daxili-siyasi proseslər nöqteyinəzərindən ölkə uğurla inkişaf edib. Azərbaycanın daxilində potensial risklər mövcud deyil. Xarici potensial risklərə gəlincə isə biz onlardan özümüzü qoruya bilirik. Əlbəttə ki, həmişəki kimi iqtisadi islahatlara böyük əhəmiyyət vermişik. Fikrimcə, 2018-ci il bu cəhətdən çox mühüm il olub. Deməək kifayətdir ki, Dünya Bankının "Doing Business" hesablamalarına görə, bu il ərzində Azərbaycan 32 pillə irəliləyərək dünyada 25-ci yeri tutub. Yəni, bu, o deməkdir ki, biznesin asanlaşdırılması, şəffaflıq, sahibkarlığa dəstək istiqamətində aparılan islahatlar yaxşı nəticələr verir. Bu, əlbəttə ki, investisiya reytinqimizi yüksəldir. Bu il biz 10 milyard dollar investisiya cəlb etmişik. Bu, sərmayədarlarda əminlik yaradır, bizim islahatlar siyasətini davam etdirməkdə qətiyyətimizi də nümayiş etdirir. İnflyasiya 2 faizdən bir qədər çox olub. Əhalinin gəlirləri 9 faizdən çox artıb. Biz valyuta ehtiyatlarımızı artırmışıq, ümumi daxili məhsulun 20 faizi qədər olan xarici borcu məqbul səviyyədə saxlamışıq. Yaxın illər üçün xarici borcun ümumi daxili məhsulun 10 faizə qədəri səviyyəsində saxlanılması üçün strategiya hazırlanıb. Fikrimcə, bu, tamamilə realdır. Bununla əlaqədar onu da deməliyəm ki, bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan demək olar ki, 5 dəfə artıqdır. Yəni, əgər istəsək, bütün borclarımızı azı bir il ərzində ödəyə bilərik. Yəni, makroiqtisadi vəziyyət sabitdir. Biz xeyli sosial məsələləri həll etmişik. Bu il 6 minə qədər məcburi köçkün ailəsi yeni evlər və mənzillərlə təmin olunub. Təxminən 30 minə yaxın insan, yəni, bizim cəmiyyətimizin daha çox ehtiyacı olan hissəsinin nümayəndələri üçün bu il ərzində kiçik şəhər tikilib. Mən bu siyahını davam etdirə də bilərəm, amma düşünürəm ki, dediklərim bizim inkişafın əsas istiqamətlərini səciyyələndirir.



**"Azərbaycanın daxilində potensial risklər mövcud deyil. Xarici potensial risklərə gəlincə isə biz onlardan özümüzü qoruya bilirik"**

***- Güman edirəm ki, MDB məkanında iqtisadiyyatı inkişaf etməkdə olan ölkələr qarşısında olduğu kimi, Azərbaycanın, həmçinin Rusiyanın qarşısında da iqtisadi tempi 1-3 faiz artırmaq vəzifəsi durur. Bu, 2018-ci il ərzində ümumi daxili məhsulun artım göstəriciləri üçün gözlənilən haldır. Bu gün sıçrayış üçün hansı potensialı görürsünüz? Yəni, əgər dünya, orta dünya iqtisadi artım templəri 3 və daha artıq təşkil edirsə, onda aydındır ki, bizim ölkələrimiz qlobal iqtisadiyyatda geri qalmamaq üçün bu göstəriciyə yaxınlaşmalıdırlar.***

- Bəli, siz tamamilə haqlısınız. Biz bu istiqamətdə göstəricilərimizi qiymətləndirərək gələcək addımlarımızı planlaşdıranda həmişə qeyri-neft sektorunu neft sektorundan ayırırıq. Çünki neft sektoru həm qiymət dəyişikliklərinə, həm də neft hasilatının müəyyən artımına, yaxud azalmasına məruz qalır. Azərbaycan OPEK+ proqramının fəal iştirakçısıdır və biz bu yaxınlarda bütün ölkələrlə həmrəylik nümayiş etdirmək üçün hasilatın azaldılması üzrə üzərimizə əlavə öhdəliklər götürmüşük. Buna görə də həmin amillərə əsaslanaraq biz həmişə qeyri-neft iqtisadiyyatına və qeyri-neft sənayesinə daha çox diqqət yetiririk. Fikrimcə, bizim bu istiqamətdə də nəticələrimiz xeyli yaxşı olacaq. On bir ayın yekunlarına görə biz qeyri-neft sənayesinin artımını 9 faizdən çox həcmdə görürük. Bu, ilk növbədə, bizim qeyri-neft sektoru, kiçik və orta sahibkarlıq, fermerlər üçün sərfəli şərait yaradılması üzrə sənayeləşdirmə proqramımızın nəticələridir. Bizim fermerlər torpaq vergisindən başqa bütün vergilərdən azaddırlar. Dövlət güzəştli şərtlərlə gübrə, yanacaq və istehsalata böyük subsidiyalar ayırır ki, biz kənd təsərrüfatı məhsullarının ixracı baxımından mühüm ölkəyə çevrilək. Buna görə də bizim iqtisadiyyatımızın gələcək inkişafı neft-qaz sektoru ilə dəstəklənəcək, lakin dayanıqlı inkişaf sənaye, kənd təsərrüfatı, yüksək texnologiyalarla bağlı olacaq.

Mən bu ilin əlamətdar hadisələrindən biri kimi orbitə üçüncü peykin buraxılmasını qeyd edərdim. Azərbaycan artıq beynəlxalq kosmik klubun fəal üzvüdür. Bizim artıq üç peykimiz var. Bu da bizim niyyətlərimizdən və uğurlarımızdan xəbər verir.

***- Burada birinci plana Rusiya ilə xüsusi münasibətlər çıxır. Qeyri-neft sektorunda əməkdaşlığımız prioritet olduğuna görə bu, uzunmüddətli perspektivdir. Siz bu il Rusiya lideri ilə altı dəfə görüşmüsünüz. Bu, onu göstərir ki, hər iki tərəf bu qarşılıqlı fəaliyyətin, bu əlaqələrin əhəmiyyətini başa düşür. Yaşıl dəhlizlərin yaradılması, o cümlədən, ilk növbədə, kiçik və orta biznes baxımından qarşılıqlı ticarət üçün məhdudiyyətlərin götürülməsi şərtləri müzakirə olunur. Əsas qərarları və zaman oriyentirlərini Siz indi nədə görürsünüz? Bu qərarlar nə vaxt qəbul olunmalıdır?***

- Bəli, siz haqlısınız. Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq. Bu, dəfələrlə sübut olunub və budur, bu yüksək etimad səviyyəsi, ilk növbədə, həm də siyasi qarşılıqlı fəaliyyət bir çox layihələrin həyata keçirilməsinə kömək edir. Siz doğru qeyd etdiniz, mən Prezident Vladimir Vladimiroviç Putinlə altı dəfə, o cümlədən mənim Rusiyaya rəsmi səfərim çərçivəsində və onun Azərbaycana səfəri çərçivəsində, eləcə də beynəlxalq tədbirlərdə görüşmüşəm. Bu görüşlərdən hər biri nəticə verib. Biz əmtəə dövriyyəsinin artırılması məsələsinə çox ciddi yanaşmışıq. Qarşılıqlı fəaliyyətin müxtəlif istiqamətlərinin inkişafı üzrə yol xəritələri işlənib hazırlanıb. Mən şadam ki, bu gün həm Azərbaycan, həm də Rusiya sərmayədarları ölkələrimizin iqtisadiyyatına investisiya qoyurlar. Birgə istehsalatlar yaradılması, əmtəə dövriyyəsinin artırılması üçün çox güzəştli şərait yaradılır. Rusiya bankları böyük həcmdə, yüz milyon dollarla Azərbaycanın mühüm sənaye layihələrini maliyyələşdirir. Bu, bizim münasibətlərin, həm də Azərbaycanın məhz elə ölkə olmasının göstəricisidir ki, burada banklar pul itirməkdən qorxmur. Biz həmişə öz öhdəliklərimizə görə cavab veririk.

Biz 2019-cu il üçün planları müəyyənləşdirmişik. Lap bu yaxınlarda Moskvada Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının növbəti iclası keçirilib. Bu il həm də Rusiya və Azərbaycan prezidentlərinin iştirakı ilə Bakıda Rusiya-Azərbaycan Regionlararası Forumu keçirilib. Yəni, bu da bizim əməkdaşlığımızın, Rusiyanın regionları ilə fəal qarşılıqlı fəaliyyətin və onlarla ticari-iqtisadi münasibətlərin qurulmasının mühüm istiqamətidir. Düşünürəm ki, ikitərəfli ticarətə bizim birgə nəqliyyat təşəbbüslərimiz ciddi təkan verəcək. Şimal-Cənub layihəsi artıq reallaşır. Təkcə bu il biz Azərbaycan vasitəsilə Rusiyadan və Rusiyaya tranzitin on dəfə artdığını görürük, o cümlədən bizim yükgöndərənlər bu nəqliyyat arteriyasından fəal istifadə edirlər. Yəni, biz öz münasibətlərimizə kompleks yanaşırıq. Təməl bizim tarixi dostluğumuzdur. Biz bu təməl üzərində siyasi münasibətlərin çox ciddi bazasını qurmuşuq və ticari-iqtisadi, nəqliyyat, energetika sahələrində, əlbəttə ki, humanitar sahədə əməkdaşlıq münasibətlərinin inkişafı üzrə dəqiq anlaşmamız var. Deməliyəm ki, rusiyalılar Azərbaycana gələn turistlərin sayına görə birinci yeri tutur.

***- Onları da anlamaq olar.***

- Bəli, bu il 800 mindən çox rusiyalı ölkəmizə gəlib və özlərini evdəki kimi çox rahat hiss edirlər. Belə ki, bizim münasibətlərimiz çox zəngindir və düşünürəm ki, qonşuların öz münasibətlərini necə qurması üçün yaxşı nümunədir.

***- Cənab Prezident, Siz xatırlatdınız ki, gələn il Azərbaycan Qoşulmama Hərəkatına rəhbərlik edəcək. Amma axı bu imkandan Avrasiya İqtisadi İttifaqı ilə münasibətləri inkişaf etdirmək üçün də istifadə etmək olar. Bu da elə ərazidir ki, onsuz keçinmək olmur və burada münasibətləri, əlaqələri təkcə ikitərəfli əsasda deyil, həm də Avrasiya cəmiyyəti çərçivəsində möhkəmləndirmək imkanları var.***

- Bəli, sözsüz, biz bu istiqamətdə işləyirik. Deməliyəm ki, bizim Avrasiya İttifaqının üzvü olan ölkələrin mütləq əksəriyyəti ilə çox sıx dostluq, o cümlədən ticari-iqtisadi sahədə münasibətlərimiz var. Bizim həmin ölkələrlə azad ticarət haqqında müqaviləmiz mövcuddur. Əlbəttə, bizim əsas ticari-iqtisadi tərəfdaşımız Rusiya Federasiyasıdır. Bizdə azad ticarət formatı da mövcuddur. Buna görə də biz əlbəttə ki, əməkdaşlıq potensialını gücləndirəcəyik.

Ardı Səh. 4

# “Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır”

## *Prezident İlham Əliyevin “Rossiya-24” telekanalına müsahibəsi*

Əvvəli Səh. 3

İndiki mərhələdə bu əməkdaşlıq daha çox ikitərəfli xarakter daşıyır, bəzən də üçtərəfli, amma daha geniş deyil. Gələn il hadisələrin necə davam edəcəyini və konkret nəticələri zaman göstərəcək. Amma əlbəttə ki, Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq. Əlbəttə, çalışacağıq ki, Azərbaycanın tərəfdaşları olan ölkələr bizə necə dəstək göstərirlərsə, onlar da bizim tərəfimizdən eyni dəstəyi alsınlar.

***- Sizin enerji layihələrinizi və dünya bazarında enerji ambisiyalarınızı xatırlatmaya bilmərəm. Bu gün biz bir çoxları üçün nadir sayılan Rusiya-Türkiyə-Azərbaycan birliyini və Rusiya ilə Azərbaycanın Türkiyə vasitəsilə Avropa İttifaqına qaz axınını necə yönəltmələrini müşahidə edirik. Bizi bu məqamda tez-tez toqquşdurmağa, rəqiblər kimi göstərməyə çalışırlar. Tamamilə aydındır ki, bu gün biz birlikdə öz dövlətlərimizin rifahı naminə Avropa İttifaqının enerji təhlükəsizliyini yaradırıq. Sizin üçün bu layihələr nə deməkdir? Cənub Qaz Dəhlizinin açılması Sizin üçün nə demək idi?***

- Hesab edirəm ki, sizin səciyyələndirdiyiniz bugünkü vəziyyət məhz bu cür olmalı idi. Biz uzun müddət buna doğru getmişik. Bəlkə də müxtəlif istiqamətlərdən, müxtəlif sürətlərlə, amma nəticədə məhz sizin dediyinizə gəlib çatmışıq. Bu gün dünyanın enerji xəritəsində bir növ Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı yaranıb. Bu əməkdaşlığın həm ikitərəfli, həm də üçtərəfli planda böyük perspektivləri var.

Biz enerji layihələrimizi hələ 2000-ci ilin əvvəllərində neft-qaz kəmərlərinin tikintisi ilə həyata keçirməyə başlamışıq. Çünki dünya bazarlarına çıxmaq üçün biz mütləq infrastruktur qurmalı idik. Bizim açıq okeana çıxmaq imkanımız yoxdur. Rusiya nisbətən yaxın vaxtlarda bu istiqamətdə addımlar atıb. Hərçənd biz xatırlayırıq ki, xeyli illər əvvəl “mavi axın” layihəsi gerçəkləşdirilmişdi. Bu barədə indi bir az unudublar. Amma axı bu da Rusiyadan Türkiyəyə Qara dənizin dibi ilə qaz kəmərinin inşası layihəsi idi. Yəni, prinsipcə, bu il “Türk axını”nın dəniz fazasının açılmasında yeni heç nə yoxdur. Sadəcə, Rusiya ilə Türkiyənin yüksək səviyyədə qarşılıqlı siyasi fəaliyyəti bu layihənin reallaşmasına, yaxud da gerçəkləşməsini sürətləndirməyə imkan verib. Buna görə də biz Rusiya və Türkiyənin dostları kimi bu layihəni alqışladıq və həmin layihənin açılış mərasimində yüksək hökumət səviyyəsində iştirak etdik.

“Cənub Qaz Dəhlizi” layihəsinə gəlincə, bu ilin mayında həmin layihə rəsmən işə düşüb. Bu, özündə dörd mühüm müstəqil layihəni birləşdirən layihədir. Bu, iri “Şahdəniz” qaz-kondensat yatağının işlənilməsi və inteqrasiya olunmuş üç qaz kəmərinin tikintisidir. Bu gün bu layihənin dörd seqmentindən üçü artıq reallaşıb və mayda Cənub Qaz Dəhlizinin rəsmi açılışından sonra iyunda TANAP layihəsinin açılışı oldu. Beləliklə, biz Türkiyə, daha sonra isə Avropa bazarlarına daha böyük həcmdə qaz nəql edəcəyik. Bu da bizim siyasətimizin davamıdır, çünki hələ 2007-ci ildə biz Bakıdan Türkiyənin Ərzurum şəhərinə qədər qaz kəməri açmışıq və Türkiyə bazarına qaz ixracatçısıyıq. Cənub Qaz Dəhlizi bizə Türkiyə bazarına qazın ixracını iki dəfə artırmağa, eləcə də Türkiyənin ətrafındakı ölkələrin bazarlarına, sonra isə Qərbi Avropaya çıxmağa imkan verəcək. Bu, bizə böyük qaz potensialımızı reallaşdırmaq imkanı verəcək, xəzinəmizə milyardlarla dollar gətirəcək. Bu, artıq on minlərlə iş yeri yaradıb və əlbəttə ki, Avrasiyanın tamamilə yeni enerji xəritəsini yaradır. Azərbaycanın, Rusiyanın və Türkiyənin bu istiqamətdə səylərini birləşdirməsi bizə nəinki planlarımızı tamamilə reallaşdırmağa, maraqlarımızı təmin etməyə imkan verəcək, həm də enerji ehtiyatlarımızın və nəqliyyatın inkişafı baxımından çox gözlənilən siyasət deməkdir.

***- Mən dərhal rəqiblər tərəfindən gözlənilən siyasət haqqında bir neçə kəlmə deyə bilərəm. Ölkə nə qədər güclü olarsa, nə qədər böyük uğurlar qazanarsa, ona bir o qədər çox təzyiq göstərilir və burada enerji nüfuzu uğrunda mübarizə göz qabağındadır. Siz Qərb ölkələri, ilk növbədə, Birləşmiş Ştatlar tərəfindən Rusiyaya məhz Avropada öz enerji planlarımıza görə məruz qaldığımız təzyiqə baxa bilərsiniz. Siz qoşulmağa hazırsınız, yoxsa, bunun kənar fəsadları var?***

- Məsələ ondadır ki, bizim enerji layihələrimizin inkişafı baxımından heç vaxt belə təzyiq hiss etməmişik. Mən hətta deyərdim, əksinə, Azərbaycan qazı Avropa ölkələrinin enerji təhlükəsizliyini müəyyən dərəcədə təmin edəcəyinə görə biz Avropa İttifaqı tərəfindən dəstək hiss etmişik. Hər il Bakıda “Cənub Qaz Dəhlizi” layihəsinin reallaşdırılması üzrə Məşvərət Şurası keçirilir. Bu layihədə Avropa İttifaqının üzvü olan bir neçə ölkə iştirak etdiyinə görə Avropa İttifaqı bu Məşvərət Şurası çərçivəsində hər zaman yüksək səviyyədə təmsil olunur. Biz öz enerji layihələrimizi reallaşdırırıq, çünki onlar bizə lazımdır. Çünki biz çox zəngin neft-qaz ehtiyatlarına malik ölkəyik. Biz onları satmalı, pul qazanmalıyıq. Buna görə də biz investor şirkətlər cəlb etmişik. Buna görə biz bankları cəlb etmişik. Neft-qaz kəmərləri tikirik. Təkcə Cənub Qaz Dəhlizi təxminən 40 milyard dollara başa gəlir. Bu investisiyaların böyük hissəsi borc kapitallarıdır. Buna görə əlbəttə ki, beynəlxalq maliyyə təsisatları ilə fəal əməkdaşlıq həmin layihənin mühüm amili idi.

Buna görə də həmin kontekstdə enerji layihələrinin icrası baxımından biz heç bir manea hiss etmirik. Digər tərəfdən, tamamilə haqlısınız ki, Azərbaycanın əhəmiyyəti və rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Ölkə daha da inkişaf edir və regionda özünü təsdiqləmək üçün daha çox planları var. Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq bizə təzyiq də artır. Ancaq bu, enerji amilləri ilə əlaqədar deyil. Bu, bəzən bizi xalqımıza və ölkəmizə tamamilə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır. Mən söhbətin əvvəlində dedim ki, bizim ölkədə - Azərbaycanda heç bir potensial risk, fiziki, ideoloji, sosial, siyasi təhdid yoxdur. Bizim vətəndaşların rahatlığını yalnız kənardan poza bilərlər. Ona görə də biz öz suverenliyimizlə bağlı məsələlərə, təhlükəsizliyimiz, vətəndaşlarımızın təhlükəsizliyi məsələlərinə çox həssaslıqla yanaşırıq. Ona görə də Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb. Yəqin ki, bu, kiminsə xoşuna gəlmir və arabir biz bunun nəticələrini görürük. Bir qayda olaraq bunlar bizim ümumiyyətlə iştirak etmədiyimiz beynəlxalq təşkilatların qəbul etdiyi hansısa qətnamələrdə ifadə olunur.

***- İnsan hüquqlarının pozulmasında ittihamlar...***

- Tamamilə doğrudur.

***- Sevimli mövzudur.***

- Bəli, elədir ki, var. Həm də qəribədir ki, bizim əleyhimizə olan qətnamələri üzvü olmadığımız və üzv olmağa hazırlaşmadığımız strukturlar qəbul edirlər. Bax, bu, necə deyərlər, daha çox təbəssüm doğurur. Həmçinin əlbəttə, mətbuata yalançı təbliğat tullantıları atılır. Bu, qarayaxma, şantaj və təzyiq göstərmək cəhdlərinin sevimli üsuludur. Amma bizdə buna qarşı immunitet yaranıb. Azərbaycan vətəndaşları çox yaxşı başa düşürlər ki, bu informasiya tullantıları cəhdlərinin arxasında nə durur. Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır.

***- Mədəniyyət və təhsil məkanı, o cümlədən ölkələrimiz arasında nə qədər geniş və dərin olarsa, vətəndaşlarımız nə qədər savadlı olarsa, onlar nəyin həqiqət və nəyin uydurma olduğunu bir o qədər tez və asanlıqla başa düşəcəklər. Burada mən bizim tarixi əlaqələrimizə, münasibətlərimizə toxunmaya bilmərəm. Azərbaycan o ölkədir ki, Sovet İttifaqının dağılmasından sonra artıq 27 ildir ki, rus dili özünü burada doğma hiss edir. Azərbaycana bu cür turist axını yəqin bununla izah olunmalıdır. Bu gün neçə məktəbdə rus dili tədris olunur? Bu gün Rusiyaya təhsil almağa gedirlər. Bizim üçün bu da çox vacibdir. Belə ki, bu, gələcək üçün, gələcək nəsillər üçün əlaqədir.***

- Bu gün Azərbaycanda rus dilində təhsil verən 340-dan çox məktəb var. Üç mindən çox məktəbdə isə rus dili tədris olunur. Müqayisə üçün deyə bilərəm ki, ölkədə cəmi 4,5 minə yaxın məktəb var. Yəni, bizim məktəblərimizin mütləq əksəriyyətində rus dili tədris olunur. 340-dan çox məktəbdə isə tədris rus dilində aparılır və bu məktəblərin sayı artır. Hazırda bizim rus dilini qorumaq üzrə siyasətimiz yaxşı nəticələr verir. Mən tez-tez, xüsusən yeni dərs ili ərəfəsində məktəblərdə oluram. Görürəm ki, rus dilində yeni şöbələr yaradılır və buna ehtiyac var. Əlbəttə, ölkənin hər bir vətəndaşı, ilk növbədə, öz dövlət dilini bilməlidir. Bu cəhətdən bizim Azərbaycanda problem yoxdur. Dövlət dili Azərbaycan dilidir və bütün kargüzarlıq işləri Azərbaycan dilində aparılır. Belə də olmalıdır. Amma rus dilini bilmək həm tələbatdır, həm də bizim tarixi əlaqələrimizə hörmət əlamətidir. Bu gün mən görürəm ki, buna cəmiyyətdə necə tələbat var. Çünki siz tamamilə haqlısınız, buraya gələn milyona yaxın rusiyalı, fikrimcə, ilk növbədə, ona görə buraya gəlir ki, özlərini rahat mühitdə hiss edirlər. Bu da çox vacibdir. Buna görə də bizim rus dilini qorumaq, onun inkişafı üçün daha yaxşı şərait yaratmaq siyasətimiz tamamilə düzgündür və bunun müsbət nəticələrini görürük. Rus dilinə hörmət etməklə biz öz dilimizə qətiyyən xələl gətirmirik. Bu, sadəcə, mümkün deyil. Hesab edirəm ki, Azərbaycanın bugünkü inkişafı dünyaya, ilk növbədə, öz qonşularına açıq olmaqla milli maraqlarını, identikliyini qorumağın nümunəsidir. Biz son illərdə Rusiyanın iki aparıcı ali məktəbinin - Lomonosov adına MDU-nun və Seçenov adına Tibb Universitetinin filiallarını da yaratmışıq. Həmin filiallarda da tədris Rusiyadan olan müəllimlər rus dilində aparırlar. Buna görə də mədəni-humanitar sahə, təhsil sahəsi elə bir sahədir ki, ölkələrimiz və xalqlarımız arasında əlaqələrin dəstəklənməsinə kömək edəcək. Siz qeyd etdiniz ki, Sovet İttifaqının dağılmasından 27 il ötüb və yeni nəsil yetişib. Biz istəyirik ki, Azərbaycan vətəndaşları rus dilini də, ingilis dilini də və əlbəttə, ilk növbədə, öz ana dilini bilsinlər. Mümkün qədər çox dil bilsinlər və tərcüməçisiz rahat söhbət edə bilsinlər.

***- Rus dili beynəlxalq ünsiyyət dilidir. Biz burada rus dili haqqında məhz bu kontekstdə danışırıq. Amma bir daha qeyd edim ki, əgər gələcək nəsillər əcdadları tərəfindən yaradılan tərəfdaşlığı bilsələr və qiymətləndirsələr, onda bu gün Sizinlə apardığımız müzakirələrin, gördüyümüz işlərin hədər olmadığı sübut ediləcək. Cənab Prezident, Siz 2019-cu ildən nə gözləyirsiniz? Hansı hadisələrin Azərbaycanın həyatında, bizim ölkələrin həyatında mühüm rol oynayacağını güman edirsiniz? Nəyi həll etmək istərdiniz?***

- Mən əminəm ki, 2019-cu ildə ölkəmiz daha da inkişaf edəcək. Həyata keçirdiyimiz islahatların artıq xeyli hissəsi özünü 2019-cu ildə göstərəcək. Biz Azərbaycan iqtisadiyyatının transformasiyası prosesini bitiririk. Buna görə də düşünürəm ki, iqtisadi inkişaf cəhətdən bütün planlar reallaşdırılacaq. Dövlət büdcəsi də artıq qəbul olunub. O, həmişəki kimi sosialyönümlüdür. Buna görə də bütün sosial proqramlar həyata keçiriləcək. Biz gələn il məcburi köçkünlər və qaçqınlar üçün 4 mindən çox mənzil, Ermənistanla Azərbaycan arasında müharibə zamanı həlak olanların ailələri üçün 800-dən çox mənzil istifadəyə verməyi də nəzərdə tutmuşuq. Yəni, bizim iqtisadiyyatımızın sosial yönümü çox əhəmiyyətli olacaq.

**“bizim valyuta ehtiyatlarımız xarici borcumuzdan demək olar ki, 5 dəfə artıqdır. Yəni, əgər istəsək, bütün borclarımızı azı bir il ərzində ödəyə bilərik. Yəni, makroiqtisadi vəziyyət sabitdir”**

Ardı Səh. 5

# "Azərbaycanın inamlı, davamlı, təhlükəsiz və sabit inkişafı bizə ziyan vurmaq istəyənlərə ən yaxşı cavabdır"

*Prezident İlham Əliyevin "Rossiya-24" telekanalına müsahibəsi*

Əvvəli Səh. 4

Düşünürəm ki, 2019-cu ildə Azərbaycanı beynəlxalq nəqliyyat mərkəzinə çevirmək üçün də mühüm addımlar atılacaq. Bu gün Şimal-Cənub və Şərq-Qərb layihələri Azərbaycandan keçir. Biz yeganə ölkəyik ki, bu layihələrin hər ikisində iştirak edirik. Bu layihələrə qoşulan ölkələrin sayı isə ildən-ilə artır. Biz Azərbaycanda ən müasir nəqliyyat infrastrukturu - dəmir yolu, dəniz daşımaları, aviadaşımalar, 6 beynəlxalq aeroport, avtomobil yolları yaratmışıq. Deyə bilərəm ki, Davos İqtisadi Forumunun qiymətləndirməsinə görə, avtomobil yollarının keyfiyyəti üzrə Azərbaycan dünyada 34-cü yeri tutur. Bu kifayət qədər yüksək göstərici bizim həmin layihələrə necə diqqət göstərdiyimizdən xəbər verir. Əlbəttə, biz Qoşulmama Hərəkatının sədri kimi beynəlxalq arenada fəal iş aparacağıq və üzv ölkələrə dəstək verəcəyik. Ümid edirik ki, 2019-cu ildə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanması işində də müsbət irəliləyişlər olacaq. Düşünürəm ki, bu ilin baharında Ermənistanda baş verən hadisələr Ermənistan tərəfindən status-kvonun saxlanılması siyasətinin perspektivsizliyinin əyani göstəricisidir. Biz bu illər ərzində çox böyük inkişaf yolu keçmişik və Azərbaycanla Ermənistan arasında iqtisadi potensialın və bütün digər komponentlərin balansı artıq çoxdan pozulub. Düşünürəm ki, bizim iqtisadiyyatımızı, enerji, nəqliyyat layihələrinin potensialını gücləndirmək üzrə siyasətimiz müəyyən dərəcədə Ermənistanda baş verənlərə səbəb olub. Erməni cəmiyyətini narahat edən bütün digər məsələlərlə yanaşı, bu ilin baharında baş vermiş hadisələrin amillərindən biri Ermənistanın düşdüyü və ya özünü yuvarlatdığı ağır sosial-iqtisadi vəziyyət olub. Bu isə mən qəti əminəm ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmamasının nəticəsində baş verib. Buna görə də düşünürəm ki, həm Ermənistan cəmiyyətində, həm də hakim strukturlarda daha yaxşı başa düşəcəklər ki, münaqişə yalnız ədalətli nizamlanıdqdan, işğal olunmuş ərazilər azad olunduqdan sonra Ermənistan iqtisadiyyatı xeyli arta bilər. Əks təqdirdə, düşünürəm ki, Ermənistanda ciddi sosial-iqtisadi dəyişikliklərin nəticələrini gözləmək çətin olacaq.

**"Bu il Rusiya-Azərbaycan münasibətləri çox sürətlə inkişaf edib. Bizim münasibətlərimiz prinsipcə çox dinamik inkişafla, sabitliklə, davamlı olması ilə səciyyələnir. Biz mehriban qonşu və etibarlı dostuq"**

Yəni, biz öz siyasətimizin nəticələrini görürük. Biz münaqişəni həmişə danışıqlar yolu ilə nizamlamaq istəmişik və istəyirik. Lakin təbii ki, danışıqlar yolu ilə nizamlamaq üçün çox ciddi vasitələr lazımdır. Bizim apardığımız və aparacağımız siyasət sülhün regiona hansı üstünlüklər verəcəyini və sülh olmayacağı təqdirdə Ermənistanda hansı çətinliklər yaranacağını göstərməyə yönəlib. Mən qəti əminəm ki, Ermənistanın yeni rəhbərliyinin ölkəni dəyişmək üzrə bütün planlarını həyata keçirməsi üçün yeganə yol Azərbaycanla münaqişənin nizamlanması yoludur. Bunun üçün isə onlar özlərinə məxsus olmayan ərazilərdən çıxmalı və yüz minlərlə azərbaycanlının öz yurdlarına qayıtmasına imkan verməlidirlər. Buna görə də ümid var ki, bu baxımdan daha çox anlaşma olacaq. Amma dəqiq deyə bilmərəm. Necə deyərlər, vaxt göstərər. Amma biz də haqqında dediyim siyasəti ardıcıl olaraq yürüdəcəyik, xüsusən görəndə ki, o, nəticə verir.

***- Strateji hövsələ, dözüm, səbir və öz inkişafına diqqət Azərbaycanın 2019-cu ildəki seçimidir.***

- Tamamilə doğrudur. Siz bizim planlaşdırdıqlarımızı və etdiklərimizi çox dəqiq ifadə etdiniz.

***- Mən Sizə uğurlar arzulayıram. Bu müsahibə üçün çox sağ olun. Sizə rifah arzulayıram.***

- Sağ olun. Sizi görməyimə həmişə şadam. Yeni il ərəfəsində fürsətdən istifadə edərək, yeni ildə rusiyalılara ən xoş arzularımı çatdırıram, sülh, uğur və xoşbəxtlik diləyirəm.

***- Sağ olun!***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyinin bəyanatı

Son zamanlar sosial şəbəkələrdə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın adından saxta hesabların yaradılması, fotoşəkillərini paylaşaraq ona aid olmayan fikir, sitat və ölkə vətəndaşlarına müraciətlərin yayımlanması geniş yer alıb. Bu cür yalan yazıların artmasını nəzərə alaraq, onların yayılmasının qarşısını almaq məqsədilə Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin Katibliyi bəyan edir ki, xanım Mehriban Əliyeva heç bir sosial şəbəkə istifadəçisi deyil və onun bütün müraciət və bəyanatları auditoriyaya yalnız rəsmi KİV vasitəsilə çatdırılır. Media və sosial şəbəkələrdə ölkənin Birinci vitse-prezidenti adından dövlətimiz üçün mühüm əhəmiyyət kəsb edən məsələlərə, o cümlədən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair saxta açıqlamaların verilməsi çaşqınlıq doğurur. Azərbaycanın Birinci vitse-prezidentinin fəaliyyətinə dair dolğun, rəsmi və doğru informasiyaya sərbəst çıxış mövcud olduğu halda, həqiqətə uyğun olmayan məlumatların istifadəsi və paylaşılması yolverilməzdir. Təkidlə hər kəsi məsuliyyətli olmağa və yoxlanılmamış, saxta və təxribat xarakterli məlumatları yaymaqdan çəkinməyə çağırırıq.

## "Heydər Əliyev. Şəxsiyyət və Zaman" əsəri Türkiyədə işıq üzü görüb

***Bu günlərdə ulu öndər Heydər Əliyevlə bağlı daha bir möhtəşəm əsər qardaş Türkiyədə işıq üzü görüb. Milli Məclisin deputatı, Xalq yazıçısı Elmira Axundovanın "Heydər Əliyev. Şəxsiyyət və Zaman" adlı üçcildlik roman-tədqiqatı ilk dəfə olaraq "TEAS Press Yayıncılıq" tərəfindən türk dilində nəşr olunub. Üçcildliyi türk dilinə tanınmış yazar Azad Ağaoğlu tərcümə edib.***




Elmira Axundova bununla bağlı AZƏRTAC-ın müxbirinə açıqlamasında deyib:

- Bilirsiniz ki, 2014-cü ildə mənim "Heydər Əliyev. Şəxsiyyət və Zaman" adlı yeddicildliyim çox yüksək qiymətləndirilərək dövlət mükafatına layiq görülüb. Mükafat təqdim edilərkən mən şəxsən hörmətli Prezidentimizə və dövlət nümayəndələrinə demişdim ki, bundan sonra əsas məqsədim kitabları xarici dillərə çevirərək onları dünyaya tanıtmaqdır. Mən yeddicildliyi yenidən işləyərək demək olar ki, üçcildlik təzə əsər yaratmışam. Sonra müxtəlif səfirliklərə, fondlara, tanınmış insanlarımıza üz tutmuşam. Artıq əsər Rusiyanın paytaxtı Moskvada Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın sayəsində işıq üzü görüb. Macarıstanın paytaxtı Budapeşt şəhərində dostum, həmkarım, Azərbaycanın Macarıstandakı səfiri Vilayət Quliyevin dəstəyi ilə macar dilində nəşr edilib. "TEAS Press" Nəşriyyat evi sayəsində ingilis dilində işıq üzü görmüş kitabları isə Londonda Britaniya parlamentində təqdim etmişik. İndi gördüyünüz kimi, yenə də "TEAS Press" Nəşriyyat evi tərəfindən bu kitablar Türkiyədə çox nəfis şəkildə türk dilində çap olunub.

Bu hadisə məni artıq dərəcədə sevindirdi, çünki dahi Heydər Əliyev haqqında belə geniş formatda, belə dolğun məzmunda kitab qardaş Türkiyədə ilk dəfə olaraq nəşr edilib. İnanıram ki, bu kitablar sayəsində Türkiyə cəmiyyətinin tanınmış simaları Heydər Əliyev kimi dahi siyasətçinin fəaliyyətini, müstəqil Azərbaycan uğrunda çoxillik gərgin mübarizəsini, onun heyrətamiz şəxsi keyfiyyətlərini və bir çox digər maraqlı məqamları dərindən öyrənməyə imkan tapacaqlar. İstərdim ki, bu kitab Türkiyədə geniş yayılsın. İnanıram ki, bu əsər çox geniş oxucu marağına səbəb olacaq. Çünki Heydər Əliyevi Türkiyədə yaxşı tanıyırlar, Azərbaycan-Türkiyə əbədi dostluğunun təməlini qoyan şəxs kimi onun xatirəsini həmişə uca tuturlar.

Sonda "TEAS Press Yayıncılık" Nəşriyyat evinə və kitabın türkdilli versiyasının nəşrində zəhməti olan bütün insanlara dərin təşəkkürümü bildirirəm, onlara yeni-yeni uğurlar, möhtəşəm layihələr arzulayıram. Ümid edirəm ki, bu üçcildlik Heydər Əliyevi sevənlər sayəsində başqa xarici dillərdə də çap ediləcək.



## Milli Məclisin nümayəndə heyətinin İran parlamentinin sədri ilə görüşü olub

Azərbaycan Respublikası Milli Məclisinin sədri Oqtay Əsədovun rəhbərliyi ilə İranda səfərdə olan parlament nümayəndə heyəti dekabrın 25-də İran İslam Şurası Məclisinin (parlament) sədri Əli Laricani ilə görüşüb. AZƏRTAC xəbər verir ki, görüşdə ikitərəfli münasibətlər, parlamentlərarası əlaqələr, işçi qruplarının fəaliyyəti və qanunvericilik sahəsində təcrübə mübadiləsi məsələləri müzakirə olunub. Görüşdə Azərbaycanın İrandakı səfiri də iştirak edib.

# Elmar Məmmədyarov: "Azərbaycan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətini davam etdirəcək"

***Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov 2018-ci ilin yekunlarına dair kütləvi informasiya vasitələrinin suallarını cavablandırıb. AZƏRTAC müsahibəni təqdim edir.***

*-Ermənistan-Azərbaycan münaqişəsinin həlli üzrə aparılan danışıqların cari il üzrə yekunları nədən ibarətdir? Münaqişənin həlli üzrə danışıqların, xüsusilə son zamanlar səsləndirilən ümidverici bəyanatlar fonunda gələcək perspektivlərini necə görürsünüz?*

- Əvvəla qeyd etmək istərdim ki, ölkəmizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövqeyi dəfələrlə ən yüksək səviyyədə bütün platformalarda səsləndirilib. Münaqişə Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyü və suverenliyi əsasında həll olunmalıdır. Münaqişənin həllinin hüquqi bazasına gəldikdə buraya, ilk növbədə, dünyada sülh və təhlükəsizliyin təmin edilməsinə cavabdeh olan BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 4 qətnaməsi, digər çoxsaylı beynəlxalq təşkilatların, o cümlədən ATƏT, İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı, GUAM, NATO, Avropa Parlamentinin qərar və qətnamələri, eləcə də ikitərəfli və çoxtərəfli formatlarda qəbul edilmiş birgə sənədlər daxildir.

Təəssüf ki, uzun illərdir münaqişənin həlli üzrə aparılan danışıqlar öz nəticəsini verməmişdir. Ermənistanda baş verən son hadisələr, eləcə də Azərbaycan Respublikasının Prezidenti ilə Ermənistan Baş naziri arasında MDB-nin Düşənbə və Sankt-Peterburq zirvə görüşləri çərçivəsində baş tutan söhbətlər və mənimlə ermənistanlı həmkarım arasında keçirilmiş üç görüş danışıqlar prosesinin irəli aparılması baxımından müəyyən optimizm vəd edir. Bu il dekabrın 6-da ATƏT-in Milanda keçirilmiş Nazirlər görüşü çərçivəsində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin nümayəndə heyətlərinin rəhbərlərinin, Azərbaycan və Ermənistan xarici işlər nazirlərinin qəbul olunmuş birgə bəyanatında qeyd edilir ki, münaqişənin sülh yolu ilə ədalətli və davamlı həlli üzrə danışıqların davam etdirilməsi razılaşdırılıb. Bu isə o deməkdir ki, danışıqların formatı dəyişilməz olaraq qalır. Burada, həmçinin iki ölkənin rəhbərləri səviyyəsində Düşənbədə əldə olunan razılaşmaya riayət olunması və hər iki ölkə əhalisinin sülhə hazırlanması üçün konkret addımların atılması çağırışı əks olunur. Vacib məqamlardan digəri isə, birgə bəyanatda münaqişənin ədalətli və davamlı həllinin təşviq edilməsi üçün yaxın gələcəkdə Azərbaycan və Ermənistan rəhbərliyi səviyyəsində intensiv nəticəyə yönələn danışıqların keçirilməsi fikrinin əks olunmasıdır. Bildirmək istərdim ki, bu yanaşma ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən tam dəstəklənir.

Ümumiyyətlə, qeyd etmək istərdim ki, bu ilin dekabrında keçirilən seçkilərdən sonra Ermənistanın hazırkı rəhbərliyi, münaqişənin həlli istiqamətində siyasi iradəsini nümayiş etdirməli və mehriban qonşuluq fəlsəfəsinə uyğun olaraq bölgədə sülh, sabitlik və davamlı inkişafın əldə olunması istiqamətində çalışmalıdır.

Ümid edirik ki, qarşıdan gələn 2019-cu ildə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən çıxarılması və iki ölkə arasında münasibətlərin normallaşması baxımından müəyyən irəliləyiş əldə olunacaq. Münaqişənin həllində mümkün irəliləyiş bölgədə sülh, təhlükəsizlik və sabitliyə şərait yaratmaqla, bütün regionda, ilk növbədə, Ermənistanın özündə davamlı iqtisadi inkişafa imkanlar açacaq. Ölkəmiz digər etnik mənsubiyyətə malik Azərbaycan vətəndaşları kimi, öz beynəlxalq öhdəliklərinə uyğun olaraq Dağlıq Qarabağdakı erməni əsilli vətəndaşlarının da təhlükəsizliyini təmin etməyə və onlara Azərbaycan Respublikasının beynəlxalq tanınmış sərhədləri çərçivəsində yüksək səviyyədə özünüidarəetmə hüququ verməyə hazırdır. Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin azərbaycanlı icması öz doğma yurd-yuvalarına geri qayıtmağa hazırdır və icmanın bu yaxınlarda verdiyi bəyanatında qeyd olunan məsələ növbəti dəfə səsləndirildi. Xatırlayırsınızsa, bir müddət əvvəl Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında təmaslar mövcud idi, lakin əfsuslar olsun ki, Ermənistanın keçmiş siyasi rəhbərliyinin "xidmətləri" nəticəsində bu təmaslara son qoyuldu. Bilirsiniz, torpaqları götürüb başqa bir yerə köçmək mümkün deyil və münaqişənin həllindən sonra, əlbəttə, sözügedən iki icma birgə yaşamalı olacaq. Məhz bu baxımdan Dağlıq Qarabağın azərbaycanlı və erməni icmaları arasında təmasların bərpa edilməsi vacibdir və bu, təşviq olunmalıdır.

*- Azərbaycanın beynəlxalq təşkilatlarla əlaqələrində hansı mühüm uğurları qeyd edə bilərsiniz?*

- 2018-ci il beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq və fəal təmsilçilik xəttini yürüdən ölkəmizin əldə etdiyi bir sıra nailiyyətlərlə yadda qalır. Bu sırada həm BMT və onun ixtisaslaşmış



təşkilatları, həm də digər regional təşkilatları qeyd etmək olar. Belə ki, bu ilin 25 sentyabr - 1 oktyabr tarixlərində keçirilmiş BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində baş tutan bir sıra tədbirlərdə və keçirilən görüşlərdə Azərbaycanı narahat edən məsələlərlə bağlı, eləcə də beynəlxalq gündəliyin aktual məsələlərinə dair ölkəmizin mövqeyinə dəstək və anlayış nümayiş etdirildi. Dekabrın 17-də BMT Baş Assambleyası Azərbaycanın təklif etdiyi, dünya ictimaiyyətinin diqqətini beynəlxalq hüququn müddəalarına hörmət edilməsinə yönəldən və silahlı münaqişələr zamanı itkin düşmə hallarının qarşısının alınması, itkin düşmüş şəxslərin axtarışı ilə bağlı bütün lazımi tədbirlərin həyata keçirilməsi, o cümlədən beynəlxalq öhdəliklərə uyğun olaraq itkin düşmüş şəxslərin taleyinin müəyyənləşdirilməsi üçün əməkdaşlıq edilməsini nəzərdə tutan "İtkin düşmüş şəxslərə dair" qətnamə qəbul edildi. Bu mühüm təşəbbüs Azərbaycanın xarici siyasətinin humanist xarakterini, onun beynəlxalq hüquq və ondan irəli gələn öhdəliklərə sadiqliyini, eləcə də bu qaydalara BMT-nin üzv ölkələri tərəfindən riayət edilməsinə nail olmaq qətiyyətini bir daha qabartmış oldu.

Aprelin 3-5-də Bakıda 117 ölkənin və 16 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi Qoşulmama Hərəkatının üzv ölkələrinin Nazirlər Konfransı keçirildi. Tədbir çərçivəsində qəbul edilmiş yekun sənəd və Bakı Bəyannaməsi ölkəmizin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli üzrə mövqeyinə birmənalı dəstək ifadə etdi.

Həmçinin bu il dekabrın 12-də Avropa Parlamentinin "Aİ-nin xarici siyasət və təhlükəsizlik sahəsində ümumi xarici siyasətinin həyata keçirilməsi" adlı qətnaməsinin qəbulunu vurğulamaq istərdim. Belə ki, bu qətnamə mövcud münaqişələrin ərazi bütövlüyü, suverenlik və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı prinsipləri əsasında həllini təsdiq etdi.

Bu ilin 1 iyul - 31 dekabr tarixlərində ölkəmizin Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyi çox faydalı oldu. Sədrliyimiz dövründə nazirlər səviyyəsində dörd görüş, tematik işçi qruplarının 20-dən çox iclası keçirildi, bizim təşəbbüsümüzlə müvafiq dəyərləndirmə sənədləri qəbul edildi.

İl ərazində beynəlxalq ictimaiyyətin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə münasibətdə artmaqda olan birmənalı dəstəyini xüsusilə vurğulamaq istərdim. Davamlı səylərimiz nəticəsində diplomatik leksikonumuzda beynəlxalq tanınmış sərhədlər çərçivəsində ərazi bütövlüyünə dəstək ifadəsi daha geniş istifadə olunmağa başladı. Keçirilmiş ikitərəfli və çoxtərəfli görüşlər nəticəsində qəbul olunmuş çoxsaylı sənəd və bəyanatlarda, o cümlədən Qoşulmama Hərəkatının nazirlər görüşünün yekun sənədində, NATO-nun zirvə görüşünün yekun bəyanatında, Avropa Parlamentinin sözügedən qətnaməsində, üçtərəfli formatlarda keçirilmiş görüşlərin birgə bəyannamələrində, eləcə də ikitərəfli əsasda qəbul edilmiş bir sıra birgə bəyanatlarda ölkəmizin suverenliyi və beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünə dəstək münaqişənin həlli ilə bağlı onsuz da mövcud olan geniş hüquqi bazanın daha da möhkəmləndirilməsinə xidmət edib.

Bu il ərzində, həmçinin ölkəmizin bir sıra beynəlxalq təşkilatların seçkili orqanlarına üzvlük müraciətləri də uğurlu olub. Məsələn, iyunun 6-da Azərbaycan UNESCO-nun qeyri-maddi mədəni irsi üzrə Komitəsinin üzvü seçilib, bir gün sonra isə Nyu-Yorkda BMT-nin qadınlara münasibətdə ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinə üzv olub, noyabr ayında Dubayda Beynəlxalq Telekommunikasiya İttifaqının Şurasına 2019-2022-ci illər üzrə üzv seçilib, həmçinin ölkəmizin nümayəndəsi BTİ-nin Radio Tənzimləmə Komitəsinə üzv seçilib.

Göründüyü kimi, 2018-ci il ərzində Azərbaycan müxtəlif beynəlxalq təşkilatlar çərçivəsində öz maraqlarını daha da irəli aparmaq səylərini davam etdirib.

*- Bu il Xəzəryanı ölkələr arasında Xəzər dənizinin hüquqi statusuna dair imzalanmış Konvensiya yeni neft-qaz yataqlarının istismarı və TransXəzər qaz kəmərinin tikilməsi baxımından hansı perspektivlər açır?*

- Cari ilin avqustunda "Xəzəryanı beşliyin" liderləri tərəfindən Xəzər dənizinin hüquqi statusu haqqında imzalanan Konvensiya dövlətlərarası əməkdaşlıq üçün yeni, müstəsna imkanlar açdı. Konvensiya tərəflərin Xəzər dənizindən və onun zəngin təbii ehtiyatlarından istifadəsi ilə bağlı hüquq və vəzifələrini tənzimləyir. Bu sənəd Xəzər dənizinin delimitasiya parametrlərini müəyyənləşdirir.

Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyanın imzalanması beş sahilyanı dövlətin xoş məramını bildirən əsl tarixi hadisə oldu. Bu sənədin ölkəmiz üçün əsas əhəmiyyəti sahilyanı ölkələrə dənizin zəngin təbii sərvətlərindən istifadə edilməsi üzrə suveren və müstəsna hüquqlarının müəyyənləşdirilməsindən ibarətdir. Beləliklə, Konvensiya neft-qaz sənayesi sahəsində müxtəlif layihələrin, habelə dənizdə digər iqtisadi fəaliyyətlərin həyata keçirilməsinin davamlılığını və təhlükəsizliyini təmin edir. Xəzər dənizində ticarətin və ölkələrimizin iqtisadiyyatının inkişafı baxımından mühüm rol oynayan naviqasiya azadlığı və təhlükəsizliyi təmin olunur.

Ümumiyyətlə, Konvensiyanın müddəalarının yerinə yetirilməsi orada göstərilən məqsədə nail olunmasını təmin edəcək, Xəzər dənizini sülh, mehriban qonşuluq, dostluq və əməkdaşlıq zonasına çevirəcək. Tarixən Xəzər dənizində nəhəng layihələrin həyata keçirilməsində fəallıq göstərən Azərbaycan gələcəkdə də sahilyanı ölkələrlə əməkdaşlığı davam etdirməyi və genişləndirməyi planlaşdırır.

Uğurlu enerji siyasəti sayəsində Azərbaycan özünün iqtisadi təhlükəsizliyini təmin edən, eləcə də Avropanın enerji təhlükəsizliyinə töhfə verən etibarlı tərəfdaş, istehsalçı və tranzit ölkə kimi nüfuz qazanmağa müvəffəq olub. Hazırda Azərbaycanın təşəbbüsü və iştirakı ilə Cənub Qaz Dəhlizi kimi nəhəng enerji layihəsinin reallaşdırılması davam etdirilir. Bu layihə Xəzər dənizindən təbii qazın Avropaya nəqli baxımından mühüm rol oynayır. Ölkəmiz enerji resurslarının dünya bazarlarına çatdırılmasında yüksək potensiala malikdir və biz Azərbaycanın ərazisindən keçən tranzit marşrutlarından istifadə etmək istəyən qonşu dost ölkələrə imkanlarımızı təqdim etməyə həmişə hazırıq.

*- Məlum olduğu kimi, gələn ildən etibarən Azərbaycan üç il ərzində Qoşulmama Hərəkatına sədrlik edəcək. Bu mühüm hadisə ölkəmizə nələr vəd edir?*

- Beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsini qarşıya məqsəd qoyan ölkəmiz, bildiyiniz kimi, 2011-ci ildə Qoşulmama Hərəkatına üzv oldu. Bu təşkilat öz sıralarında 120 üzv, 17 müşahidəçi ölkəni və 10 müşahidəçi təşkilatı birləşdirən ən böyük beynəlxalq qurumlardan biridir. Qoşulmama Hərəkatı keçmişin çox tanınmış dövlət rəhbərləri olan İosip Broz Tito, Cəvahirləl Nehru, Fidel Kastro və digərlərinin iz qoyduğu kifayət qədər uzun tarixə malik bir qurumdur. Təqdirəlayiq haldır ki, çox qısa zaman ərzində ölkəmiz təşkilat çərçivəsində özünü tanıtmaqla yanaşı, Qoşulmama Hərəkatına 2019-2022-ci illər ərzində sədrlik etmək imkanına sahib oldu.

Ardı Səh. 7

# Elmar Məmmədyarov: "Azərbaycan müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətini davam etdirəcək"

Əvvəli Səh. 6

Məlum olduğu kimi, bu ilin aprelində Qoşulmama Hərəkatının üzv ölkələrinin Bakıda keçirilmiş Nazirlər görüşünün yekun sənədində Azərbaycanın bir sıra təşəbbüslərinə dəstək nümayiş etdirildi, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin BMT TŞ-nin 4 qətnaməsinə uyğun olaraq, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və beynəlxalq tanınmış sərhədləri çərçivəsində həllinin vacibliyi vurğulandı.

Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi təşkilatın beynəlxalq nüfuzunun daha da artırılması məqsədilə üç əsas prioritet üzərində qurulacaq və buraya Bandunq prinsiplərinin təşviqi, Hərəkat daxilində birliyin möhkəmləndirilməsi və Hərəkatın effektivliyinin artırılması daxildir.

Əminliklə qeyd edə bilərəm ki, Qoşulmama Hərəkatında sədrliyimiz ölkəmizin mövqeyinin beynəlxalq səviyyədə çatdırılması baxımından bizim üçün əlavə imkanlar yaradacaq. Təşkilatın üzvü olan 120 ölkə BMT üzv dövlətlərinin üçdə ikisini təşkil edir, bu isə istənilən qərarın qəbuluna təsir imkanı deməkdir. Hərəkata sədrliyimiz, həmçinin ölkəmizin irəli sürdüyü təşəbbüslərin reallaşdırılması baxımından müvafiq imkanlar yaratmış olacaq. Bu təşəbbüslərin həyata keçirilməsi isə öz növbəsində, ölkəmizin beynəlxalq müstəvidə nüfuzunun daha da artmasına xidmət edəcək.

***- 2019-cu ildə Azərbaycan ilə Avropa İttifaqı arasında viza rejiminin sadələşdirilməsi də daxil olmaqla yeni strateji tərəfdaşlıq haqqında sazişin imzalanması mümkündürmü? Bu Azərbaycana hansı dividentlər gətirəcək?***

- Azərbaycan Avropa İttifaqı ilə bərabərhüquqlu və qarşılıqlı faydalı tərəfdaşlıq münasibətlərini inkişaf etdirmək istəyir. Tərəfdaşlığımızın son ili Aİ ilə əməkdaşlıq gündəliyinin daha da irəli aparılması baxımından çox faydalı olub. Bu xüsusda, iyulun 11-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Aİ Şurasının Prezidenti Donald Tusk tərəfindən Brüsseldə paraflanmış, oktyabrın 15-də isə Lüksemburqda keçirilən Şərq Tərəfdaşlığı ölkələrinin Nazirlər görüşü çərçivəsində qəbul edilməsi rəsmiləşdirilən Azərbaycan-Aİ Tərəfdaşlıq Prioritetləri sənədini vurğulamaq istərdim. İkitərəfli əməkdaşlığımızda mühüm mərhələ açacaq Aİ və Azərbaycan arasında yeni hərtərəfli sazişi və sənədlə bağlı aparılan danışıqları da qeyd etmək lazımdır. Danışıqlar prosesi hələ də davam edir və bunun vaxt tələb etdiyi təbiidir, çünki bizə və Aİ tərəfdaşlarımıza ciddi, keyfiyyətli saziş lazımdır. Bu saziş ikitərəfli münasibətlərin hüquqi əsasını təşkil edəcək və qarşılıqlı sahəvi tərəfdaşlığımızı uzun müddətdə möhkəmləndirəcək. İnanırıq ki, bu saziş bərabərhüquqlu tərəfdaşlıq və birgə maraqlara əsaslanan strateji əhəmiyyətli sənəd olacaq. Bu saziş təkcə bizə deyil, eləcə də Aİ üzv ölkələrinə lazımdır.

Viza sadələşdirilməsi üzrə Saziş artıq bir neçə ildir ki, qüvvədədir. Bunun məntiqi davamı Aİ ilə viza rejiminin tam ləğvidir. Yəni viza rejiminin liberallaşdırılması anlamına gəlir. Amma bu müəyyən vaxt tələb edir.

***- Azərbaycanın 2019-cu il üzrə xarici siyasət prioritetləri nədən ibarət olacaq?***

- Ölkəmiz cari ildə olduğu kimi, növbəti il ərzində də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birbaşa rəhbərliyi ilə ölkəmizin milli maraqlarına əsaslanan və milli mənafelərimizin beynəlxalq müstəvidə qorunmasına xidmət edən müstəqil, çoxşaxəli, tarazlaşdırılmış və fəal xarici siyasətimiz davam etdiriləcək.

Bu gün Azərbaycan bölgədə qlobal layihələrin təşəbbüskarı və iştirakçısı qismində regional əməkdaşlığı inkişaf etdirən və beynəlxalq müstəvidə nüfuz sahibi olan dövlətdir. Bu gün etibarlı tərəfdaş kimi dəyərləndirilən ölkəmizin xarici siyasət sahəsindəki nailiyyətləri, əlbəttə ki, onun qonşu ölkələr və dünyanın digər dövlətləri ilə tarazlaşdırılmış əlaqələr qurmasına, qarşılıqlı maraqlara əsaslanan bərabərhüquqlu dialoq və əməkdaşlıq münasibətlərini həyata keçirməsinə əsaslanır.

2019-cu ildə xarici siyasət prioritetlərinə, ilk növbədə, ölkəmizin suverenliyi və müstəqilliyinin möhkəmləndirilməsi, Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün nəticələrinin aradan qaldırılması və beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyümüzün bərpa edilməsi, eyni zamanda, Azərbaycanın təşəbbüskarı və iştirakçısı olduğu irimiqyaslı infrastruktur layihələrinin həyata keçirilməsinin davam etdirilməsi, bütün beynəlxalq aktorlar, o cümlədən dövlətlər, birliklər və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın daha da inkişaf etdirilməsi daxildir.

# Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının növbəti iclası keçirilib



Ölkə üzrə Naxçıvan Muxtar Respublikası daxil olmaqla 2018-ci ilin 11 ayı ərzində Əmək Müqavilələri Bildirişi Elektron İnformasiya Sistemində əmək müqavilələrinin sayında 92 min 750 artım müşahidə olunub. İlin sonunadək bu rəqəmin yüz mindən çox olması gözlənilir.

AZƏRTAC xəbər verir ki, bu barədə dekabrın 25-də Nazirlər Kabinetində keçirilən Əmək Münasibətlərinin Tənzimlənməsi və Koordinasiyası Komissiyasının altıncı iclasında Baş nazirin müavini, komissiyanın sədri Əli Əhmədov deyib. İclasda 2018-ci ildə reallaşdırılan tədbirlər, əldə edilən nəticələr və qarşıda duran vəzifələr müzakirə edilib.

Əli Əhmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı ilə qeyri-rəsmi məşğulluqla mübarizə bundan sonra da qətiyyətlə davam etdiriləcək. Komissiyanın səmərəli fəaliyyəti nəticəsində ölkə üzrə əmək müqavilələri bildirişlərinin və fiziki şəxs olan aktiv fərdi sahibkarların sayında əhəmiyyətli artım müşahidə edilib. Ümumilikdə, komissiyaya üzv olan aidiyyəti qurumların fəaliyyəti nəticəsində və yerlərdə məşğulluğa kömək göstərən əlaqələndirmə komitələrinin dəstəyi ilə cari ildə qeyri-formal məşğul əhalinin sayında əhəmiyyətli azalma müşahidə olunub. Cari ilin 9 ayında, həmçinin fiziki şəxs olan fərdi sahibkarların da sayında artım olub. Belə ki, ilin əvvəlindən fərdi sahibkarların sayı 23 min 63 artaraq 351 min 607 təşkil edib. İlin sonuna qədər bu rəqəmin bir qədər də artması ehtimal olunur. Sonda aidiyyəti üzrə tapşırıqlar verilib.

# "Ölkəmizdə əldə edilən uğurlarda qadınların çox böyük rolu var"



"Qadınlar nə qədər iqtisadi proseslərə çox qoşulacaqlarsa, bir o qədər özlərini azad, müstəqil hiss edəcəklər və qətiyyətlə siyasi proseslərin fəal iştirakçısına çevriləcəklər". SİA-nın məlumatına görə, bunu Milli Məclis sədrinin müavini Bahar Muradova Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2018-ci ilin yekunlarına həsr etdiyi kollegiya iclasında çıxışı zamanı deyib.

Onun sözlərinə görə, ölkəmizdə nailiyyətlərin qazanılmasında və bu nailiyyətlərin qazanılması səbəblərinin formalaşmasında Azərbaycan qadınlarının çox böyük rolu var. B.Muradova hesab edir ki, qtisadi cəhətdən müstəqil olmayan qadın siyasi prosesə nə qatıla, nə də uğur qazana bilər. Ona görə də Azərbaycanda qadınların iqtisadi prosesə qatılması baxımından görülən işlər çox əhəmiyyətlidir. B.Muradova bildirib ki, qadın sahibkarlığının inkişafı vacib məsələdir: "Qadınlarımız iqtisadi proseslərdə, milli-mənəvi dəyərlərin qorunmasında nə qədər çox iştirak edəcəklər sə, nə qədər könüllü olaraq, öz üzərlərinə çox vəzifə götürməli olavaql arsa, biz də onların qanuni əsaslarını daha çox yaratmalı olacağıq".

B.Muradova qeyd edib ki, Azərbaycanda Ailə təsərrüfatların yaradılması qadın sahibkarların inkişafı, uşaqların, gənclərin sağlamlığının təhsilin yüksək səviyyədə təmin olunması, bütün bu proseslərin üzərində ictimai sosial nəzarətin təmin olunması istiqamətində görülən işlər təqdirəlayiqdir: "Bunlardan yalnız qürur duya bilərik. Əlbəttə ki, bu proseslə bağlı üzləşdiyimiz müəyyən problemlər də mövcuddur. Bu problemlərin həlli üçün biz sizinlə birlikdə bu yolu getməkdə davam edəcəyik. Təkcə bu il ərzində Milli Məclisin müvafiq komitələri və Ailə Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birgə bu hüquqların qorunması, əlçətanlığının təmin olunması üçün çoxsaylı müzakirələr həyata keçirilib".

# Valeh İsmayılov: "Prezidentimizin imzaladığı Sərəncam aztəminatlı ailələrə əsl bayram hədiyyəsidir"



Valeh İsmayılov Kürdəmir şəhərindəki Osman Mirzəyev küçəsində yaşayır. Ailədə altı nəfərdirlər. Yaşlı ata-anası, həyat yoldaşı, biri 11, digəri isə 6 yaşında olan iki oğlu var. On bir il əvvəl ömür-gün yoldaşı ilə qəzaya düşən Valeh 2-ci, yoldaşı isə 3-cü qrup əlildirlər. Aztəminatlı ailə kimi ünvanlı dövlət sosial yardımı alır. Bu kateqoriyadan olan ailələrə birdəfəlik yardım verilməsi haqqında Prezident İlham Əliyevin 2018-ci il dekabrın 19-da imzaladığı Sərəncam ailədə böyük minnətdarlıqla qarşılanıb.

Ailə başçısı Valeh İsmayılov AZƏRTAC-ın müxbiri ilə söhbətində deyib: "Möhtərəm Prezidentimizin Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində imzaladığı bu Sərəncam bizə, eləcə də ünvanlı dövlət sosial yardımı alan hər bir ailəyə bayram hədiyyəsidir. Prezidentimiz İlham Əliyevə ailəmiz adından minnətdarlığımı bildirirəm. Biz sevinirik ki, dövlət rəhbərimizin daim diqqətindəyik. Hər zaman Prezidentimizin qayğısını üzərimizdə hiss edirik".

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Sumqayıtda vətəndaşları qəbul edib



Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə əsasən mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam edir. Qəbul zamanı müraciət və təkliflərin, ərizə və şikayətlərin həlli üçün operativ tədbirlər görülür.

AZƏRTAC xəbər verir ki, dekabrın 25-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Sumqayıtda vətəndaşları qəbul edib. Əvvəlcə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı və Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov ulu öndər Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyublar.

Qəbulda Sumqayıt şəhəri ilə yanaşı, Abşeron, Xızı, Qubadlı və Zəngilan rayonlarının sakinləri də iştirak edib. Heydər Əliyev Mərkəzində keçirilən qəbula gələn vətəndaşlar əsasən məscidlərin təmiri, dini icmaların fəaliyyəti, onların dövlət qeydiyyatına alınması məsələlərini qaldırıblar. Eyni zamanda, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, dini icmaların zəruri dini ədəbiyyatlarla təmin edilməsi və digər məsələlərlə bağlı müraciətlərə də baxılıb. Müraciətlərin bir qismi yerindəcə öz həllini tapıb. Araşdırılmasına ehtiyac olan bir sıra məsələlərin qanunvericiliyə uyğun, operativ həlli üçün müvafiq tapşırıqlar verilib.

# Həyata keçirilən islahatlar Azərbaycanın regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin edib

## *Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynovun yap.org.az-a müsahibəsi*

***- Vüsal müəllim, məlum olduğu kimi bu gün Azərbaycan Respublikası uğurlu daxili və xarici siyasət həyata keçirir. Bu mənada, dövlətimizin miqrasiya siyasətinin əsas prioritetləri nədən ibarətdir?***

- Şərqlə Qərbin qovşağında yerləşən, Cənubi Qafqazda təkrarsız təbiətə, çoxəsrlik mədəniyyətə, qədim tarixə və müasir sürətli sosial-iqtisadi inkişafa, turizm imkanlarına sahib olan müasir müstəqil Azərbaycan dövləti sürətlə inkişaf edir. Bu inkişafın əsası Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulub. Dahi öndərin düşünülmüş və uzaqgörənliklə həyata keçirdiyi siyasət bu gün onun layiqli davamçısı möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ölkə Prezidentinin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi islahatlar, qlobal enerji layihələrinin uğurlu icrası, qeyri-neft sektorunun sürətli inkişafı respublikamızın dünya siyasi arenasında müsbət imiclə tanınmasını, regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin edib.

“Əlbəttə ki, bizim inkişafımızın təməlində həm düşünülmüş siyasət, həm güclü iradə, eyni zamanda, güclü iqtisadiyyat dayanır. Biz güclü iqtisadiyyat qura bilmişik, bu gün heç kimdən asılı deyilik, özümüz öz taleyimizin sahibiyik və iqtisadi sahədə böyük uğurlar əldə etmişik” söyləyən Prezident İlham Əliyevin sözlərini Azərbaycanın inkişaf modelini başqalarına nümunə göstərən beynəlxalq təşkilatlar da təsdiqləyir.

Dünya İqtisadi Forumunun açıqladığı “Qlobal Rəqabət Qabiliyyəti 2017-2018” hesabatında Azərbaycan iqtisadiyyatı rəqabət qabiliyyətinə görə 137 ölkə arasında 35-ci, MDB məkanında isə 2009-cu ildən etibarən 1-ci yerdədir. Qlobal rəqabət indeksinə görə Azərbaycan regionun ən rəqabətqabiliyyətli iqtisadiyyatına malikdir və qonşu ölkələrlə müqayisədə ön sıradadır. Eləcə də Dünya Bankı və Beynəlxalq Maliyyə Korporasiyasının dərc etdiyi “Doing Business 2019” hesabatında Azərbaycan dünyanın 10 ən islahatçı dövləti siyahısına daxil edilərək dünyanın ən çox islahat aparan ölkəsi elan olunub. Fərəhli haldır ki, Azərbaycan dünyanın bir çox ölkələrini geridə qoymaqla Müstəqil Dövlətlər Birliyi ölkələri arasında liderdir.

Azərbaycanın sosial, iqtisadi, siyasi, mədəni, bir sözlə bütün sahələrində əldə edilən dinamik inkişaf əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkəmizə marağını artırıb. Dünyada tolerant və multikultural, təhlükəsiz ölkə kimi tanınan Azərbaycana istirahət etmək, yaşamaq və işləmək üçün gəlmək istəyən əcnəbilərin sayı ildən-ilə artır. Statistik rəqəmlərə nəzər salsaq, görərik ki, 2018-ci ilin yanvar-oktyabr ayları ərzində Azərbaycana dünyanın 194 ölkəsindən 2 milyon 420,4 min və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 6,1 faiz çox əcnəbi və vətəndaşlığı olmayan şəxs gəlib. Bu rəqəmlər Azərbaycanın turizm potensialının inkişafının göstəricisidir.

Son illər Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin turizm imkanlarının genişləndirilməsi, biznes mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığın inkişaf etdirilməsi istiqamətində yaradılan münbit şərait ölkəmizdə iş adamlarına səmərəli fəaliyyəti üçün də mühüm imkanlar yaradıb. Azərbaycan tərəfindən həyata keçirilən irimiqyaslı tədbirlər, geniş infrastruktur layihələri, Ələt Azad Ticarət Zonasının yaradılması, Bakı-Tbilisi-Qars dəmir yolunun və Trans-Anadolu (TANAP) qaz kəmərinin istifadəyə verilməsi, Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Cənub Qaz Dəhlizi layihəsinin reallaşması ölkəmizə xarici investisiyanın cəlb edilməsinə xüsusi təkan verib. Bu da öz növbəsində çevik miqrasiya idarəçiliyini şərtləndirir. Bu baxımdan miqrasiya sahəsində təhlükəsizliyin, şəffaflığın və rahatlığın təmin edilməsi ilə biznes mühitinin inkişafına dəstək olmaq Dövlət Miqrasiya Xidmətinin əsas prioritetlərindəndir. Çünki, turizmin və biznes mühitinin inkişafı miqrasiya məsələləri ilə birbaşa əlaqəlidir. Dövlət başçısının müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq, Dövlət Miqrasiya Xidməti də bu sahə ilə bağlı mərkəzi icra hakimiyyəti orqanı kimi qanunla müəyyən edilmiş səlahiyyətləri çərçivəsində işəgötürənlərin iş icazəsi ilə bağlı müraciətlərinə tam şəffaf şəkildə baxılmasını təmin edir. Xidmət tərəfindən hər zaman özəl sektora diqqət göstərilir, işəgötürənlərlə mütəmadi görüşlər keçirilir. İş icazələrinin verilməsi prosesini təkmilləşdirmək, şəffaflığı artırmaq və sahibkarların müraciətlərinə operativ baxılmanı təmin etmək məqsədi ilə DMX-də iş icazələrinə baxılma üzrə birbaşa Dövlət Miqrasiya Xidmətinin rəhbərinə müraciət imkanı təmin edən qaynar xətt yaradılıb. İşəgötürən DMX ilə bağlı hər hansı problemlə qarşılaşsa və yaxud iş icazələrinin verilməsi ilə əlaqədar sualı yaranarsa, dərhal həmin qaynar xətt vasitəsi ilə Xidmətin rəhbərinə müraciət edə bilər. Xidmətin rəsmi saytında xüsusi pəncərədə qaynar xətt nömrəsi və elektron ünvan yerləşdirilib.



Qeyd edək ki, daxili əmək bazarının qorunması da Xidmətin üzərinə düşən vəzifələrdəndir. Miqrasiya Məcəlləsinə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycanda haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaları üçün əsas şərtlər iş yerinin tələblərinə cavab verən peşə hazırlığına və ya ixtisasa malik Azərbaycan vətəndaşının iddia etmədiyi boş iş yerlərinin mövcudluğundan, məşğulluq xidməti orqanları tərəfindən işəgötürənlərin işçi qüvvəsinə olan ehtiyacları yerli əmək ehtiyatları hesabına təmin etmək imkanının olmamasından ibarətdir.

Onu da diqqətə çatdırım ki, işəgötürənlər əcnəbi işçi qüvvəsini haqqı ödənilən əmək fəaliyyətinə cəlb etmələri ilə bağlı müəyyənləşdirilmiş prosedurlara əməl etməlidirlər. Qanunsuzluğa yol verməməlidirlər. Onlardan sadəcə ölkə qanunlarına hörmətlə yanaşmaları tələb olunur.

İş icazəsi bir il müddətinə, əmək müqaviləsinin bir ildən az müddətə bağlanılması nəzərdə tutulduqda isə həmin müddətə verilir. Qeyd edək ki, iş icazəsi ilə bağlı daxil olmuş müraciətlərə 20 iş günü ərzində baxılır. İş icazəsinin müddəti hər dəfə bir ildən çox olmamaq şərti ilə uzadıla bilər.

Hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri işə cəlb etdikləri əcnəbiləri və vətəndaşlığı olmayan şəxsləri yalnız öz iş yerlərində işlə təmin etməli və bu barədə onlarla iş icazəsinin qüvvədə olduğu müddətə əmək müqaviləsi bağlamalıdırlar. Müddətin uzadılması üçün işəgötürən iş icazəsinin müddətinin bitməsinə azı 30 gün qalmış Dövlət Miqrasiya Xidmətinə ərizə ilə müraciət etməlidir.

Ölkəmizdə biznes və investisiya mühitinin yaxşılaşdırılması üçün islahatların aparılması məqsədilə biznes sektoru nümayəndələri - sahibkarlarla, iş adamlarılə mütəmadi olaraq görüşlər, biznes forumları keçirilir, səmərəli müzakirələr aparılır, onların təklifləri ətraflı təhlil olunur və nəticəsindən asılı olaraq əsasən nəzərə alınır. Çünki DMX-nin fəaliyyəti ilə bağlı təklif və iradları bilmək, Xidmətin fəaliyyətinin günün tələblərinə uyğun qurulması və ölkəmizə xarici investisiyanın cəlb olunması üçün işgüzar dairələr ilə əməkdaşlıq əlaqələrini genişləndirmək önəmli məsələdir. DMX-nin təşəbbüsü ilə iş icazələri ilə bağlı şəffaflığın təmin edilməsi, işəgötürənlərin rastlaşdıqları çətinliklərin təhlili məqsədilə ölkəmizdə fəaliyyət göstərən yerli və xarici sahibkarlar konfederasiyalarının, iş icazələri üçün müraciət edən iri şirkətlərin nümayəndələrinin təmsilçiliyi ilə Dövlət Miqrasiya Xidməti yanında Məşvərət Şurası yaradılmışdır.

Bundan başqa ASAN Viza sistemi vasitəsilə elektron əmək vizasının alınması təmin edilib. “ASAN Viza” sistemində viza növlərinin siyahısına əmək vizasının daxil edilməsi, bu prosesin sadələşdirilməsi və asanlaşdırılması Azərbaycan Respublikasına haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq məqsədilə səfər edən əcnəbi və vətəndaşlığı olmayan şəxslərin, həmçinin Dövlət Miqrasiya Xidmətinə iş icazəsi almaq üçün müraciət edən işəgötürənlərin məmnunluqlarının təmin olunmasına xidmət edir.

***- Hazırda Azərbaycan dünyanın dinamik inkişaf edən ölkələri sırasındadır. Sosial-iqtisadi nailiyyətlər ölkəmizi əcnəbilər üçün də əlverişli dövlətə çevirib və bu gün Azərbaycan dünya ölkələrinin vətəndaşları üçün böyük maraq kəsb edir. Bu amil miqrantların ölkəmizə gəlişində əsas rol oynayır. Miqrasiya məsələlərinin tənzimlənməsi ilə əlaqədar qanunvericilik bazası hansı səviyyədədir?***

- Dövlət Miqrasiya Xidməti Azərbaycan Respublikasının miqrasiya sahəsində vahid dövlət siyasətini həyata keçirən dövlət orqanıdır. Qurum əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatını, müvəqqəti olma müddətlərinin uzadılmasını, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınmasını, vətəndaşlığa qəbul, bərpa, xitamla bağlı müraciətlərin qəbulunu, eləcə də vətəndaşlıq mənsubiyyətinin və qaçqın statusunun müəyyənləşdirilməsini, həmçinin əmək fəaliyyətinin həyata keçirilməsi üçün iş icazələrinin alınması və mövcud iş icazələrinin müddətlərinin uzadılmasını və qeyri-qanuni miqrasiyaya qarşı mübarizə tədbirlərini həyata keçirir. Miqrasiya proseslərinin idarə olunması və tənzimlənməsi məqsədilə həm qanunvericilik, həm də onun tətbiqi sahəsində bir sıra ciddi addımlar atılıb, əsaslı tədbirlər həyata keçirilib.

Əcnəbilərin ölkədə olma və yaşamaları, həmçinin iş icazələri ilə bağlı məsələlər qanunvericilik baxımından kifayət qədər sadələşdirilib. Bununla bağlı Miqrasiya Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə müvafiq dəyişikliklər edilib.

Məsələn, qanunvericiliyə edilən dəyişikliyə əsasən Azərbaycana daxil olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyatı ilə bağlı müddət artırılıb. Miqrasiya Məcəlləsinin 21-ci maddəsinə edilmiş dəyişikliyə əsasən əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkədə olduqları yer üzrə qeydiyyatı 10 gündən 15 günədək uzadılıb. Bu da şübhəsiz ki, ölkəmizə turist kimi və yaxud işgüzar qaydada qısamüddətli səfərə gələn şəxslərin məmnunluğunun artırılmasına xidmət edir.

Bundan əlavə, olduğu yer üzrə qeydiyyatla bağlı müraciət imkanları genişləndirilib və “ASAN xidmət” mərkəzlərində də qeydiyyata düşmək imkanı yaradılıb. Bununla bağlı bu ilin may ayında Dövlət Miqrasiya Xidməti ilə Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Məqsəd olduğu yer üzrə qeydiyyat prosesində şəffaflığı, rahatlığı təmin etməklə mümkün növbələrin qarşısını almaq, xidmətdən istifadə məmnunluğunu artırmaq və şəxslərin müraciət imkanlarını genişləndirməkdir. Qeyd edim ki, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir.

Qanuna edilən digər dəyişikliklərdən biri də əcnəbinin və vətəndaşlığı olmayan şəxsin ölkədə olma, yaşama və ya iş icazəsinin ləğv edilməsinə səbəb olmuş əsaslar aradan qalxdıqda onların ölkəyə gəlməsinə qoyulmuş məhdudiyyətin götürülməsidir. Əvvəlki qanunvericiliyə əsasən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin ölkədə olma və ya yaşama, həmçinin iş icazələri qanunvericilikdə nəzərdə tutulan müvafiq əsaslara görə ləğv edilirsə, hər bir halda həmin şəxslər ölkədən çıxarılır və ölkəyə girişlərinə məhdudiyyət qoyulurdu. Əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəlişinin müəyyən müddətə məhdudlaşdırılması təbii ki, bir çox hallarda biznes sektorunun, sahibkarların işinə müəyyən çətinliklər yaradırdı. Bu kimi maneələri aradan qaldırmaq sahibkarların işini asanlaşdırmağa xidmət edir. Çünki bu gün böyük həcmli və uzunmüddətli xarici investisiyalar daha əlverişli biznes mühiti tələb edir.

Digər məsələ miqrasiya qanunvericiliyini pozduğuna görə barəsində inzibati cərimə növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisini tərk etməsi və yenidən ölkəyə gəlməsi ilə bağlıdır. Dəyişiklikdən sonra miqrasiya qanunvericiliyini pozduğuna görə barəsində inzibati qaydada çıxarılmamaqla inzibati cərimə növündə inzibati tənbeh tədbiri tətbiq edilmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs cəriməni ödəmədiyi təqdirdə ölkəyə təkrar girişinə hər hansı məhdudiyyət tətbiq edilmədən ölkə ərazisini tərk edə bilməsidir. Bu halda onların ölkəyə girişi cəriməni ödəyənədək məhdudlaşdırılır və cəriməni ödədikdən sonra ölkəyə girişinə qoyulmuş məhdudiyyət dərhal götürülür. Beləliklə də məhdudiyyətin götürülməsi üçün şəxsin əlavə müraciət etməsinə ehtiyac qalmır. Bu yanaşma miqrasiya proseslərinin tənzimlənməsi sahəsində məmnunluğun yüksəldilməsinə xidmət edir.

Ümumiyyətlə, miqrasiya ilə bağlı qanunvericiliyə edilmiş dəyişikliklərin məqsədi vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, əməkçi miqrantların vəziyyətlərinin yaxşılaşdırılmasına, məmnunluqlarının artırılmasına, rahatlıqlarının təmin edilməsinə, şəffaflığa, ölkə ərazisində ailə bağlılığı və işgüzar əlaqələri olan əcnəbilərin öz hüquqlarından sərbəst istifadəsinə xidmət edir.

***- Nəzərə alaq ki, bu gün qeyri-qanuni miqrasiya problemlərinə başqa dövlətlərdə olduğu kimi, Azərbaycanda da rast gəlinir. Bu problemin qarşısının alınması üçün hansı əsaslı addımlar atılır?***

- Bu gün təhlükəsiz, nizamlı və qanuni miqrasiyanın təmin edilməsi bütün dünyanın qarşısında duran prioritetlərdən biridir. Ölkəmizdə də qeyri-qanuni miqrasiyaya qarşı mübarizə diqqət mərkəzdə saxlanılır. Ölkəmizin bir sıra dövlətlərlə vizasız gediş-gəliş rejiminin mövcud olması respublikamızın ərazisindən tranzit

# Həyata keçirilən islahatlar Azərbaycanın regional və beynəlxalq iqtisadi əməkdaşlıq mərkəzinə çevrilməsini təmin edib

## Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynovun yap.org.az-a müsahibəsi

qaydada keçən, qısa müddətə gələn, həmçinin qanuni əsaslar olmadan ölkə ərazisində yaşamaq istəyən əcnəbilərin sayının artmasına səbəb olub. Qeyri-qanuni miqrasiyanın qarşısının alınması Azərbaycan Respublikasının təhlükəsizliyinin təmin edilməsinin və Azərbaycan vətəndaşlarının maraqlarının müdafiəsinin vacib şərtlərindən biridir.

Ölkənin milli təhlükəsizliyini və milli maraqlarını qorumaqla miqrasiya axınlarının tənzimlənməsi, nəzarətsiz miqrasiya proseslərinin neqativ nəticələrinin qarşısının alınması, miqrantların öz hüquqlarını həyata keçirməsi üçün Dövlət Miqrasiya Xidməti tərəfindən kompleks tədbirlər həyata keçirir.

Ötən müddət ərzində DMX tərəfindən həyata keçirilən tədbirlər nəticəsində bir sıra qanunsuz miqrasiya kanalı aşkar edilib, əcnəbilərin müxtəlif vədlərlə aldadılaraq Azərbaycan Respublikasına gətirilməsində, qanunsuz miqrasiyanın təşkili və dələduzluqda təqsirləndirilən şəxslər məsuliyyətə cəlb olunublar.

Hesab edirəm ki, qeyri-qanuni miqrasiyaya qarşı ən effektli mübarizənin qanuni miqrasiyanın təbliği və təşviqidir. Dövlət Miqrasiya Xidməti tərəfindən ölkə ictimaiyyətinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müxtəlif dillərdə məlumatlandırılması məqsədilə mütəmadi olaraq iş aparılır. Belə ki, olduğu yer üzrə qeydiyyatla bağlı Dövlət Miqrasiya Xidmətinin Azərbaycan, rus və ingilis dillərində yeni dizaynda hazırladığı bildirişlər ölkəyə daxil olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət sərhədinin buraxılış məntəqələrində təqdim edilir. Həmçinin əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkədə olduqları yer üzrə qeydiyyatı ilə bağlı məlumatlandırılmaları məqsədilə 3 dildə yeni video çarx hazırlanıb, Xidmətin qəbul şöbələrində, hava limanında və digər müvafiq yerlərdə yerləşdirilib.

Bundan başqa Dövlət Miqrasiya Xidməti sosial şəbəkələrin imkanlarından istifadəyə önəm verir. Xidmətin rəsmi Tvitter, Facebook səhifələri, Yootube kanalı fəaliyyət göstərir. Məqsəd sosial şəbəkələrin imkanlarından istifadə etməklə DMX-nin fəaliyyəti barədə məlumatlandırma və maarifləndirilmə işini təşkil etmək, hər kəsin miqrasiya orqanlarının fəaliyyəti ilə əlaqədar istədiyi məlumatın sərbəst, maneəsiz və hamı üçün bərabər şərtlərlə qanunla müəyyən edilmiş qaydada əldə olunmasını təmin etmək, vətəndaşların, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin suallarını operativ, çevik cavablandırmaq və müraciətlərini qəbul etməkdir. Eləcə də Xidmətin rəsmi saytının fəaliyyəti məzmun, texniki, vizual və əlçatanlıq baxımından təkmilləşdirilib. Yeni bölmələr və altbölmələr yaradılıb. İstifadə imkanları rahatlaşdırılıb. Səhifədə Xidmətin fəaliyyəti barədə operativ məlumatlar, yeniliklər, miqrasiya qanunvericiliyi, normativ-hüquqi sənədlər, keçirilən görüşlər, tədbirlər, statistika, təşkil edilən səyyar xidmətlər, foto və video materialların yayımını hər zaman diqqətdə saxlanılır.

Biz marağındayıq ki, miqrasiya xidmətlərindən istifadə edən əcnəbi, eyni zamanda vətəndaşlarımız qanunvericiliklə bağlı tətbiq olunan prosedurlar barədə məlumatlı olsunlar. Çünki bizim təhlillər də göstərir ki, əksər hallarda əcnəbilər sırf məlumatsızlıq səbəbindən miqrasiya qanunvericiliyinin tələblərini pozurlar. Bu səbəbdən müəyyən məsuliyyətə cəlb olunurlar. Bunu aradan qaldırmaq, onların özlərini daha əmin, məlumatlı hiss etmələri üçün maarifləndirmə-məlumatlandırma kompaniyalarının aparılmasının rolu böyükdür. Dövlət Miqrasiya Xidməti tərəfindən paytaxtda, respublikanın şəhər və rayonlarında, kəndlərində maarifləndirmə tədbirləri, səyyar xidmətlər, açıq qapı günləri keçirilir. Təkcə bu ilin yanvar-oktyabr aylarında 45 maarifləndirmə-məlumatlandırma tədbiri, 23 səyyar xidmət təşkil edilib. Biz vətəndaşlarımızın, əcnəbiləri və vətəndaşlığı olmayan şəxslərin maarifləndirilməsi işində bütün imkanlarımızı səfərbər etmişik.

***- Vüsal müəllim, beynəlxalq əməkdaşlıq məsələləri haqqında da məlumat verməyinizi xahiş edirik. Dövlət Miqrasiya Xidmətinin beynəlxalq əlaqələri hansı səviyyədədir?***

- Miqrasiya proseslərinin daha effektiv tənzimlənməsi üçün miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlarla və xarici dövlətlərin aidiyyəti qurumları ilə ikitərəfli və çoxtərəfli əsaslarla əməkdaşlığın genişləndirilməsi, Dövlət Miqrasiya Xidmətinin beynəlxalq əlaqələrinin inkişafı daim diqqət mərkəzində saxlanılır. Dövlət Miqrasiya Xidməti çoxtərəfli əsasda Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT), Avropa İttifaqı (Aİ), BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı (BMT QAK), Müstəqil Dövlətlər Birliyi (MDB), Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəz (MSİBM), Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), həmçinin ikitərəfli münasibətlər əsasında Türkiyə Respublikası, Rusiya Federasiyası, Niderland Krallığı və digər ölkələrlə qanuni miqrasiya, miqrasiyanın effektiv idarə olunması, readmissiya, könüllü qayıdış, miqrantların sosial müdafiəsi sahəsində əməkdaşlıq əlaqələrini genişləndirir, birgə layihələr həyata keçirir, eyni zamanda miqrasiya sahəsində qabaqcıl və innovativ xarakterli təcrübələri öyrənir. Xidmət tərəfdaş ölkələrin miqrasiya üzrə məsul qurumları, eyni zamanda beynəlxalq təşkilatlarla birgə bir sıra uğurlu layihələri davam etdirir. Hazırda Aİ və Azərbaycan Respublikasının razılığı ilə Birgə Bəyannamədən irəli gələn MOBİLAZE layihəsi uğurla həyata keçirilir. Ümidvarıq ki, MOBİLAZE Layihəsinin uğurlu icrası Miqrasiya Siyasətinin İnkişafı üzrə Beynəlxalq Mərkəzlə əməkdaşlığımızın daha da gücləndirilməsinə öz töhfəsini verəcəkdir.

Onu da söyləyim ki, bu günlərdə Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) Şurasının 109-cu sessiyasında iştirak etmək məqsədilə İsveçrə Konfederasiyasında rəsmi səfərdə olduq. Sessiya qlobal miqrasiya proseslərinin müxtəlif aspektlərini əhatə edən "Birləşmiş Millətlər Təşkilatının Miqrasiya üzrə Şəbəkəsi: İcmal", "Miqrasiya ilə əlaqədar səhiyyə üzrə siyasətin uzlaşdırılması: çağırışlar və imkanlar" və "Daxili köçürülmələrə cavab: Dövlətlərlə dialoq" mövzularında yüksək səviyyəli panellərin keçirilməsi ilə yadda qaldı. Sessiya iştirakçılarının diqqətinə Ermənistanın Azərbaycan torpaqlarının 20 faizinin işğalı nəticəsində 700 mindən çox həmvətənlərimizin öz yurd-yuvalarından didərgin düşərək məcburi köçkünə çevrildiyini, BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsinin icra olunmadığını çatdırdıq. Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino Azərbaycanın miqrasiya idarəçiliyi modelinin yaxşı nümunə olduğunu qeyd edərək, Azərbaycanın məcburi köçkünlərlə bağlı narahatlığını bölüşdüyünü diqqətə çatdırdı. Səfər çərçivəsində Beynəlxalq Miqrasiya Təşkilatının baş direktoru Antonio Vitorino və Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarı (BMT QAK) Filippo Qrandi ilə görüşlərimizdə mövcud əməkdaşlığın genişləndirilməsi istiqamətində atıla biləcək addımlar barədə fikir mübadiləsi apardıq.

Dövlət Miqrasiya Xidməti beynəlxalq təşkilatlarla miqrasiya proseslərinin tənzimlənməsi, miqrasiyanın effektiv idarə olunması, səmərəli readmissiya idarəçiliyinin yaradılması və digər maraq kəsb edən istiqamətlərdə mövcud olan əlaqələrimizi yüksələn xətlə davam və inkişaf etdirməyə maraqlıdır.

***- Bu günlərdə Dövlət Miqrasiya Xidmətinin mobil tətbiqi geniş ictimaiyyətə təqdim olunub. Bu yeniliyin fayda və üstünlükləri barədə məlumat verərdiniz.***

- Ölkəmizdə miqrasiya proseslərinin idarə edilməsi üçün səmərəli mexanizmlər yaradılır və inkişaf etdirilir. Dövlət Miqrasiya Xidmətinin yeni mobil tətbiqi MİGAZ vasitəsilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər onlayn şəkildə olduğu yer üzrə qeydiyyat, müvəqqəti və daimi yaşamaq üçün icazələrin alınması, məhdudiyyətin və müraciət statusunun yoxlanması, son qeydiyyat tarixinin öyrənilməsi üçün kalkulyator, onlayn ödəmə, onlayn növbə, ASAN viza və xidmətin digər istiqamətləri üzrə servis xidmətlərinin imkanlarından yararlana bilərlər. Məsələn, bu gün əcnəbilərin ölkəmizdə ən çox istifadə etdiyi DMX-nin xidmətlərindən biri olduğu yer üzrə qeydiyyatdır. Yəni, onlar ölkəmizdə 15 gündən artıq müddətdə qaldıqda ünvan qeydiyyatı aparılmalıdır. Bundan sonra əcnəbilər və vətəndaşlığı olmayan şəxslər mobil tətbiq vasitəsilə elektron xidmətlərdən mobil telefonla onlayn qaydada daha asan şəkildə istifadə edə və təxminən beş dəqiqədə bu qeydiyyatı həyata keçirə biləcəklər.

Azərbaycan, ingilis və rus dillərində hazırlanmış mobil tətbiq üzərindən birbaşa əlaqə vasitəsi ilə zəng və sorğuların cavablandırılması da həyata keçirilə bilər. Yaxın gələcəkdə dil seçimi menyusu zənginləşdiriləcək. Yüksək səviyyəli interaktivliyi ilə seçilən mobil tətbiq vasitəsilə istifadəçilərə istər qeydiyyat, istərsə də digər elektron xidmətlərlə bağlı mütəmadi yeniliklər, bildirişlər göndəriləcək. Mobil tətbiqdə istifadəçilər üçün Azərbaycanın tarixi, ölkəmizdə fəaliyyət göstərən turistik məkanlar, istirahət mərkəzləri və digər görməli yerlər, milli musiqimiz, mətbəximiz barədə geniş məlumat bazası təqdim olunur. Hazırda bu tətbiqi "Playstore"dan yükləyərək quraşdırmaq mümkündür. Tezliklə "AppStore"dan da bu tətbiqi yükləmək olacaq. Gələcəkdə mobil tətbiqin imkanlarının genişləndirilməsi və daha artıq xidmətləri əhatə etməsi nəzərdə tutulur.

Onu da deyim ki, hazırda geniş təbliğat - təşviqat kompaniyasına start verilib. Bayram ərəfəsində ölkəmizə gələn əcnəbilərin sayında əhəmiyyətli artımın olması nəzərə alınaraq dekabrın 15-dən yanvarın 15-dək davam edəcək bir aylıq məlumatlandırma kompaniyası aidiyyatı dövlət qurumları - "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC, "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" QSC, "Azərbaycan Dəmir Yolları" QSC, Bakı Nəqliyyat Agentliyi, Park Cinema və Cinema Plus kinoteatrlar şəbəkəsi, 189 Taksi, Park Bulvar, Dəfnə-Dalida restoranlar şəbəkəsi ilə birgə təşkil olunur. Mən fürsətdən istifadə edərək bütün tərəfdaşlarımıza təşəkkürümü bildirirəm. Kampaniya iki istiqamət - videoçarxlar vasitəsilə ümumi maarifləndirmə və ünvanlı qaydada əcnəbilərin özlərinə məlumatların verilməsi üzrə aparılacaq. Bu, ilk addım olaraq 2019-cu ildə həyata keçiriləcək daha geniş miqyaslı təbliğat-təşviqat tədbirlərinin başlanğıcıdır.

***- Dövlət Miqrasiya Xidməti miqrasiya məsələlərinin tənzimlənməsi istiqamətində gələcəkdə nə kimi tədbirlərin həyata keçirilməsini nəzərdə tutur?***

- Xidmətdə müasir innovasiyaların tətbiqinə önəm verilir, miqrasiya ilə bağlı elektron xidmətlərin imkanları genişləndirilir. Bu gün DMX tərəfindən 11 elektron xidmətin "Elektron hökumət" portalına inteqrasiyası təmin edilib vebu da öz növbəsində vətəndaşlara göstərilən xidmətlərin operativliyini, rahatlığını, habelə şəffaflığını təmin edir.

Həmçinin Xidmətin fəaliyyət imkanları genişləndirilir. Bu yaxınlarda "Samur"və "Şıxlı" dövlət sərhəd buraxılış məntəqələrində Dövlət Miqrasiya Xidmətinin24 saat xidmət göstərən xidməti bölmələri fəaliyyətə başlayıb. Miqrasiya bölmələri əcnəbi və vətəndaşlığı olmayan şəxslərin ölkə ərazisinə daha rahat giriş-çıxış etmələrinin təmin olunması, onlara operativ və yerində xidmətlərin göstərilməsi, miqrasiya sahəsində göstərilən xidmətlərin regionlara səfər edən və orada yaşayan əcnəbilər, habelə vətəndaşlar üçün daha əlçatan olmasının təmin edilməsi, onların miqrasiya qanunvericiliyi ilə bağlı məlumatlandırılması və məmnunluğunun artırılmasına xidmət edir. Tezliklə "Astara" dövlət sərhədindən buraxılış məntəqəsində də Dövlət Miqrasiya Xidmətinin yeni xidmət bölməsinin fəaliyyətə başlaması nəzərdə tutulur.

Bir sözlə deyim ki, ölkəyə gələn əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin müraciət etdiyi ilk dövlət qurumlarından biri də Dövlət Miqrasiya Xidmətidir. Xidmət həm də ölkəmiz haqda əcnəbidə təəssürat yaradan, imic formalaşdıran orqandır. Çalışırıq ki, əcnəbilərə ölkəmizin sahib olduğu milli dəyərlərimiz - yüksək qonaqpərvərliyimiz, humanizm və insapərvərliyimiz, eyni zamnda qanunlarımıza hörmət prinsipi barədə doğru və düzgün məlumatlar verək. Xidmət istifadəçilərinin rahatlığını və məmnunluğunu təmin etmək üçün üzərimizə düşən vəzifələri layiqincə yerinə yetirməyə çalışırıq.

Möhtərəm Prezidentimiz İlham Əliyev cənablarının tələblərini rəhbər tutaraq qarşıya qoyulmuş vəzifələrin vaxtında və yüksək peşəkarlıqla yerinə yetirilməsi üçün hər bir miqrasiya əməkdaşının fəaliyyətini ciddi tələbkarlıq şəraitində və günün tələbləri səviyyəsində qurması önəmlidir. Ölkəmizdə miqrasiya ilə bağlı məsələlərin operativ şəkildə həlli işinə, xidmət istifadəçilərinin məmnunluğunun və şəffaflığın təmin edilməsinə, xidmətin keyfiyyətinin yüksəldilməsinə diqqət günbəgün daha da artırılır. Odur ki, hər bir miqrasiya orqanı əməkdaşı üzərinə düşən vəzifə borcunu böyük məsuliyyət hissi ilə yerinə yetirməli, neqativ hallara yol aça biləcək nüanslara fürsət verməməlidir.

DMX-yə müraciət edənlərin məmnunluğunun təmin edilməsi, miqrasiya proseslərinin tənzimlənməsi, daxili əmək bazarının qorunması kimi vəzifə və tapşırıqların müvəffəqiyyətlə yerinə yetirilməsi üçün miqrasiya orqanlarında xidmət aparan əməkdaşlar daha böyük səylə çalışmalıdırlar.

Onu da qeyd edim ki, 2017-2018-ci il üzrə "ASAN xidmət indeksi" üzrə mərkəzi icra hakimiyyəti orqanları sırasında ən yüksək nəticəni Dövlət Miqrasiya Xidməti (68,98 %) göstərib. Uğurlu bir nəticəyə nail ola bilmişiksə buna görə sevinmək olar. Bu, Miqrasiya Xidmətinin işinə verilən yüksək qiymətdə hər bir əməkdaşın xidməti var. Əməkdaşlarımızın bilik və bacarıqlarını cəmləyərək Xidmətin keyfiyyətinin daha da yüksəldilməsi, müasir tələblər səviyyəsində qurulması məqsədilə səylə, əzmlə çalışmalıyıq. Bizim amalımız dövlətə və dövlətçiliyə, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin həyata keçirdiyi müdirik siyasətə sadiq qalaraq yüksək peşəkarlıqla Vətənimizə, xalqımıza, azaerbaycançılıq ideologiyasına xidmət göstərməkdir.

# "İrəli" İctimai Birliyinin VI hesabat-seçki konfransı keçirilib





***Dekabrın 25-də "İrəli" İctimai Birliyinin VI hesabat-seçki konfransı keçirilib. "İrəli"nin təşkilat kimi fəaliyyətinin 10, hərəkat kimi isə 15 illiyinə həsr edilən konfransa dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, gənclər təşkilatlarının təmsilçiləri qatılıblar.***

AZƏRTAC xəbər verir ki, İctimai Birliyin üzvləri əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edib, məzarı önünə əklil və gül dəstələri qoyublar.

Sonra Şəhidlər xiyabanında Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının məzarları üzərinə tər çiçəklər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub. Konfrans Azərbaycan Respublikasının dövlət himninin səsləndirilməsi ilə başlayıb.

"İrəli" İctimai Birliyinin sədr müavini Orxan Rüstəmov qurumun fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, iki il ərzində İctimai Birlik ölkə gənclərinin ictimai, siyasi, iqtisadi, ekoloji, mədəni və digər sahələrdə fəallıqlarının artırılması məqsədilə genişmiqyaslı layihələr həyata keçirib, Birliyə yeni üzvlər qəbul olunub. Bildirilib ki, "İrəli" İctimai Birliyi 2003-cü il avqustun 26-da gənclər hərəkatı kimi fəaliyyətə başlayıb. Qurumun əsas məqsədi Azərbaycanda gənclər siyasətinin həyata keçirilməsinə töhfə vermək və gənclərin inkişafına nail olmaqdır. Beş ildən sonra İctimai Birlik gənclər hərəkatı kimi fəaliyyətini dayandırıb. Qurum 2008-ci il dekabrın 24-dən təşkilat kimi fəaliyyət göstərməyə başlayıb. İctimai Birliyin əsas məqsədi dövlət gənclər siyasətinin inkişafına dəstək ola biləcək gənclərin təşəbbüslərini stimullaşdırmaq və ölkəmizin maraqlarını qoruya bilən vətəndaş cəmiyyətinin formalaşmasında iştirak etməkdir. Həmçinin bu sahədə çalışan dövlət orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqələri gücləndirmək və mövcud əməkdaşlığı gücləndirərək Azərbaycanın gənclər siyasətinin uğurla reallaşdırılmasına töhfə vermək də İctimai Birliyin əsas məqsədlərindəndir.

İctimai Birliyin sədri Mirhəsən Seyidov tədbirdə çıxış edərək deyib: "İrəli" İctimai Birliyi olaraq daim ölkəmizin maraqlarını ön planda saxlamağa, gənclərə düzgün istiqamət göstərərək onların milli-mənəvi dəyərlər ruhunda yetişməsinə nail olmağa çalışmışıq. İnanıram ki, buna nail ola bilmişik. Prezident İlham Əliyevin "gənclərə dəstək ideologiyası" missiyasını əsas tutmuşuq və bunu özümüzə borc bilmişik. "İrəli" İctimai Birliyi olaraq daim öz üzərimizdə çalışırıq. Biz komanda olaraq ölkə gəncliyinin sağlam, intellektual yetişməsini əsas tutaraq dəstəkləyir, onların nümunəvi şəxsiyyət kimi formalaşmasına dəstək olmağa çalışırıq. "İrəli" İctimai Birliyi nəinki Azərbaycanda, ölkəmizin hüdudlarından kənarda da nailiyyətlər qazanıb. Onlarla gəncimiz xaricdə Azərbaycanı uğurla təmsil edib. Onlar beynəlxalq sahədə Azərbaycan gəncliyinin necə bilikli və istedadlı olduğunu təbliğ edərək ölkəmizlə bağlı həqiqətləri dünya ictimaiyyətinin diqqətinə çatdırıblar".

Sonra Birliyin 2014-2018-ci illərdəki fəaliyyətinin yekunlarına dair hesabat xarakterli videoçarx nümayiş etdirilib.

Milli Məclisin gənclər və idman komitəsinin sədri Ülvi Quliyev çıxış edərək ölkəmizin aparıcı gənclər təşkilatlarından olan "İrəli" İctimai Birliyinin fəaliyyəti dövründə bir sıra mühüm layihələr həyata keçirdiyini vurğulayıb. Bildirib ki, İctimai Birlik Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, eləcə də ekologiya, elm, təhsil, mədəniyyət, idman, vətənpərvərlik sahələrində yerli və beynəlxalq miqyaslı uğurlu layihələr reallaşdırıb. İctimai Birlik 10 illik fəaliyyəti dövründə Azərbaycanın gənclər təşkilatları arasında özünəməxsus yer tutub".

Gənclər və idman nazirinin müavini İntiqam Babayev qurumun növbəti illərdə də böyük uğurlar qazanacağına əminliyini ifadə edib. Nazir müavini vurğulayıb ki, bu gün Azərbaycanda gənclər hərəkatı dinamik inkişaf dövrünü yaşayır. Ölkəmizdə aidiyyəti dövlət qurumları gənclər təşkilatlarının uğurlu fəaliyyəti üçün lazımi dəstək göstərirlər. Hazırda Azərbaycanda yüzlərlə gənclər təşkilatının olduğunu deyən nazir müavini "İrəli" İctimai Birliyinin fəallığı ilə seçildiyini diqqətə çatdırıb. Qeyd edib ki, regionun ən böyük və peşəkar gənclər təşkilatlarından biri olan "İrəli" İctimai Birliyinin təşkilat kimi 10, hərəkat kimi fəaliyyətinin 15 yaşı tamam olur. İctimai Birlik reallaşdırdığı layihələrlə ölkəmizin inkişafına töhfə vermək istəyən gənclərin təşəbbüslərinin həyata keçirilməsinə şərait yaradır. Ulu öndər Heydər Əliyev daim Azərbaycanda yüksək intellektli, vətənpərvər gənclərin yetişməsinə çalışırdı. Sevindirici haldır ki, Azərbaycandakı gənclər təşkilatlarının, o cümlədən "İrəli" İctimai Birliyinin üzvləri ölkəmizin inkişafında fəal iştirak edirlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının gənclər siyasəti və idman məsələləri şöbəsinin sektor müdiri İrfan Davudov dövlət gənclər siyasətinin əsas istiqamətlərindən danışaraq bildirib ki, ulu öndər Heydər Əliyev hakimiyyətinin bütün dövrlərində gənclərə xüsusi diqqətlə yanaşıb. Ümummilli Liderin parlamentdə gənclərlə görüşü, Gənclər və İdman Nazirliyinin yaradılması ilə bağlı Fərmanı dahi rəhbərin bu sahəyə göstərdiyi diqqət və qayğının bariz göstəricisidir. Hazırda bu siyasət Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. "Prezident İlham Əliyevin yüksək diqqət və qayğısı nəticəsində bu sahədə Dövlət proqramları qəbul olunur, mühüm tədbirlər reallaşdırılır. Məhz bu qayğının sayəsində bu gün Azərbaycan gəncləri istər yerli, istərsə də beynəlxalq səviyyədə mühüm uğurlar qazanırlar. Bu gün ölkəmizdə fəaliyyət göstərən QHT-lər arasında gənclər təşkilatları fəallıqları ilə seçilirlər", - deyə İ.Davudov qeyd edib.

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun icraçı direktoru Fərid Cəfərov, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının sədri, Milli Məclisin deputatı Şahin İsmayılov əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla reallaşdırılması nəticəsində müstəqil ölkəmizdə dinamik və vətənpərvər gəncliyin yetişdiyini qeyd ediblər. Bildirilib ki, təşkilatın müəyyənləşdirdiyi prioritet istiqamətlərə nəzər yetirdikdə Birliyin öz üzərinə böyük məsuliyyət götürdüyünü görmək mümkündür. Əminliklə diqqətə çatdırılıb ki, "İrəli" İctimai Birliyi qarşıdakı dövrdə də bu istiqamətdə uğurlu layihələr həyata keçirəcək.

Çıxışlardan sonra səsvermə olub və Mirhəsən Seyidov yenidən "İrəli" İctimai Birliyinin sədri seçilib. Səsvermə nəticəsində qurumun idarə heyətinin tərkibi də formalaşdırılıb.

Mirhəsən Seyidov çıxış edərək dövlət gənclər siyasətinin uğurla həyata keçirilməsi, gənclərin ideya və təşəbbüslərinin üzə çıxarılması və dəstəklənməsi işində bundan sonra səylə çalışacağını bildirib. Konfransda İctimai Birliyin il ərzində fərqlənən gənc üzvləri, eləcə də təşkilatla səmərəli əməkdaşlıq edən qurumların təmsilçiləri təltif olunublar.




# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri açıqlanıb

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsinə və təsdiqinə həsr olunmuş iclası keçirilib. Fonddan AZƏRTAC-a bildiriblər ki, gündəlikdə olan məsələ barədə məlumat verən Fondun icraçı direktoru Vüqar Səfərliyə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təşkil edilən müsabiqənin 2018-ci il noyabrın 8-dən dekabrın 14-dək "Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirildiyini bildirib.

Sonra müsabiqənin ekspertlərin rəyləri əsasında hazırlanmış yekun nəticələri iclasın müzakirəsinə təqdim edilib. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən - Bəhruz Quliyev, İntiqam Hümbətov, Əvəz Rüstəmov və Rasim Həsənov Fondun keçirdiyi müsabiqələrin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi, yaradıcı əməyini stimullaşdırılması və sosial vəziyyətlərinin yaxşılaşdırılması baxımından əhəmiyyətini qeyd ediblər. Müzakirələrin yekununda müsabiqənin şərtlərinə uyğun olaraq 19 istiqamətin hər biri üzrə 6 yazı müəllifi qalib elan edilib, ümumilikdə 112 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

***

Dekabrın 25-də Beynəlxalq Mətbuat Mərkəzində Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələri açıqlanıb.

Tədbirdə Fondun icraçı direktoru Vüqar Səfərli, Müşahidə Şurasının üzvləri, habelə ölkənin 30-dan çox aparıcı kütləvi informasiya vasitələrinin rəhbərləri, yazıları qiymətləndirmiş ekspertlər və qalib jurnalistlər iştirak ediblər.

Fondun icraçı direktoru Vuqar Səfərli tədbiri giriş sözü ilə açaraq Azərbaycan mediasının dövlətimizin başçısının xüsusi diqqət və qayğısını hiss etdiyini bildirib. Bu qayğıkeş münasibətə görə ölkə jurnalistləri adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə dərin təşəkkürünü ifadə edən V.Səfərli dövlətimizin başçısını doğum günü münasibətilə təbrik edib, xalq və dövlət naminə yorulmaz fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayıb.

İcraçı direktor qeyd edib ki, Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu 2018-ci ildə 33 qəzetə maliyyə dəstəyini davam etdirib. V.Səfərli həmin qəzetlərdə Azərbaycan Respublikasında KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə 6 mindən çox yazı dərc edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, Fond 2018-ci il ərzində 3 dəfə - Novruz bayramı, Azərbaycan Milli Mətbuatının yaranmasının 143-cü ildönümü və 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə fərdi jurnalist yazıları müsabiqələri təşkil edib. Bundan əlavə, il ərzində Fond Müəllif Hüquqları Agentliyi, Suraxanı və Qaradağ rayon icra hakimiyyətləri, "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti, Mədəniyyət Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi ilə birgə 7 əlavə müsabiqə keçirib. Ümumilikdə, 2018-ci ildə keçirilmiş 10 müsabiqədə 818 nəfər iştirak edib, onlardan 420 nəfəri qalib olaraq mükafatlandırılıb.

Vüqar Səfərli 2018-ci ilin "Azərbaycanda Xalq Cümhuriyyəti İli" elan edilməsi ilə əlaqədar oktyabr ayında aparıcı media nümayəndələrindən ibarət nümayəndə heyətinin Gürcüstan Respublikasının paytaxtı Tbilisi şəhərinə, noyabrda isə Türkiyə Cümhuriyyətinin paytaxtı Ankara şəhərinə səfərlərinin təşkil edildiyini xatırladıb.

İcraçı direktor Vüqar Səfərli internet media resurslarının sürətlə inkişaf etdiyi hazırkı dönəmdə çap mediasının müəyyən problemlərlə üzləşdiyini təəssüflə vurğulayıb. Vüqar Səfərli bildirib ki, qəzetlərin fəaliyyətində əsaslı dönüşə nail olunması üçün hazırda Fondun maliyyə yardımı müsabiqəsinin şərtlərində əsaslı dəyişikliklərin edilməsi, tələblərin sərtləşdirilməsi, habelə internet media resurslarının da maliyyələşdirilməsi məsələləri nəzərdən keçirilir.

O, həmçinin fərdi jurnalist yazıları müsabiqələri üçün mövcud şərt və meyarlarda da yeni dövrün tələblərinə uyğun mütərəqqi yeniliklərin ediləcəyini, şəffaflığın təmini üçün əməkdaşlardan elektron əmək müqaviləsi bildirişlərinin tələb olunacağını vurğulayıb.

İcraçı direktor Fondun 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə noyabrın 8-dən dekabrın 14-dək KİV-lərə Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinə 64 kütləvi informasiya vasitəsindən 160 yazının təqdim edildiyini, yazıların 12 ekspert tərəfindən qiymətləndirildiyini bildirib.

Fondun ekspertlərindən - Jurnalistlərin Həmkarlar İttifaqının sədri Müşfiq Ələsgərli, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Məmmədov, habelə Fondun Müşahidə Şurasının üzvü Bəhruz Quliyev çıxış edərək keçirilmiş fərdi jurnalist yazıları müsabiqələrinin jurnalistlərin peşəkarlıq səviyyəsinin yüksəldilməsi və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayıb, qalibləri təbrik ediblər. Ekspertlər çıxışlarında yazılarda peşəkarlıq və məsuliyyətin artdığını bildirməklə yanaşı, qüsurların aradan qaldırılması ilə bağlı tövsiyə və təkliflərini bildiriblər. Sonra 19 istiqamətin hər biri üzrə müsabiqə qaliblərinin adları açıqlanıb.

# Cari ilin mühüm iqtisadi hadisələri

***Artıq təşəkkül tapmış ümumi iqtisadi sabitlik davamlı iqtisadi inkişafa əsaslı zəmin yaradır və müsbət dinamikanı şərtləndirir. Daha dəqiq desək, iqtisadi sabitlik sayəsində dinamik inkişaf tendensiya xarakterini alır və iqtisadi irəliləyişə əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. 2018-ci il də, məhz iqtisadi irəliləyiş, dinamik inkişaf, islahatlar, qlobal layihələr və uğurlu nəticələr baxımından yaddaqalan oldu.***

Cari il iqtisadi hadisələr sırasında ən mühümü və hətta birincisi Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin nəzərdə tutulduğu vaxtdan da tez istifadəyə verilməsidir. Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksi Xəzər dənizində ən böyük limandır və təsadüfi deyil ki, Ələtdə yerləşən bu liman bütün daşımaların ortaq nöqtəsi olmaqla, daşınmalar üçün mərkəz hesab olunmaqdadır. Şimal-Cənub və Şərq-Qərb dəhlizlərinin Azərbaycan seqmentləri olan avtomobil və dəmir yolu xətlərinin kəsişməsində bu kompleksin tikilməsi də böyük əhəmiyyət kəsb edir və limanın həmin ərazidə inşası buraya su magistrallarının da əlavə edilməsi deməkdir. Bir sözlə, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı Kompleksinin Ələtdə yerləşməsi həmin ərazini mühüm nəqliyyat qovşağına və geniş logistik məkana çevrilməsi anlamına gəlir. Xəzər dənizinin, artıq fəaliyyətə başlayan ən böyük ticarət limanı 15 milyon ton yükü aşırmaq imkanına malikdir. Eyni zamanda, bu liman vasitəsilə yüz min konteynerin daşınması, hələlik, nəzərdə tutulur və xüsusilə, qeyd etmək lazımdır ki, bu da hələ son deyil. Belə ki, tələbat olduğu təqdirdə, bu liman daha da genişləndirilə bilər. Çünki bunun üçün başda texniki imkanlar olmaqla, çox geniş və hərtərəfli imkanlar mövcuddur. Bu isə, onu deməyə imkan verir ki, həqiqətən də, Ələt Limanının istifadəyə verilməsi çox mühüm iqtisadi hadisədir və əvvəldə qeyd etdiyimiz kimi, dinamik inkişafa nail olmaq, iqtisadi potensialı artırılmaq üçün bu limanın rolu əvəzsizdir.




## “Cənub Qaz Dəhlizi” olduqca böyük strateji infrastruktur layihəsidir və qlobal əhəmiyyətə malikdir

Digər ən böyük əhəmiyyətə malik iqtisadi hadisə “Cənub Qaz Dəhlizi”nin birinci hissəsinin açılışıdır ki, bu da özlüyündə, Cənubi Qafqaz Boru Kəməri (GQBK), TANAP və TAP olmaqla, üç nəhəng layihəni cəmləşdirir. “Cənub Qaz Dəhlizi” olduqca böyük strateji infrastruktur layihəsidir və qlobal əhəmiyyətə malikdir. “Cənub Qaz Dəhlizi”nin birinci hissəsi açıldıqdan sonra, daha dəqiq desək, bu ilin 12 iyun tarixində Türkiyənin Əskişəhərində Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı ilə TANAP-ın istifadəyə verilməsi ilə bağlı rəsmi açılış oldu. Bu isə, o deməkdir ki, “Cənub Qaz Dəhlizi” layihəsi gələcəkdə təkcə Azərbaycana xidmət etməyəcək. Bəlli olur ki, Qərb ölkələrinin layihəyə dəstək verməleri heç də təsadüfi deyil və layihə qlobal miqyasda diqqət mərkəzindədir.

Azərbaycanın mövcud qaz resursları yalnız “Şahdəniz”dən ibarət deyil və bizim “Abşeron”, “Ümid”, “Qarabağ”, “Babək” kimi digər yataqlarımız da var. Hazırda ölkəmizin təsdiq olunan qaz ehtiyatları 2,6 trilyon kubmetr həddindədir və etiraf etmək lazımdır ki, bunun yalnız 1,2 trilyonu “Şahdəniz”in payına düşür. Lakin “Cənub Qaz Dəhlizi” layihəsi elə nəzərdə tutulub ki, ilkin olaraq, 16 milyard kubmetr ötürməyə qadir olsa da, gələcəkdə onun ötürücülük qabiliyyətini 2 dəfəyədək, hətta bundan da çox artırmaq mümkün olacaq.

Hazırda, “Şahdəniz” yatağının hər iki mərhələsi nəzərə alınmaqla gəlirlərin 100 milyard ABŞ dollarından çox olacağı proqnozlaşdırılır. Amma gəlirlərin daha çox ola biləcəyi də inkar edilə bilməz. Çünki perespektivdə Azərbaycanın Avropa ölkələrinə qaz ixracında tranzit ölkə kimi çıxış edəcəyi ehtimalı böyükdür və daha dəqiq desək, əsas hədəflərdən biri də, məhz elə bundan ibarətdir.

## “Star” Zavodunun açılması SOCAR-ın gəlirlərinin artması, nəticədə, ölkəmizin dövlət büdcəsinə ödəmələrin genişləndirməsi anlamna gəlir

Yekunlaşmaqda olan ilin ən mühüm hadisələrindən biri də ölkəmizdən kənarda 6,3 milyard dollarlıq vəsait hesabına başa gələn ilk nəhəng emal müəssisəsinin Türkiyədə açılması hesab olunur. Söhbət İzmir şəhərinin Əliağa rayonunda, “Petkim” Neft-Kimya Kompleksinin ərazisində inşa edilən “Star” Zavodundan gedir ki, bu zavodun təməlinin qoyulması 7 il qabağa - 2011-ci ilə təsadüf edir. Ümumi neft emalı gücü 10 milyon ton təşkil edəcək “Star” Zavodunun əsas xammal tədarükçüsü kimi SOCAR özü çıxış edəcək. SOCAR-ın inşa etdiyi bu zavodda bu ilin avqust ayından etibarən sınaq məqsədilə, artıq ilk xam neft də emal olunub və bu neft də, məhz bizim 80 min ton “Azeri Light” markalı neft olmaqla, ölkəmizdən çatdırılıb.

Etiraf etmək lazımdır ki, zavodun hər iki tərəf üçün böyük xeyri və iqtisadi səmərəliliyi var. Məsələn, Türkiyə bu zavodun işə düşməsiylə bir sıra mühüm enerji daşıyıcıları məhsullarının kənardan idxal asılılığından qurtulacaqsa, Azərbaycan da, öz növbəsində, xaricə ixrac etdiyi neftin bir hissəsi üçün stabil bir alış yeri qazanır. “Star” Neft Emalı Zavodunda hər il emal olunacaq 10 milyon ton xam neft, əvvəla, qiymətlərdən asılı olaraq, ildə 300-400 milyon dollararası təmiz gəlir gətirəcək. Digər tərəfdən də, istehsal olunacaq neft məhsullarının satışından əlavə gəlir də əldə olunacaq ki, bu da, öz növbəsində, həmin sahədə Türkiyənin daxili bazarında bir növ söz sahibi olmaq deməkdir. Nəzərə almaq lazımdır ki, istənilən halda, SOCAR-ın gəlirləri artacaq, bu isə, ölkəmizin dövlət büdcəsinə ödəmələrin genişləndirməsi anlamna gəlir.

## Ölkəmiz beynəlxalq hesabatda əksər indikatorlar üzrə yenə də kifayət qədər üstün yer tutdu və hətta irəlilədi

Məsələ burasındadır ki, il ərzində bu qədər qlobal layihəyə imza atan, həmin layihələrin istifadəyə verilməsini reallaşdıran Azərbaycan dünyanın, eləcə də, ekspertlərin, beynəlxalq maliyyə və reytinq qurumlarının diqqətindən yayına bilməzdi və yayınmadı da. Dünya İqtisadi Forumunun (DIF) Qlobal Rəqabətlilik Hesabatı bu dəfə tamamilə yeni metod əsasında hazırlansa belə, dünya ictimaiyyəti bu hesabatda mövqelərimizin daha da yaxşılaşmasının şahidi oldu. Bir sözlə, yeni metodoloji yanaşma belə Azərbaycanda aparılan iqtisadi siyasəti, dəyişiklikləri, dinamik inkişafı kölgə altına ala bilmədi və ölkəmiz sözügedən hesabatda əksər indikatorlar üzrə yenə də kifayət qədər üstün yer tutdu və hətta irəlilədi də.

Dünyanın 140 ölkəsi arasında ölkəmizin sosial bərabərliyin dünyada ən yaxşı səviyyədə təmin olunduğu ölkə hesab olunması belə, etiraf etmək lazımdır ki, böyük nailiyyətdir. Həmçinin, əhalinin elektriklə təchizatı səviyyəsinə görə, maksimal 100 bal əldə etmək və bu göstərici üzrə dünyada ilk pilləyə yüksəlmək təqdirəlayiqdir. Biznesin dinamikliyi reytinqi üzrə isə, Azərbaycanın 31-ci yerdə qərarlaşması nəzərəçarpacaq dərəcədə mühüm göstəricidir. Bu göstərici ölkəmizdə qeyri-neft sektorunu inkişaf etdirmək məqsədilə aparılan islahatların, sahibkarlıq fəaliyyətinin inkişafına yaradılan şəraitin və ortada olan bütün maneələrin aradan qaldırılmasının məntiqi nəticəsidir.

Nəzərə almaq lazımdır ki, qlobal hesabatlarda iqtisadi göstəricilər üzrə irəliləmək üçün biznes mühitinin durmadan yaxşılaşdırılması, islahatların aparılması, qanunvericiliyin təkmilləşdirilməsi, sadələşdirilməsi vacib hesab olunur və görünür, Cənab Prezident İlham Əliyevin rəhbərliyi və tapşırığı ilə ölkəmizdə bu istiqamətdə görülən işlər diqqətdən yayınmayıb. Diqqətdən yayınmayıb ki, sadalanan bu işlər, artıq Azərbaycan hökuməti tərəfindən müvafiq kursa çevrilib. Məhz bu mənada, həm də iqtisadi baxımdan, cari ilin uğurlu nəticələrlə başa vurulması növbəti, 2019-cu ilin də uğurlu nəticələrlə dolu bir il olacağına böyük ümidlər doğurur.

***İnam HACIYEV***

## “Bu, Rusiya-Azərbaycan dostluğuna qısqanc yanaşan qüvvələrə mesaj idi”



“Rusiya prezidenti Vladimir Putinin Azərbaycan prezidentinə çox isti, məzmunlu təbrik məktubu həm illərdir davam edən yaxşı bir ənənəni, həm də iki dövlətin və şəxsən iki liderin gələcək münasibətlərinin daha da istiləşəcəyinə yönəlik perspektivi ifadə edir”. Bu fikirləri SİA-ya açıqlamasında “Bakı Xəbər” qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. A. Quliyev bildirib ki, belə səmimi və isti məzmunlu sözlərlə ifadə olunan təbrik məktubuna çox nadir hallarda rast gəlinir: “Bu cür isti münasibətləri əsasən Prezident İlham Əliyevə ünvanlanmış təbrik məktublarında görürük. Rusiya prezidenti hər düşən məqamda Azərbaycanın dövlət başçısına xüsusi münasibət bəslədiyini parlaq şəkildə nümayiş etdirir. Əlbəttə bu, cənab Putinin Rusiya-Azərbaycan dostluğuna qısqanc və təəssübkeş yanaşan regional və qlobal qüvvələrə məqsədli şəkildə aydın mesajlar vermək üçün seçdiyi incə taktikadır”.

Siyasi ekspert qeyd edib ki, bu gün Rusiya-Azərbaycan münasibətlərinin xüsusi strateji xarakter almasını sonuncu təbrik mətni çox əyani şəkildə göstərir: “Aydın məsələdir ki, münasibətlərin indiki inkişaf şəklini almasında Azərbaycan prezidentinin dəqiq, ölçüb-biçilmiş, Rusiyanın təhlükəsizlik və iqtisadi maraqlarına balanslı münasibət sərgiləyən, Rusiyaya hörmət ifadə edən siyasi kursu mühüm rol oynayır. Diplomatiya tarixindən yaxşı məlumdur ki, dövlət başçıları öz dostlarına və düşmənlərinə ən məzmunlu mesajları çatdırmaq üçün təbrik məktubları və zənglərdən məharətlə istifadə edirlər. Cənab Putinin təbrikində bu nüansı aydın görürük”.

A.Quliyev qeyd edib ki, Putin Azərbaycan prezidentinə təbrik məktubu və zəngi ilə ölkə başçısı ilə şəxsi münasibətlərə və işgüzar rəsmi əməkdaşlığa böyük əhəmiyyət verdiyini nümayiş etdirdi: “Bu münasibətin Ermənistanın seçkidən sonra Paşinyana Putindən təbrik gözlədiyi, lakin eşidə bilmədiyi halda baş verməsi isə xüsusi əhəmiyyət kəsb edir”. Ekspert əlavə edib ki, Rusiya prezidentinin təbrikində əhəmiyyətli məqamlardan biri Putinin cənab İlham Əliyevi öz xalqının liderinə çevrildiyini və Onun siyasətinin xalq tərəfindən dəstəkləndiyini bir daha dünyaya etiraf etməsidir: “Bunun həm də böyük strateji əhəmiyyəti var”.

***Nailə Məhərrəmova***

## “Artıq Ermənistanın bəhanə axtarması üçün heç bir əsası yoxdur”



“Düşünürəm ki, 2019-cu ildə Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində dövlət başçıları səviyyəsində intensiv danışıq raundu başlanacaq”. Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov deyib. O bildirib ki, Azərbaycan öz ərazilərini Ermənistanın işğalı altında əbədi saxlamaq niyyətində deyil.

Millət vəkili söyləyib ki, əslində Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar bu il başlanıb nəticə verməli idi: “Lakin Ermənistanda hakimiyyət dəyişikliyi məsələləri təxirə saldı. Artıq ermənilər anlayır ki, onların qaçmağa yerləri qalmayıb və masa arxasında hansısa qərarların verilməsi qaçılmazdır”.

Politoloqun fikrincə, ola bilsin Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində verilən sülh qərarından boyun qaçırarsa, o zaman Azərbaycan digər üsullara əl atmaq məcburiyyətində qalacaq: “Təbii ki, burada məsuliyyət Ermənistanın üzərinə düşəcək. Artıq Ermənistanın bəhanə axtarması üçün heç bir əsası yoxdur. Paşinyana parlamentin 70 faizi səs verib. Belə olan halda, Paşinyan özünün məsuliyyətli aparmağa məcburdur. Əgər ermənilər buna qadir deyilsə, o zaman Azərbaycan digər imkanlardan istifadə etmək üçün azad olacaq”.

TƏRS BAXIŞ

# Atasının qəbrini şəxsi maraqlarına "alət" edən "kişi" fahişəsi

*Yaxud Vidadi İsgəndərli barədə şok faktlar onun bu "peşəsini" sübuta yetirir*



***Uzun müddətdir ki, mərhum atasının məzarı üzərində ən alçaq və rəzil oyunbazlıqlara gedən Vidadi İsgəndərli hələ də öz sərsəm iddiaları ətrafında "ajiotajlar" yaratmağa cəhdlər göstərir. Bu cəhdlərin uğursuz və ictimai rəydə maraq doğurmadığını görən adıçəkilən ucuz məxluq indi çox çətin vəziyyətdədir.***

Belə ki, ona bu sifarişi verən müəyyən xarici dairələr V.İsgəndərlidən nəticə tələb edirlər. Lakin ortada heç bir nəticə yoxdur və çox yəqin ki, İsgəndərli həmin dairələrin diqqəti mərkəzindən çıxdaş olunacaq. Ortada qalanlar isə, V.İsgəndərlinin doğma atasının məzarı üzərində oynadığı və heç bir mənəviyyata sığmayan oyunbazlığı, eyni zamanda, ona qarşı istər ictimai rəydən, istərsə də qohum-əqrəbasının hədsiz nifrətlərdir.

## O, daha kimlərə agentlik edib?

Söz yox ki, ata qəbri üzərində murdar oyunbazlığa gedən bir ünsürdən bütün alçaqlıqları gözləməyə dəyər. Belə ki, bir müddət əvvəl, onun hüquq-mühafizə orqanlarında çalışdığı zamanlar azyaşlı qızı İsmayıllı meşəsində zorlaması, içki düşkünü olması, həmçinin, həbs olunmuş insanlara qarşı amansız qəddarlığı barədə məlumatlar ictimailəşdirilmişdi. Lakin həmin ünsürün şərəfsizlikləri bu faktlarla da bitmir. Misal üçün, V.İsgəndərlinin daha öncələr törətdiyi çirkin əməlləri bu gün də onu şəxsən tanıyanlar arasında hiddətlə qarşılanmaqdadır. Xatırlada bilərik ki, V.İsgəndərlinin Rusiyanın qaranlıq siyasi dairələrində agent kimi işləməsi barədə faktlar mövcuddur. Məsələn, bu gün BAXP sədri kimi fəaliyyət göstərən Qüdrət Həsənquliyevin vaxtilə V.İsgəndərliyə çoxsaylı yardımları olub və bu gün, məhz Q.Həsənquliyev də onun söyüşlərinin hədəfinə tuş gəlməkdədir.

Hələ, bir müddət əvvəl, BAXCP sədrinin müavini Niyaməddin Orduxanlı bu məsələyə aydınlıq gətirərkən, V.İsgəndərlinin nə qədər rəzil və şəxsiyyətsiz bir ünsür olduğunu tam çılpaqlığı ilə diqqətə çatdırmışdı...

## Vaxtilə ona yaxşılıq edənləri təhqir edən də bu şərəfsizdir!

SİTAT: "Bu adamın hansı mənəviyyatın sahibi olduğunu deyim: Vidadi özü etiraf edir ki, həbsdə olanda, Qüdrət bəy ona həbsxanaya pul göndərirmiş. Allah da bilir ki, Qüdrət bəy pulu onun ailəsinə verirdi. Heç yerdə işləməyən onun xanımı iki qız uşağı ilə köməksiz qalmışdı. Tutaq ki, Vidadi düz deyir. Darda olanda, ona kömək etmiş bir adamı namussuz formada təhqir etmək hansı mənəviyyata sığır? Ölüm ayağında olan qardaşı Qalib bəyi təcili yardımla Göyçaydan Bakıya kim gətizdirdi? Onun müalicə xərclərini kim ödədi?! Ay mənəviyyatdan danışan, Qüdrət bəyin qapısının ağzında boynunu burub dayanmışdın. Salamlaşdıq, dedin ki, ölüncə, Qüdrət bəyə borcluyam: "Qalibə dedim ki, qızlarının ikisini də Qüdrət bəy işə düzəltdi. O da dedi ki, Vidadi, sən ölüncə, Qüdrət bəyə borclu olmalısan. Bundan sonra əllərini göyə qaldırıb, "İlahi, çox şükür" deyib əbədi gözlərini yumdu". İndi ləyaqətsizcəsinə, onu təhqir edirsən..."

## Əli Kərimli onu söyən Vidadini qucağında otuzdurub

Göründüyü kimi, naxələf və vicdan hissi olmayan V.İsgəndərli, hətta ona yaxşılıq edən şəxsləri bir andaca söyüb-təhqir edir, onların ailələrinə, mənəviyyat və ləyaqətlərinə olmazın iftiralar ataraq, daxilindəki idbarlıqları üzə çıxarmış olur.

Daha bir məqam isə, bu gün V.İsgəndərliyə, necə deyərlər, "qaz verən" radikal müxalifət "liderləri" ilə bağlıdır. Halbuki, V.İsgəndərli həbsdən çıxar-çıxmaz, ilk növbədə, AXCP sədri Əli Kərimlini hədəfə alaraq, onu təhqir etməyə başlamışdı. Digər nüans isə, bu gün Ə.Kərimlinin onu sağına-soluna söyəni öz qucağında otuzdurmasıdır ki, əslində, bu da, onların bir-birlərindən fərqlənmədiklərini isbatlayır.

## Vidadi İsgəndərlinin sabah-birigün özünü həm də fiziki şəkildə satılığa çıxarması barədə məlumatlar ictimailəşərsə...

Söz yox ki, ingilis bayrağı kimi sağa-sola əsən və xüsusi ayağısürüşkənliyi ilə seçilən bu ünsür üçün əsas məsələ maliyyədir. Daha dəqiq desək, özünü haraya, kimə və neçəyə gəldisə satan V.İsgəndərlinin, hətta qardaşının yaspulunu da mənimsədiyi agah olub.

Bu barədə yenə də N.Orduxanlının dediklərini xatırlamaq olar: "...Sən o qədər ləyaqətsiz adamsan ki, qardaşının yası üçün Qüdrət bəyin verdiyi pulu basıb yemişdin, qardaşının ailəsinə bir qəpik də verməmişdin. Biz bunu təsadüfən ailə üzvlərindən öyrəndik".

Beləliklə, faktlar da təsdiq edir ki, V.İsgəndərli üçün insana və kişiliyə xas olan heç bir dəyər mövcud deyil. Hətta ən ucuz bar fahişələri belə, ondan namuslu və təmizdirlər. Bu baxımdan, əgər V.İsgəndərlinin sabah-birigün özünü həm də fiziki şəkildə satılığa çıxarması barədə məlumatlar ictimailəşərsə, bundan kimsə təəccüblənməməlidir. Çünki o, bu yola çoxdan çıxıb...

**Rövşən RƏSULOV**

***Azərbaycan Respublikası "Uşaq və Tələbə-Gənclər Dünyası" İctimai Birliyi şəhid, əlil, qaçqın, məcburi köçkün, valideynsiz (bəzən hər ikisini itirmiş), imkansız ailələrdən olan uşaq, gənc və tələbələrin problemlərini aradan qaldırmaq üçün Azərbaycan Respublikasının qanunvericiliyi çərçivəsində dövlət orqanları və digər təşkilatlarla əlaqələr yaradır, birgə humanitar tədbirlər həyata keçirir. Hazırda birlik üzvlərinin sayı 2000-dən çoxdur. Cəmiyyət müxtəlif profillər üzrə istedadlı uşaqları axtarıb taparaq üzə çıxarır, uşaqlar arasında musiqi festivalı, idman yarışları keçirərək qalibləri mükafatlandırır. Təşkilatın 8 rayonda şöbələri fəaliyyət göstərir.***

# QAN QOHUMLUĞU VASİTƏSİLƏ YAYILAN XƏSTƏLİKLƏR



Təşkilatımız indiyə qədər bir sıra layihələri uğurla həyata keçirmişdir. Hazırda Gənclər Fondunun maliyyə dəstəyilə "Uşaq və Tələbə Gənclər Dünyası" İctimai Birliyi "Sağlam həyat tərzinin əhəmiyyəti. Xromosomlarda baş verən mutasiyalar və aradan qaldırılma yolları" layihəsini Cəlilabad rayonunun 2, 4, və 7 saylı məktəblərində uğurla həyata keçirmişdir.

Xarici görünüşdən sağlam görünən insanlar bir sıra xəstəliklərin daşıyıcıları ola bilirlər. Bunu gözlə görmək mümkün deyil, ancaq evləndikdən sonra qanda olan xəstəliklər nəsildə üzə çıxır. Bizim məqsədimiz bu layihədə gənclərimizi gələcəkdə nə qarşılayacağını öyrətməkdir.

Orqanizmlərin genotipində baş verən dəyişkənliyə mutasiya dəyişkənliyi, fenotipində baş verən dəyişkənlik modifikasiya dəyişkənliyi deyilir. Mutasiya hadisəsi ilk dəfə 1880-cı ildə holland alimi Quqo Friz, sonra isə Mendel və Morqanın qanunları bu mutasiyaları öyrənməyə kömək etmişdir. Gen mutasiyaları gözlə görünmür. Xromosomdaxili və xromosomarası dəyişilmələr sayəsində xromosom miqdarının dəyişilməsilə meydana mutasiya dəyişkənliyi çıxır. Biz onu yalnız fərddə baş verən zaman ortaya çıxanda görürük. Deyək ki, yaşıl yarpaqlı bitkidə rəngsiz yarpaqların əmələ gəlməsi; 45, 47 xromosom saylı xəstə (hər ikisi dölsüz) insanların meydana çıxması mutasiyadır. Mutasiyanın meydana çıxma səbəbləri çoxdur. İnsanda 46 xromosom sayı var və cütləşmə zamanı 23 xromosom atadan və 23 xromosom anadan gəlir və cəm 46 olur, ancaq müəyyən səbəblər üzündən qametlər düz ayrılmasa (deyək 23 əvəzinə 22 və ya 24 olarsa), bu zaman xəstəlik ortaya çıxır. Müller öyrənmişdi ki, rentgen və ultrabənövşəyi şüalar mutasiyaya səbəb olur. Hətta atmosferdə olan radioaktiv şüalar da mutasiyaya gətirib çıxarır. Alimlər bitkilər üzərində təcrübələr aparıb qameti diploid etməklə, çox məhsuldar arpa və buğda sortlar almışlar. Alçaqboylu alma ağacı sortları yetişdirilmiş və çox məhsuldar olmuşdur. İnsanda olan xəstəlikləri bilmək üçün qan qruplarını öyrənmək lazımdır. İnsanlarda dörd qan qrupu məlumdur. Belə ki, I qrup -OO, II qrup AO və AA, III qrup BO, BB, IV qrup AB. Bölünmə zamanı Hetereziqot formalar çoxaldıqca, ressesiv formaların sayı artır, bu isə, bir sıra qan xəstəliklərinə səbəb olur. Sadəcə, belə anlamaq olar, əgər xəstəyə qan vurulmalıdırsa, I qrup yaxşı donordur və bütün başqa qruplara qan verir və özü ancaq I qrupdan ala bilər. II qrup ancaq I və II-dən ala bilər, II və IV qrupa verə bilər. III qrup I və III alır və III-dən və IV-yə verir. IV qrup yaxşı resipientdir hamıdan alır və ancaq IV-yə verir. Lakin xəstələrdə qan qrupunu bilmək də məsələnin tam həlli deyil. İnsanda antiteller və antigenlər olur. İlk dəfə rezus meymunun üzərində öyrənildiyinə görə adını rezus qoymuşlar, RH+, RH-. İnsanların 85 faizində RH+ olur və qan köçürülmədə yoxlanılır. Əks halda, mənfi rezuslu insana müsbət rezus qan vurularsa, antiteller əmələ gələr və laxtalanmadan insan ölər. Hətta atanın qanı müsbət, ananın qanı mənfi olarsa, körpə müsbət rezuslu olacaq və ana öz körpəsinin qatili ola bilər. Ananın antitellaları ana bətnində körpəni yeyir və uşaq doğulmadan ölür. İnsanda irsi xəstəliklərin bir qismi xromosomlarda baş verən dəyişiklik nəticəsində meydana çıxır. 21 cüt xromosoma bircə xromosom əlavə olunduqda, Daun xəstəliyi olan uşaq meydana çıxır. 22-ci xromosomdan birinin çatmaması ağ qan xəstəliyinə səbəb olur. 5-ci xromosomda sınma baş verərsə, uşağın alt çənəsi, qırtlağı düzgün inkişaf etmir və uşaq ağlayarkən "pişik miyoltusunu" xatırladır. Daun, Klaynfelter sindromu (47 xromosomlu kişi və ağılsız, dölsüz), hemofiliya, daltonizm, şizofreniya, Şereşevski-Terner (45 xromosomlu qadın) kimi xəstəliklər gen xəstəlikləridir. Göründüyü kimi, gen xəstəlikləri çoxdur və bunun əsas səbəbləri müxtəlif şüalanmalar olduğu kimi, həm də qan qohumluğudur. Yəni yaxın qohumlarda qanda eyni xəstəlik olduqda, bunların görüşmə ehtimalı çoxalır, heterеziqot formalar birləşib ressesiv forma əmələ gərir və xəstə uşaq ortaya çıxarır. Xromosomlarda iki cür dəyişiklik baş verir: 1.Xromosomdaxili dəyişmələr. 2. Xromosomarası dəyişmələr. Təkamülün əsas mənbəyi dəyişkənlikdir. Xromosom mutasiyaları nəticəsində bitki və heyvanlarda yeni növlər və yeni cinslər əmələ gəlir. İnsanlardan qan qohumu olanlar evlənərsə, bu mutasiyalar nəticəsində xəstə uşaqlar meydana çıxır. Talassemiya xəstəliyi də genlərlə keçən xəstəlikdir. Daşıyıcı gen qadınlarda olur, oğlanlar isə xəstə doğulur və onların yaşaması üçün daim qana ehtiyac var. Mutasiyalar ultrabənövşəyi, rentgen şüaları vasitəsilə baş verə bilər. Bu layihəni həyata keçirməklə gənclərimizə öz gələcək həyatlarını qurarkən, xəstəliklərdən uzaq olmağı öyrətməyi düşündük.

Gənclər Fondunun maliyyə dəstəyi ilə Cəlilabad rayonunun 2, 4, 7 saylı məktəblərində tədbirlər uğurla keçirildi. Layihə bütün məktəblərdə uğurla və maraqla həyata keçirildi. Məktəb kollektivinin marağına səbəb oldu. Çünki hər bir uşaq öz gələcəyinin necə olacağını bilmək istəyir. Bizə verilən suallar bu layihəyə marağın çox olduğunu sübut edir. Hətta məktəb direktorları bu layihəni valideynlərlə keçirməyi təklif etdilər.

Müasir genetika mühəndisliyi bütün dünyada ətraflı öyrənilir. Məqsəd isə odur ki, əgər insanın hər hansı bir bədən üzvü sıradan çıxıbsa, onu yeniləmək, xəstəliyi aradan qaldırmaq və ona sağlam yaşatmaqdır. İnanırıq ki, bir gün deyilənlər, həqiqətən, gerçəkləşəcəkdir.

**BƏXTİMŞAH**

# "Milli-mənəvi dəyərlər və azərbaycançılıq ideologiyası"

*"Milli-Mənəvi Dəyərlərimizə Dəstək" İB-nin bu mövzuda tədbiri keçirilib*

***Yasamal rayonunun Heydər Əliyev Mərkəzində "Milli-Mənəvi Dəyərlərimizə Dəstək" İctimai Birliyinin təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlər və azərbaycançılıq ideologiyası" mövzusunda tədbir keçirilib.***





Tədbirdə Azərbaycan Respublikasının Dövlət himni səsləndirikdən sonra çıxış edən "Milli-Mənəvi Dəyərlərimizə Dəstək Fondu" İB-nin sədri, siyasi elmlər üzrə fəlsəfə doktoru Elvin Talışinski qeyd edib ki, qarşıdan 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl bayramı gəlir və hər bir azərbaycanlı üçün belə bir tarixin önəmi vardır: "Bizlər bilirik ki, müasir və müstəqil Azərbaycanımızın banisi Ulu Öndər Heydər Əliyevdir. Dünya Azərbaycanlılarının Həmrəyliyi Gününün belə bir tarixə təsadüf etməsi, Onun siyasi təcrübəsinin və müdrik ideologiyasının məntiqi nəticəsidir". Elvin Talışinski, həmçinin, bir sıra mühüm aspektlərə toxunaraq, bildirib ki, artıq dünyanın bir çox ölkələrində Azərbaycan diaspora təşkilatları fəaliyyət göstərir və bu təşkilatlarda gənclərimiz də xüsusi fəallıqları ilə seçilməkdədirlər. "Bütün bu kimi fəaliyyətlər, əlbəttə ki, Dağlıq Qarabağ probleminin Azərbaycanın haqq səsinin dünya birliyinin diqqətinə çatdırılmasında önəmi rol oynayır. Bu, həm də Ümummilli Liderimiz Heydər Əliyevin bizlərə miras qoyduğu ideologiyadır ki, hər birimiz milli-mənəvi dəyərlərimizə sahib çıxmaqla, onu inkişaf etdirib yaşatmalıyıq", deyə Talışinski bildirib.

Tədbirdə çıxış edən "Milli-Mənəvi Dəyərlərin Təbliği Fondu"nun icraçı direktoru, Yasamal rayon Gənclər və İdman İdarəsinin rəis müavini Ramil Cəbrayılov tədbir iştirakçılarını qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Milli Həmrəyliyi Günü və Yeni İl bayramı münasibəti ilə təbrik edərək bildirib ki, bu kimi tədbirlərin keçirilməsi və gənclərə milli- mənəvi dəyərlərimizin əhəmiyyətinin aşılanması çox önəmlidir: "Belə bir günün tarixi əhəmiyyəti həm də ondadır ki, məhz hər il 31 dekabr tarixində dünyada yaşayan soydaşlarımız Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulmuş milli həmrəylik ideologiyasını daha dərindən öyrənir bu faktorun qorunub-saxlanılmasında fəaliyyət göstərirlər".

Çıxış edən "Dünya Azərbaycanlılarının Həmrəyliyi" İctimai Birliyinin prezidenti Tofiq Əlizadə isə, öz növbəsində, xarici ölkələrdə yaranmış diaspora təşkilatları və Ümummilli Lider Heydər Əliyevin xarici səfərləri zamanı diaspora üzvləri ilə görüşləri barədə tarixi məqamlara toxunub və bildirib ki, artıq bu gün beynəlxalq aləmdə Azərbaycan ən nüfuzlu ölkələr sırasında yer almaqdadır. "Söz yox ki, bu amillər bu gün dünyada hər bir azərbaycanlının bir araya gətirilməsində, milli həmrəyliyimizin qorunub-saxlanılmasında əvəzsiz və inkişafında önəmli bir hadisədir. Bizlər bu reallığı daim diqqətimizdə saxlamalı, bu işdə yaxından iştirak etməliyik", deyə Tofiq Əlizadə qeyd edib.

**Rövşən NURƏDDİNOĞLU**



# "Müstəqillik illərində üslubların inkişafı və dilin lüğət tərkibinin zənginləşmə istiqamətləri" mövzusunda respublika elmi konfransı keçirilib

Dünən AMEA Nəsimi adına Dilçilik İnstitutu "Müstəqillik illərində üslubların inkişafı və dilin lüğət tərkibinin zənginləşmə istiqamətləri" mövzusunda respublika elmi konfransı keçirib. Konfransı giriş sözü ilə açan institutun direktoru, akademik Möhsün Nağısoylu dilin lüğət tərkibinin zənginləşməsi yollarından danışıb: "Lüğət tərkibinin inkişafı konkret dil materialı əsasında hər bir dövrün səciyyəvi əlamətləri üzrə nəzərdən keçirilir. Müstəqillik illərində cəmiyyətdə baş verən dəyişikliklər dilə də öz təsirini göstərib. Bu dəyişikliklər elmi-texniki tərəqqi ilə bağlıdır və publisistik üslubun inkişafında daha çox nəzərə çarpır".

M.Nağısoylu müasir dövrdə lüğət tərkibinin zənginləşməsinin Türkiyə türkcəsindən qaynaqlandığını bildirib. Akademik qeyd edib ki, dilin saflığının qorunması ilə bağlı imzalanan sərəncamlar rəsmi üslubun göstəriciləridir: "Qloballaşma dövründə dilə beynəlmiləl sözlərin daxil olması normaldır. Hər gün olmasa da, hər ay dilə yeni sözlər daxil olur. Amma istənilən yeni sözü dilə daxil etmək olmaz. Bu məsələdə həssas davranmalıyıq. Həmin sözlərin Azərbaycan dilində qarşılığı varsa, istifadə etməliyik".

Sonra Dilçilik İnstitutunun elmi işlər üzrə direktor müavini, Baba Məhərrəmli "Müstəqillik illərində poeziya dilinin inkişaf xüsusiyyətləri", professor Sayalı Sadıqova "Elmi dilin spesifik xüsusiyyətləri", professor İsmayıl Kazımov "Üslubi novatorluq", dosent Həbib Mirzəyev "Müstəqillik illərində bədii üslubun inkişafı", Azərbaycan Dövlət Pedaqoji Universitetinin baş müəllimi İlkin Əsgər "Publisistik üslubda yazılmış mətnlərdə qrammatik normanın pozulması", filologiya üzrə fəlsəfə doktoru Elçin İbrahimov "Azərbaycan ədəbi dilinin inkişafında publisistik üslubun rolu" mövzularında məruzələrlə çıxış ediblər.

**ZÜMRÜD**

# Diaspora quruculuğu Dahi Öndərimizin adı ilə bağlıdır

*Xaçmaz rayonunda Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə tədbir keçirilib*

Dünən Yeni Azərbaycan Partiyasının Xaçmaz rayon təşkilatı və Reabilitasiya Mərkəzinin birgə təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə tədbir keçirilib. Reabilitasiya Mərkəzində keçirilən tədbiri giriş sözü ilə açan mərkəzin rəhbəri Kəmalə Əliyeva mərkəzin fəaliyyəti ilə bağlı geniş məlumat verib, dünyada formalaşan və geniş lobbiçilik fəaliyyəti göstərən diaspora təşkilatlarının xeyirli və gərəkli fəaliyyətlərindən söz açıb. Bildirib ki, Ulu Öndərimiz Heydər Əliyevin qurucusu olduğu diaspora fəaliyyəti Azərbaycan həqiqətlərinin dünya xalqlarına çatdırılmasında və təbliğində müstəsna rola malikdir. K.Əliyeva bugünkü güclü, qüdrətli Azərbaycanın Ümummilli Liderimiz Heydər Əliyevin əsasını qoyduğu və Prezident İlham Əliyevin uzaqgörən və müdrik siyasəti əsasında daha da inkişaf etdiyini bildirdi.



Tədbirdə YAP Xaçmaz rayon təşkilatının aparat rəhbəri Fazil Rəhmətov, Heydər Əliyev Mərkəzinin direktoru Könül Əsgərova, partiya fəalı Süraye Əmirova və digərləri çıxış edərək, uşaqları və valideynləri Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə təbrik edib, xoş arzularını bildiriblər.

Tədbirin sonunda YAP Xaçmaz rayon təşkilatı Xaçmaz Reabilitasiya Mərkəzində müalicə alan qüsurlu uşaqlara Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni İl münasibətilə hədiyyələri paylanıb.

Sonda uşaqların ifasında kiçik konsert proqramı təşkil edilib.

**RƏFİQƏ**



**Təhmasib Novruzov**

# O olmasın... Yox, elə o olsun!

***Klassiklərimizi oxuduqca, öyrəndikcə adamda qəribə fikirlər yaranır. Yaxın keçmişə qədər onları oxuyub, qapalı olan Sovet cəmiyyətində baş verən olaylarla müqayisə edərdik. İndi, bilmirəm, dünyaya açılmağımızdandı, ya nədəndi, klassiklərimizin yaratdıqları personajlara, səhnələrə təkcə cəmiyyətin gözü ilə deyil, dünyanın gözü ilə baxmağa başlamışıq. Məsələn, ölməz Üzeyir Hacıbəylinin ölməz "O olmasın, bu olsun" operettasındakı obrazları indiki dünyada baş verənlərlə müqayisə edəndə, görürsən ki, o rəhmətliyin dedikləri təkcə bir xalq üçün, bir məmləkət üçün deyil, bütün bəşəriyyət üçün bu gün də aktualdır.***

Həmin operettada məşhur bir ziyafət səhnəsi var. Yeni Məşədi İbadın meymunla müqayisə olunduğu ziyafəti nəzərdə tuturam. Filmləşdirilmiş bu məşhur əsərdəki həmin səhnə hər kəsə məlumdur. İndi hesab edək ki, belə bir ziyafət BMT-nin Təhlükə(siz)lik Şurasında təşkil olunub. Məşədi İbadın da yerində Ermənistanın baş-ayaq naziri, ermənilərin olan-qalan başını da yeməyə hazırlaşan Paşinyan əyləşib. Böyük Britaniyanın nümayəndəsi durub sağlıq deyir: "Həzarat, biz bu Ermənistanı çox sevirik. Ona görə ki, bizim məşhur "Parçala-hökm sür!" şüarımızın reallaşmasında əvəzsiz xidmətlər göstərir..." Bu yerdə ABŞ-ın nümayəndəsi tutur onun pencəyinin ətəyindən, dartıb oturdur yerində ki, belə danışıb, siyasətimizin sirrini faş eləmə. Sonra Fransanın nümayəndəsi söz alır: "Ermənilər Qafqazın ən qədim yerli xalqıdır. Orda islam dini yayılanda, haylar əqidələrində möhkəm dayanıb, xristianlığı qoruduqlarına görə, müsəlmanlar bu yazıqları qovub çıxarıblar ordan. Odur ki, dünyanın ədalətini qorumaq missiyası üzərimizə düşdüyünə görə, erməni qardaşlarımıza qarşı olan bu tarixi ədalətsizliyi aradan qaldırmaq gərəkdir". Danışılanlara dözə bilməyən Rusiya nümayəndəsi bir az mənalı-mənalı firəngin üzünə baxır: "Siz allah, görün kim ədalətdən danışır. XV əsrdə binəva hayları qaraçı adlandırıb, Avropadan qovub çıxaran sizlər deyildinizmi? İndi bizim hesabımıza Qafqazda dövlət yaradıblar deyə gülməşəkər oldular? Ay camaat, bir az gəlin ədalətli olaq. Axı bu ermənilər özləri Qarabağa gəlmələrinin 150 illiyini 1978-ci ildə təntənə ilə qeyd elədilər, buna görə Moskvadan pul alıb, Qarabağda bir abidə də ucaltdılar. Onları necə bu torpaqların yerli sakinləri adlandırmaq olar?" Nəhayət, bütün danışıqları bayaqdan diqqətlə izləyən, amma səsini çıxarmayan Çin nümayəndəsi ayağa qalxır: "Biz anlaya bilmirik, bu Qərb dövlətləri erməninin nəyinə və harasına aşiq olublar ki, onu belə canla-başla müdafiə eləyirlər? Azərbaycan kimi humanist, dostluqda sədaqətli, güclü iqtisadiyyatı olan bir ölkəni qoyub, niyə Qafqazda ermənilərə bu qədər dəstək verirlər axı? Sizə bu regionda dost lazım deyil? O olmasın, bu olsun. Ermənilərin qədim mədəniyyətləri varmı? Xeyr, yoxdur, erməni mədəniyyəti nümunəsi kimi yaydıqlarının hamısı da, məlum olur ki, oğurluq imiş. Ermənilər humanistdirlərmi? Xeyr, humanist millət soyqırımı törədib, başqalarını onlara qarşı soyqırımı törətməkdə ittiham eləməz. Bəlkə ermənilərin malı, pulu,varı, dövləti onları maraqlandırır? Xeyr, ermənilərin varı, dövləti olsaydı, aclarından dünyaya səpələnməzdilər, ətək açıb dilənməzdilər. Bəlkə qoçaqlıqları? O da deyil, çünki tarixin bütün dönəmlərində onların qorxaqlığı, qoltuqlara girib yaşadıqları məlumdur. Bəlkə xristian təəssübkeşliyidir Qərbi maraqlandıran? Yox, əzizlərim, o da deyil. Çünki Qərb ölkələri çoxdan "boqlarını" unudublar. Nəhayət, erməninin nəyi, hansı özəlliyi var ki, qərb ölkələri onu bu qədər sevir. Aha! Baxın, Qafqazdakı digər xalqlar tarix boyu özünə, öz xalqına güvənib, varlığını qoruyub-saxlayıb. Ermənilər isə həmişə dünyada ən güclü dövlətlərin qoltuğuna sığınıb yaşayıb. Elə ki, onu qoruyub-saxlayan dövlət bir az büdrədi, tez onu büdrədənlərlə "dostlaşıb", dünənki ağasına arxadan zərbə vurur. (Bu yerdə Rusiya nümayəndəsinin qaşları çatılır.) Yəni ermənilər xəyanəti, satqınçılığı, bir də kişi adına ləkə olan bəzi-bəzi əməlləri yaxşı bacarır. Bax, mənim fikrimcə, Qərb dövlətləri erməninin bu sahədə çox peşəkar olmalarını bildiklərindən, onların bu bacarıqlarından istədikləri dövlətə qarşı yararlanmaq üçün onlara bu qədər "sevgi" bəsləyirlər. Odur ki, "o olmasın, bu olsun" deyib, Azərbaycana üz çevirmək istəmirlər. Yəni elə o, yəni erməni olsun deyirlər. İçək, cənablar, gəlin içək..."

Allah sənə qəni-qəni rəhmət eləsin, Üzeyir bəy!

# Müxalifət arxivə yola salınır

***Son günlər AXCP sədri Əli Kərimli ilə "Milli Şura"nın rəhbəri Cəmil Həsənli Müsavat, ADP, AMİP və digər partiyalara qarşı mübarizə metodlarını genişləndiriblər. Rəqiblərini sosial şəbəkələrdə təhqir edir, paylaşdıqları videoların haqlarında müəyyən ittihamlar irəli sürürlər. Söhbət etdiyimiz müsahiblərimiz Ə.Kərimlinin və C.Həsənlinin məqsədli şəkildə müxalif həmfikirlərinə qarşı şantaj və təhqir metodundan istifadə etdiklərini bildirdilər.***

"Yurddaş" partiyasının sədri Mais Səfərli: **"Xalq üçün müxalifətin var olub-olmaması maraqlı deyil"**



- Əli Kərimlinin və Cəmil Həsənlinin, eləcə də, Arif Hacılının müxalif həmfikirlərə qarşı bu cür hərəkətlərə əl atmalarının zaman-zaman şahidi olmuşuq. Bu baxımdan, demək olar ki, müxalifət partiyaları arasında bu cür savaşlar, söz müharibələri, bir-birini təhqir etmələri yeni bir məsələ deyil. Müxalifət düşərgəsini təmsil edən şəxslərin bu cür əməlləri təkrar etməsi, ondan irəli gəlir ki, bunların normal məşğul ola biləcəkləri məsələ yoxdur. Sadəcə olaraq, Ə.Kərimlinin, C.Həsənlinin və A.Hacılının bir müddət gündəmdə qalmaq üçün hədəf olaraq eyni qazandan qidalandıqları "dost"larını hədəf seçirlər. Bunun üçün də bir-birini məhv etmək üçün əllərindən gələni edirlər. Çünki Ə.Kərimli, C.Həsənli və A.Hacılı istəmirlər ki, öz düşərgələri daxilində kimsə onlardan üstün olsun. Əslində, müxalifətin öz aralarında belə dava-dalaşlar aparması cəmiyyət üçün maraqlı deyil. Çünki xalq üçün müxalifətin var olub-olmaması maraqlı deyil.

"Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov: **"Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli xarici qüvvələrə nökərçilik edirlər"**



- Ataların belə bir məsəli var: aşığın sözü qurtaranda, neynim-neynim eləyir. Bu adamların artıq iqtidarla bağlı şərböhtan kampaniyaları bir nəticə vermədi. Yəni bununla gündəmdə qala bilmədilər. Çünki dediklərinin hamısının sonunda yalan, böhtan və şər olduğu ortaya çıxdı. İstər-istəməz, bu da bunlara ciddi zərbə vurdu. "Neynim-neynim" deyib, sonda yol tapdılar ki, indi özümüz-özümüzlə çırpışaq. Çəkişmədə yeni maliyyə əldə etməklə bağlıdır. Xaricdən maliyyələşən qüvvələr istər-istəməz, xaricdəki anti-Azərbaycan qüvvələri maraqlandırmaq istəyirlər. Ümumiyyətlə, Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli xarici qüvvələrə nökərçilik edirlər. Nədinədi, xarici məkrli dairələr onlara qəpik-quruş verir. Digər real fakt ondan ibarətdir ki, müxalifət başbilənlərin biri özünü digərindən üstün tutub və bir-birini sıradan çıxartmaq üçündə əllərindən gələni ediblər. Necə ki, bu gün edirlər. Onsuz da, onların nə istəməsindən və nə etməsindən asılı olmayaraq, onların qurduqları xəyalları heç vaxt reallaşmayacaqdır.

"Həftə İçi" qəzetinin baş redaktoru Sevinc Seyidova: **"Təxribatların qarşısı böyük uğurla alınır"**



- Son illərdə Azərbaycan cəmiyyətində özlərini müxalifətin əsas aparıcı qüvvəsi kimi təqdim edən bu şəxslərin konkret proqramlar və layihələrlə meydana çıxmasının şahidi olmamışıq. Əslində, dövlətimizin güclü sosial-iqtisadi inkişafı, ictimai-siyasi sabitliyin qorunması, həyata keçirilən neçə-neçə uğurlu layihələrin onların varlıqlarını ortaya çıxara bilməsi şanslarını sıfıra endirir. Artıq bütün sosial dayaqlarını itirmiş Əli Kərimli, Arif Hacılı və Cəmil Həsənli gündəmə gəlmək üçün vaxtilə bir sırada olduqları "həmkarları"nı qaralama kampaniyası ilə öz varlıqlarını sübut etməyə çalışırlar. Sirr deyil ki, son illərdə ölkəmiz xaricdən maliyyələşən anti-Azərbaycan kampaniyaların hücumuna məruz qalıb. Lakin hər dəfə ölkə rəhbərliyinin düşünülmüş və uzaqgörən siyasəti nəticəsində, bu təxribatların qarşısı böyük uğurla alınır. Nəticədə isə, onların əsas "yerli oyunçuları"na ayrılan maddi dəstək getdikcə azalır. İndi isə, sanki yerdə qalan maliyyəni kim daha çox öz qarşısına çəkəcək deyə mübarizə gedir. Təbii ki, bu məsələ ilə bağlı köhnə müttəfiqlər bir-birlərini gözdən salmaq üçün var qüvvələri ilə çalışırlar. Qeyd etdiyiniz məsələyə də bu prizmadan yanaşmaq daha doğrudur.

***GÜLYANƏ***



## Müxalifətin "bəytərifi yarışı"

**RƏFİQƏ**

***Yaşından-başından asılı olmayaraq, layiq olmayanlara elə "tərif" deyirlər ki, lap "bəytərifində" olduğu kimi, bu "tərifi" də "lap ət tökür". Bu yaxınlarda "maşennik" Əli Kərimlinin qoca professor Cəmil Həsənlini dahi dünya liderləri ilə "bir səviyyədə tutması" və tərifi də bir qəpiyə olan gülüş və ikrah doğuran sözlər deməsi yadıma düşdü. Tərifi eşidəndə, əlim ağzımda quruyub qalır. Özü də bu günə kimi, özgənin yalağı ilə dolanan Cəmil Həsənli bir tərəfdən, maşennik Ə.Kərimliyə tərif deyir, o biri tərəfdən də, onu "müdafiə edir". Ə.Kərimli isə, o Ə.Kərimlidir ki, bu günə kimi, C.Həsənliyə "davay dosvidaniya" etmək üçün hələ də plan hazırlayır. Gərək yaşından və başından asılı olmayaraq insan özü-özünə qiymət versin. Ancaq bu, o Cəmil Həsənlidir ki, AXCP sədri Ə.Kərimlini Albert Eynşteynlə müqayisə edib, bax, əsl dəhşət budur!***

Məgər müxalifətin "bəytərifi" bununla bitir? Bir neçə il bundan öncə, Gözəl Bayramlı AXCP sədrini tərifləyib onun Nelson Mandella ilə müqayisəsini aparırdı. Ancaq bir düzgün məqamı da deməsəm, qala bilmərəm. Belə ki, yadımdadır, rəhmətlik Həsən Kərimov bir dəfə bu cür bənzətmələrə və oxşatmalara etiraz edərkən, necə onu daş-qalaq etmişdilər, yazıq onunla da oturdu yerində. Ən çox gülüş doğuran məqam da o idi ki, Nurəddin Məmmədlinin rusiyalı müxalifətçi Nemtsovun ölümündən sonra Ə.Kərimlini onunla müqayisə etməsi, doğrudan da, "ət tökən" idi: "Nemtsov Əli bəyə qibtə edirdi..." Buyurun, indi də C.Həsənli onu A.Eynşteynlə bir tərəziyə qoyur. Bax, bu yerdə deyirlər ki, "dilim ağzımda, nəinki qurudu", çoxları "stress" keçirdi. Ay Cəmil bəy, heç olmasa, belə bir iddia ilə çıxış edəndə, öz yazdığın "Ağ ləkələrin qara kölgəsi" olan çızma-qaranı gözünün qabağına gətir. Adı çəkilənlərin hamısı siyasətdə, elmdə uğur qazanmış, bütün dünyanın tanıdığı şəxslərdilər. Bəs Ə.Kərimli kimdir? Ə.Kərimli: xəyanət, qisaslar və intriqalar toplusu. Bu, o Ə.Kərimlidir ki, onu yemləyən əlini dişləyər, onu təpikləyənin isə çəkməsini yalayır. Bu, o Əli Kərimlidir ki, o, Azərbaycanda hakimiyyətə gəlmək üçün ölkəni və milləti düşmənləri ilə də separat danışıqlar aparıb, sövdələşib, "maliyyə dəstəsi" və qrantlar qismində paylar alıb, üzərinə öhdəliklər götürüb, sonra hakimiyyətlə danışıqlara can atıb, yeni vədlər verib, amma sonda hamını aldatmağa çalışıb.

Vallah, ayıbdır, belə müqayisələr aparmaqdansa, abırınıza qısılın, əgər varsa. Belə müqayisəni aparmaq isə, sadəcə, düşüklük və biabırçılıqdır. Ancaq inanmıram ki, bu biabırçılığa adət etmiş müxalifətin satqınlar "sülaləsi" deyilənlərdən heç vaxt ibrət dərsi ala bilməz və bilməyəcək də! Ancaq yeganə həqiqət odur ki, heç bir tərif, müqayisə cinayətləri ört-basdır etməyəcək və bir bezin qırağı olanlar bilməlidirlər ki, xaricdəki rejissorların əmrlərini yerinə yetirən Əli Kərimlini, eləcə də, Əli Kərimli kimiləri acı tale gözləyir: nədən ki, tarix satqınları heç vaxt bağışlamır, zamanla tale isə belələrinə qarşı amansız olur.

## "Nar"-dan Yeni il ilə əlaqədar xüsusi kampaniya!

"Nar" Yeni ilə yeni smartfonla başlamaq istəyən abunəçilər üçün xüsusi kampaniyaya başlayıb. Dekabrın 24-dən yanvarın 4-nə kimi From.ae/nar səhifəsindən 4G smartfonu alan hər bir "Nar" istifadəçisi 10 GB-dək internet paketi və pulsuz çatdırılma əldə edəcək. Bu kampaniyaya qoşulmaqla abunəçilər yeni telefon əldə etməklə yanaşı, ölkənin ən geniş şəbəkələrindən birinə malik olan "Nar"-ın sürətli 4G internetindən yararlana biləcəklər. Bunun üçün yuxarıda qeyd edilən saytın səhifəsindən 4G smartfonunun sifarişindən sonra qeyd edilən "Nar" nömrəsinin promo kodu təqdim olunacaq. Bu promo kodu SMS vasitəsilə 4565 qısa nömrəsinə göndərməklə aktiv internet paketinə uyğun 4G internet bonusu hədiyyə ediləcək.




Qeyd edək ki, internet paketi 15 gün ərzində aktiv olacaq. Kampaniya haqqında daha ətraflı məlumatı nar.az saytından əldə etmək olar.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 7300-dən artıq baza stansiyası ilə 2,2 milyona yaxın abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## Bakcell jurnalistlər üçün "Mobil telekommunikasiyaya giriş" adlı seminar keçirib



Azərbaycanın İlk Mobil Operatoru və Ən Sürətli Mobil İnternet Provayderi Bakcell şirkəti jurnalistlər üçün növbəti dəfə "Mobil telekommunikasiyaya giriş" adlı seminar keçirib.

Ardıcıl olaraq beş ildir ki təşkil olunan ənənəvi seminarın əsas məqsədi jurnalistləri mobil telekommunikasiya sahəsinin əsasları, müasir texnologiyalar, innovasiyalar və son tendensiyalar barədə maarifləndirməkdir. Ölkənin bir çox aparıcı media qurumlarını təmsil edən 30-dan çox jurnalistin iştirak etdiyi seminar mobil telekommunikasiya üzrə məlumatlılığın və bu sahədən yazan jurnalistlərin peşəkarlığının artırılmasına xidmət edir.

"Mobil telekommunikasiya ən sürətlə inkişaf edən sahələrdən biridir. Buna görə də mobil rabitə xidmətindən istifadə edən abunəçilərin davranış və tələbləri, eyni zamanda mobil operatorların təklif etdiyi məhsul və xidmətlər tez-tez yenilənir. Telekommunikasiya və informasiya texnologiyaları sahəsindən yazan jurnalistlərin bu sahədəki yeniliklərdən xəbərdar olması və onların peşəkarlığının artırılması üçün biz bu layihəni davamlı olaraq həyata keçiririk", deyə Bakcell şirkətinin İctimaiyyətlə Əlaqələr və Korporativ Kommunikasiyalar Departamentinin rəhbəri Süheylə Cəfərova bildirib.

Şəki şəhərində keçirilən seminarda "Mobil internetdə son durum: tətbiqlər və cihazlar", "Video istehlakı - müasir kontent siyasətin aparıcı gücü", "Mobil Maliyyə xidmətləri", "Müştəri Xidmətlərinin Rəqəmsallaşdırması", "4G şəbəkəsinin üstünlükləri və əhatə dairəsi" və "Rəqəmsal Nəsil" mövzularında interaktiv sessiyalar keçirilib. "Bakcell"-in müvafiq sahələr üzrə aparıcı mütəxəssisləri həmçinin jurnalistlərə şirkətin ən son məhsul və xidmətləri, o cümlədən "Wi-Fi Evinizdə" adlanan cihaz barədə ətraflı məlumat veriblər. Qeyd edək ki seminar 2 gün davam edib.

# Azərbaycan qadınlarının etiqad azadlığı

**Qadınlar məscidə gedib-getməməkdə azaddırlar. Kimsə onları buna məcbur edə, yaxud getmək istəsələr, onlara mane ola bilməz. Bu məsələdə azyaşlı oğlan uşaqları da qadınlarla eyni hüquqlara malikdirlər.**

Ancaq məscidlərdə, yas yerlərindən fərqli olaraq, qadınların ibadət etdiyi hissədə qadın başçı (imam) olmur, onlar da məsciddə namaza başçılıq edən ümumi imamı (şiələr "imam" sözünə qısqanclıqla yanaşaraq, ona farsca "pişnamaz" adını verməyi üstün tuturlar) təqlid edərək namaz qılırlar. Fəlsəfə elmləri doktoru Lalə Mövsümova yazır: "Müsəlman qadınlar bundan heç də sıxıntı keçirmirlər. Axı onlar çox yaxşı bilirlər ki, din ehkamlar toplusudur və bu ehkamları qəbul edən şəxs onları müzakirə etməməli, yerinə yetirməlidir. İslam ehkamlarında isə "qadın imam" təsisatı yoxdur, heç bir müsəlman qadın da belə bir iddia irəli sürüb öz dininə onu pozan yenilik - bidət gətirmək istəməz. Əlbəttə, namaz qılınıb qurtardıqdan sonra qadınlar şəriət və ibadət məsələlərini öyrənmək üçün kişi imama müraciət etməkdənsə, oradaca bu məsələləri bilməsi ilə seçilən qadına müraciət etməyi üstün tuturlar. Ola bilər ki, həmin bilici qadın yas məclislərinin qadın qismini idarə edən həmin molla qadınlardan biri olsun. Söhbət əxlaq, mənəviyyat, tərbiyə, davranış qaydaları və qadınları maraqlandıran başqa məsələlərdən də gedə bilər. Namaza gələnlərin arasında çoxlu gənc qadın və qız olduğundan məscidlərdəki görüşlər həm də Azərbaycan qadınına xas olan ağbirçək məsləhəti almaq imkanı yaradır.

Məhəmməd Peyğəmbərin (s) doğum gününün (ərəb dilində: "əl-maulid ən-nəbəvi") bir bayram kimi keçirilib-keçirilməməsində müsəlmanlar yekdil rəyə gələ bilməsələr də, Azərbaycanda Sovet dövrünün qadağanları şəraitində də bu günü, gizlin də olsa, bayram kimi qeyd edən müsəlmanlar olmuşdur. Tarixçilərin bəziləri Məhəmməd Peyğəmbərin miladi tarixilə 571-ci ildə, müsəlman qəməri (ay) təqviminin Rəbiül-əvvəl ayının 12-nə uyğun olan gündə, bəziləri isə həmin ayın 17-də dünyaya gəldiyini yazırlar. Peyğəmbərin doğum günündəki bu bir neçə günlük fərqi dəqiqləşdirmək mümkün olmadığından, Türkiyə Diyanət vəqfi 1989-ci ildən başlayaraq, bu doğum gününün "Kutlu (mübarək, uğurlu - M.L.) doğum həftəsi" adı altında bir həftə - müsəlman təqviminin Rəbiül-əvvəl ayının 12-dən 17-dək bayram edilməsini uyğun hesab etmiş və bu təklif başqa müsəlman ölkələrində də rəğbətlə qarşılanmışdır".

İslam tarixi boyu Məhəmməd Peyğəmbərin (s.a.v) doğum günü "Mövlud bayramı" kimi formalaşdıqca, onun öz adət-ənənələri də təşəkkül tapmışdır. Müsəlmanlar həmin gecəni (yaxud gecələri) oyaq qalır, Quran oxuyur, namaz qılır, dualar edir, Məhəmməd Peyğəmbərə (s.a.v) həsr olunmuş şeirlər söyləyir, imkanlı şəxslər bu münasibətlə ləzzətli xörəklər hazırladıb, böyük qonaqlıqlar təşkil edirlər. Sözsüz, burada da qadın əməyi və qadın zövqü bayramın Peyğəmbərin şəninə layiq keçirilməsində mühüm rol oynayır.

Bu gecənin keçirilməsində məqsəd, sadəcə, əylənmək deyil, bu tədbirin fəlsəfəsi müsəlmanları özlərinin Peyğəmbərinin həyat yolu, əxlaqi, yüksək mənəvi keyfiyyətləri ilə tanış edərək, onlara bu mənəviyyatı aşılamaqdan ibarətdir. Ulu Öndər Heydər Əliyev milli-mənəvi dəyərlərdən səmərəli istifadə edilməsini azərbaycançılıq məfkurəsinin fundamental prinsiplərindən biri kimi qiymətləndirmişdir. Onun göstərişi ilə islam dini icmaları, müqəddəs ocaqlar bərpa olunur və yeniləri yaradılırdı. 1991-2001-ci illərdə respublikada məscidlərin sayı 19-dan 1236-ya çatmışdı. Yeni məscidlər tikilmiş, ziyarətgahlar təmir edilib abadlaşdırılmışdı.

Prezident Heydər Əliyev dinə və dindarlara ehtiramla yanaşır, milli-əxlaqi mentalitetdə islam əxlaqı normalarının əhəmiyyətini yüksək qiymətləndirir, onların inkişaf etdirilməsinə, yayılmasına hər cür yardım edirdi. Dinin mənəviyyatda rolunun artmasını Azərbaycanın inkişaf strategiyasının mühüm istiqamətlərindən biri hesab edən Ulu Öndər deyirdi ki, biz heç vaxt inamımızdan, dinimizdən uzaqlaşmayacaq və bu mənəvi mənbələrimizdən istifadə edərək, gələcəyimizi quracağıq. Eyni zamanda, o vurğulayırdı ki, bu işdə fundamentalizmə və fanatizmə yol verilməməlidir. Ulu Öndər Heydər Əliyev tez-tez dindarlarla görüşür, dini bayramlarda məscidlərə gedir, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşırdı ki, bu da xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanırdı.

Ölkəmiz müsəlman dünyasının ayrılmaz hissəsi olaraq islam mədəniyyətinin inkişafına tarixən öz töhfələrini vermişdir. Eyni zamanda, islam dini xalqımızın həm dini əqidəsi, həm də milli- mənəvi dəyəri kimi insanların həyatının ayrılmaz tərkib hissəsinə çevrilmişdir. Ulu Öndər milli-mənəvi dəyərlərin xalqın, vətəndaşların milli birliyinə xidmət etdiyini həmişə vurğulamış, dini bayramların milli həmrəyliyin təmin edilməsində mühüm rol oynadığını xüsusi qeyd etmişdir.

Dini ənənələrə sadiqlik Onun həm milli, həm də dini baxışlarının təməlində dayanırdı. Təsadüfi deyil ki, Ümummilli Lider Heydər Əliyev daim dini bayramlara və hüzn günlərinə saygı ilə yanaşmışdır. 1994-cü il martın 12-də Ramazan bayramı münasibətilə xalqı təbrikindən: "Respublikamızın müsəlmanları Ramazan ayı günlərində Allaha, Vətənə və xalqa sədaqət, sıx həmrəylik və möhkəm iradə nümayiş etdirmiş, imanlarının saflığını təkcə sözlə deyil, həm də əməllə sübut etmişdilər. İndi bu bayram günlərində hər bir müsəlmanın öz müqəddəs borcunu şərəflə yerinə yetirməkdən doğan rahatlıq, sevinc və fərəh hisslərini bildirməyə tam haqqı vardır. Mən əminəm ki, bu müqəddəs Orucluq günlərindəki ibadətlərdə edilən dua və niyyətlərin böyük əksəriyyəti müstəqil Azərbaycanımızın çiçəklənməsi, torpaqlarımızda əmin-amanlığın bərqərar olması, xalqımızın xoşbəxt və firavan yaşaması arzuları ilə bağlı olmuşdu. Allahın köməyi ilə, xalqımın hikməti ilə həmin arzuların həyata keçəcəyinə tam inanıram". Ulu Öndər Heydər Əliyevin bu çıxışından aydındır ki, O, çox fərəhlənir ki, Sovet hakimiyyəti dövründə olan qadağa aradan qalxmış və artıq hər bir azərbaycanlı bu müqəddəs bayramı rahatlıqla qeyd edə bilir.

L.Mövsümova qeyd edir ki, islamda "Mövlud bayramı" gecəsindən başqa da "Qədir gecəsi", "Merac gecəsi" kimi müqəddəs gecələr var. Məlumdur ki, müsəlman təqviminin Ramazan ayı mömin müsəlmanların oruc tutduğu - sübh namazı azanından məğrib namazı azanınadək yemək-içməkdən, bütün ləzzət və zövqlərdən imtina etməsi, şəriətlə haram sayılan, yaxud bəyənilməyən əməllərdən, hərəkətlərdən uzaq dolanmalı olduğu aydır. Ancaq bu ayinin ehkamlarına məhdud sayda mömin müsəlman tam əməl etməyə çalışır. Bu ayın ya başlanğıc, ya son üç gününü, ya da bir, bir neçə gününü oruc tutan, eləcə də, tutmayanların sayı, hələ ki, çoxluq təşkil edir. Dünyəvi dövlət prinsiplərini Azərbaycandan daha qabaq və daha mükəmməl mənimsəyib tətbiq edən Türkiyə əhalisinin Orucluğa münasibətini nəzərdən keçirdikdə, məlum olur ki, bu ayinin ölkəmizdə belə şəkil almasında, sözsüz ki, Sovet dövrü xüsusi rol oynamışdır. Belə ki, istər Türkiyə və İranda, istər ərəb ölkələrində və başqa müsəlman ölkələrində bu ayda keçirilən tədbirlər özbaşına olmayıb, ehkamlara bağlanır. Doğrudur, o ölkələrdə də oruc tutmayanlar olur, ancaq bu ehkamların verdiyi güzəştlər hüdudunda, yaxud imandan asılı olur, özfəaliyyət göstərib istədiyi günləri oruc tutmaq hallarına yol verənlərlə rastlaşmaq çətindir. Orucluq qurtarandan sonrakı - Şəvval ayının ilk üç günü "Orucluq bayramı" keçirilir. Bu bayramın başlanğıcı məsələsində İran, Türkiyə və bəzi ərəb ölkələrinin din xadimlərinin cüzi ixtilafı Azərbaycanın dindar mühitində də öz əksini tapır. Orucun ərəblər və türklərləmi, yoxsa farslarlamı birlikdə açılması məsələsi açıq müzakirə olunmasa da, hətta bayram namazının bir gün fərqlə qılınması halına yol verilən il olmuşdur.

Bu bayramın başlanması münasibətilə qılınan namazın qılınmasınadək "fitrə" adlanan Orucluq zəkatı verilir. Bu anadək çatdırılmayıb, sonra verilən fitrə, sadəcə, sədəqə hesab olunur. Fitrəni, sərbəst olaraq, ehtiyacı olan hər bir müsəlmana vermək olar. Azərbaycanda, görünür, keçmişdən bu məsələdə qazanc gətirəni olmayan, yetim saxlayan dul qadınlara üstünlük verildiyindən xalq arasında bir yarı zarafat-yarı gerçək fikir dolaşmaqdadır ki, dul qadının evinin dirəkləri qızıldan da olsa, ona fitrə düşür (yəni onun fitrə sədəqəsi almağa haqqı var). Ancaq son illər məscidlərdə bayram namazı qılan möminlərin sayı çoxaldıqca, fitrə sədəqəsi pul ilə ödənilərsə, onu məsciddə qoyulmuş sədəqə qutusuna salır, ərzaqla verilərsə, məscidin idarə işləri ilə məşğul olan məsul şəxslərə verirlər. Oradan da, təbii ki, şəriət təyinatına uyğun olaraq paylanır. Fitrə zəkatı verildiyi ölkənin əsas ərzaq kimi istifadə etdiyi dənli bitki məhsullarından (buğda, düyü və b.) və xurmadan, kişmişdən və s. olmaqla kiçik bir miqdarda (bunlardan ölkədə ən əsas ərzaq hesab olunanın 3 kq-a müvafiq olaraq), yaxud o miqdarın çəkisinə müvafiq pul şəklində verilir. Ona görə də, yuxarıda qeyd olunduğu kimi, bayram namazından sonra məscidlərin fondunda müəyyən qədər həm ərzaq, həm də pul toplanır və məscid bir neçə gün ərzində həm də xeyriyyə mərkəzinə çevrilir.

Ulu Öndər Heydər Əliyev dini bayramlarda xalqla birgə olmaq üçün müqəddəs yerlərin açılışında şəxsən iştirak edirdi. 1994-cü il Orucluq Günü münasibətilə müqəddəs yerlərə ziyarətdə bildirmişdir: "Bir vaxtlar niyyətim olub ki, Azərbaycan Respublikası müstəqil dövlət olsun, xalqımız azadlığa çıxsın, istiqlal əldə edilsin. Allaha şükürlər olsun, biz artıq bu günlərə gəlib çatmışıq. Müsəlmanlar Allahın, Məhəmməd Peyğəmbərin (s.a.v) yolu ilə gedərək, oruc tutublar. Bu bir ay müddətində dini ənənələrə görə, hər bir müsəlman mənəviyyatca daha paklaşır, təmizləşir, eyni zamanda, öz torpağına, öz Vətəninə, öz xalqına, dininə daha da sədaqətlə xidmət edir, saf niyyətlə yaşayaraq, ibadət edir və oruc tutur. Biz xalqımızı həmişə saflığa, paklığa dəvət etmişik, ona görə, Allah da bizə yar olacaq. Həzrəti Məhəmməd Peyğəmbərin qoyduğu yol həmişə bizim üçün işıqlı olacaq və biz bütün bu qaranlıqlardan, çətinliklərdən çıxacağıq".

Ulu Öndər Heydər Əliyev, hətta yüzillər əvvəl Məhəmməd Peyğəmbərin (s.a.v) nəvələrinin başına gələn müsibəti də xalqla birgə qeyd etmişdir. 1994-cü il iyunun 20-də Təzəpir məscidində Aşura Günü mərasimində iştirak edərək qeyd etmişdir: "Müsəlman aləmində faciəli, müqəddəs bir günün əziz xatirəsi qeyd olunur. Bu gün Həzrəti Məhəmməd Peyğəmbərin nəvəsi Həzrəti İmam Hüseynin qətlə yetirildiyi gündür. Biz bu gün babalarımızın Vətən, torpaq, haqq, ədalət yolunda şəhid olduğu günü yad edirik. Bütün müsəlmanlar, o cümlədən, biz azərbaycanlılar həmin faciəli günü hər il yada salmaqla Vətənə, torpağa, dinimizə, məsləkimizə sədaqətimizi bir daha nümayiş etdirmişik. Bizbundan sonra da Qurani-Şərifin, Həzrəti Məhəmmədin qoyduğu yol ilə gedəcəyik və haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrət İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq". O, burda da Vətənə, torpağa, dinimizə sədaqətin necə mühüm bir məsələ olduğunu dönə-dönə qeyd etmişdir.

1994-cü il iyulun 12-də Mədinə şəhərindəki Peyğəmbər (s.a.v) məscidinin şərəf kitabında yazılmış ürək sözlərindən: "Bu tarixi hadisə qəlbimdə böyük həyəcan və rahatlıq hissi yaratdı. Bir daha islam mənbəyinin nə qədər ümumbəşəri, fəlsəfi və elmi əsaslara malik olduğunu dərk etdim. Böyük Allahın böyüklüyünü dərk etdim".

**Vahid Ömərov,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 26 dekabr

## AzerTelecom Milli Net 2018 müsabiqəsinə baş sponsor olaraq dəstək oldu



Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayderi AzerTelecom şirkətinin baş sponsorluğu ilə keçirilmiş Milli Net 2018 - Milli İnternet Mükafatı müsabiqəsi başa çatıb.




Azərbaycan İnternet Forumu tərəfindən artıq ənənəvi olaraq hər il keçirilən Milli Net müsabiqəsinin bu il sayca 10-cu yubiley tədbiri baş tutub. Artıq ikinci ildir ki,AzerTelecom şirkətinin baş sponsorluğu ilə keçirilən Milli Net müsabiqəsinin qaliblərinin yekun təqdimat mərasimində dövlət və özəl sektorun nümayəndələri, ölkənin internet ictimaiyyətinin, İKT sektorunda fəaliyyət göstərən aparıcı şirkətlərin və media qurumlarının nümayəndələri iştirak ediblər.

Qeyd edək ki, oktyabr ayında start verilmiş Milli Net 2018 müsabiqəsinə 19 Nominasiya üzrə 406 internet resurs təqdim edilib. Bu resurslardan yalnız qaydalara uyğun olan 300 resurs (saytlar, mobil tətbiqlər və sosial media resursları) müsabiqəyə qəbul edilib və səsvermədə iştirak edib. Onların arasından isə ən yaxşıları olan 105 resurs Nominant statusu alıb, ikinci səsvermə prosesində yekun qaliblər müəyyən olunub və təqdimat mərasimində elan edilib.

Tədbirdə çıxış edən AzerTelecomşirkətinin Satış və Tərəfdaşların İdarə olunması üzrə direktoru Ləman Abasbəylibildirib ki, Milli Net müsabiqəsinin keçirildiyi 10 il ərzində layihə Azərbaycanda uğurlu milli internet resursların aşkarlanması və ictimaiyyətə tanıdılması, eləcə də internetdə ana dilimizin tətbiqinin genişləndirilməsində mühüm rol oynayıb, səmərəli bir platformaya çevrilib.O qeyd edib ki, bu il həm də AzerTelecom şirkətinin 10 illik yubileyidir və bu əlamətdar halın Milli Net-in 10 illiyi ilə üst-üstə düşməsi də çox sevindirici bir haldır."AzerTelecom şirkəti hər zaman cəmiyyətdə innovasiyaların tətbiqi, maarifləndirici, milli resursların, elm və təhsilin inkişafı ilə əlaqəli ən mühüm layihələri dəstəkləyib və bu, gələcəkdə də şirkətin fəaliyyətində əsas istiqamətlərdən biri olaraq qalacaqdır"- deyə Ləman Abasbəyli bildirib.

Təqdimat mərasimində çıxış edən digər şəxslər də Milli Net tədbirinin əhəmiyyətini vurğulayaraq layihənin milli resursların inkişafına verdiyi töhfədən bəhs ediblər.

AzerTelecom Azərbaycanın dinamik şəkildə inkişaf edən telekommunikasiya operatorudur. Şirkət 2008-ci ildə təsis edilib və əsas səhmdarı Azərbaycanın ilk mobil operatoru "Bakcell" şirkətidir. AzerTelecom ölkənin bütün əsas region və şəhərlərini əhatə edən şaxələnmiş və dayanıqlı fiber-optik kabel şəbəkəsinə sahibdir. AzerTelecom şirkətinin beynəlxalq şəbəkəsi isə dünya üzrə bütün əsas telekommunikasiya hablarına birləşir. Şirkət internetin topdan satışı, ayrılmış kanal xidməti, mobil şəbəkələrdə nəqletmə, beynəlxaql tranzit, DDoS hücumdan müdafiə, VPN, Data Mərkəz xidmətləri, SİP telefoniya və digər telekommunikasiya xidmətləri təqdim edir.

## Olimpiya Beynəlxalq Atçılıq Şousunda iştirak edən Azərbaycan idmançıları Vətənə qayıdıb



Londonda təşkil olunan ənənəvi Olimpiya Beynəlxalq Atçılıq Şousunda uğurla çıxış edən Azərbaycan idmançıları və nümayəndə heyəti dekabrın 25-də Vətənə qayıdıblar. AZƏRTAC xəbər verir ki, bununla əlaqədar Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançıların qarşılanma mərasimi təşkil olunub.

Mərasimdə Azərbaycan Atçılıq Federasiyasının (ARAF) əməkdaşları, idmançıların yaxınları, idman ictimaiyyətinin nümayəndələri və jurnalistlər iştirak ediblər.

Dekabrın 17-dən 23-dək Londonda ənənəvi olaraq təşkil edilən və 111 illik tarixə malik Olimpiya Beynəlxalq Atçılıq Şousunda Azərbaycan təmsilçilərinin valehedici çıxışları tamaşaçıları riqqətə gətirib, ingiltərəli atçılıq idmanı həvəskarlarının qəlbində Qarabağ atlarının coşqusunu alovlandırıb.

Bu ilin avqustunda Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamı ilə Əməkdar bədən tərbiyəsi və idman xadimi fəxri adına layiq görülən və Dövlət Sərhəd Xidmətinin süvarilər dəstəsinə rəhbərlik edən baş məşqçi Azər Həmzəyev uğurlu çıxışına görə komandanın hər bir üzvünü təbrik edərək deyib: "Artıq Vətəndəyik. Beş gün davam edən səfərimizin əsas məqsədi Qarabağ atlarını bütün dünyaya tanıtmaq idi. Düşünürəm ki, komandamızın hər bir üzvünün səyi nəticəsində hamını valeh edə bildik, yerli tamaşaçıların diqqətini cəlb etdik. Fasilələrdə Qarabağ atı ilə maraqlananlar bizim yanımıza gəlir, atlar və ölkəmiz haqqında sual verirdilər. Özümüzlə Qarabağ atları haqqında kitabçalar da aparmışdıq. Qarabağ atları ilə maraqlanan şəxslərə həmin kitabları payladıq. Bütün idmançılarımız sağlamdır, heç biri o möhtəşəm fəndlərdən sonra zədələnməyib".



## Şəfəq Hüseynli: "2018-ci ildə 35 antidopinq qayda pozuntusu aşkarlanıb"

"Azərbaycan Milli Anti-Dopinq Agentliyi (AMADA) 2018-ci ildə 817 test keçirib". SİA-nın məlumatına görə, bunu agentliyin direktoru Şəfəq Hüseynli ilin yekunlarına həsr olunan mətbuat konfransında deyib. O bildirib ki, bu, ötən illə müqayisədə iki dəfə çoxdur: "2017-ci ildə qurum tərəfindən 402 test götürülüb. Ən çox güləş idman növündə olub - 16,8 faiz. İkinci yerdə futbol (14,9 faiz), üçüncü sırada isə velosiped idman növüdür (11,22 faiz).

2018-ci ildə AMADA tərəfindən 35 antidopinq qayda pozuntusu aşkarlanıb. İlk "üçlük"də ardıcıllıqla güləş, taekvondo və boks idman növləri qərarlaşıb. Bu növlərdə müvafiq olaraq 12, 7 və 5 idmançıdan götürülən nümunələr müsbət nəticə verib".

Ş.Hüseynli deyib ki, cari ildə Ümumdünya Anti-Dopinq Agentliyinin (WADA) İcraiyyə Komitəsinin və Təsisçilər Şurasının Bakıda iclası keçirilib. Həmçinin Avropa Şurasının Antidopinq Konvensiyası üzrə Monitorinq Qrupun Bakıya səfəri olub. Onun sözlərinə görə, AMADA-nın inspektorları 2018-ci il Qış Olimpiya Oyunlarında, Asiya Oyunlarında çalışıblar.

## Martial bir qola 105 dəqiqə sərf edir



İngiltərənin "Mançester Yunayted" futbol klubunun hücumçusu Antoni Martial Premyer Liqada hər qola orta hesabla daha az vaxt sərf edir. Fransız hücumçu 105 dəqiqədən bir qol vurur və bu göstərici ilə İngiltərə çempionatında qola ən az vaxt sərf edən oyunçudur.

"Arsenal"ın hücumçusu Emerik Obameyanq bir qola 116 dəqiqə sərf etməklə ikinci pillədə qərarlaşıb. İlk üçlüyü "Mançester Siti" klubunun oyunçusu Rəhim Sterlinq 134 dəqiqə ilə tamamlayıb. Qeyd edək ki, "Liverpul"un hücumçusu Məhəmməd Salah 135 dəqiqədən və "Tottenhem"in futbolçusu Harri Keyn isə 161 dəqiqədən bir fərqlənir.

## "Neftçi"dən ayrıldı, "Sumqayıt"a keçdi




"Neftçi" daha bir futbolçu ilə yollarını ayırıb. Qol.az-ın klubun rəsmi saytına istinadən yaydığı xəbərə görə, "ağ-qaralar" Rəşad Eyyubovdan sonra qapıçı Rəşad Əzizli ilə də müqaviləyə qarşılıqlı razılaşma əsasında xitam verib.

Artıq qolkiperin yeni klubu da bəllidir. Rəşad bundan sonra "Sumqayıt"ın formasını geyinəcək. Sözügedən klubdan saytımıza verilən məlumata görə, onunla bu gün rəsmi müqavilə imzalanıb. Anlaşmanın müddəti 1,5 illikdir.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Riyaziyyat-informatika ixtisası üzrə II kurs tələbəsi Təhməzova Tamam Tərlan qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Tarix və coğrafiya müəllimliyi ixtisası üzrə II kurs tələbəsi Musayeva Afaq İbrahim qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

***

ADPU-nun Filologiya fakültəsinin ingilis dili müəllimliyi ixtisasının III kurs tələbəsi Mehdiyeva Lamiyə Arzu qızına məxsus tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
*Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**